

# İLHAM ƏLİYEVİN UĞUR FORMULU

## Düşünülmüş strategiya, düzgün taktika

Azərbaycan yeni dövrə qədəm qoymaqla artıq bütün hədəflərin reallığa çevrildiyini, yeni çağırışlara zərurət duyulduğunu təsdiqlədi. Bu dövrün mühüm hadisəsi prezident seçkiləri oldu. 7 fevral 2024-cü il prezident seçkilərində inamlı qələbə qazanan dövlət başçısı İlham Əliyev həmin ayın 14-də Milli Məclisdə keçirilən andiçmə mərasimində son 20 ilin hesabatını verərək bildirdi ki, bu dövr uğurlarla, qələbələrlə zəngin illər oldu. Çətinliklər də, problemlər də oldu, ancaq Azərbaycan xalqı bir yumruq kimi birləşərək, bunlara baxmayaraq, inkişaf və tərəqqi yolu ilə uğurla gedir.



### Azərbaycan daha yüksək uğurlar qazanmaq üçün inamla addımlayır

Təbii ki, hədəflərin bütünlüklə yerinə yetirildiyi bir dövrün təqdimatını etmək qürurvericidir. 2003-cü ildən sonra əsas hədəf torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası, soydaşlarımızın doğma yurd-yuvalarına qayıdışının reallığa çevrilməsi idi. Məhz gücümüzün, qüdrətimizin, ədalətə və beynəlxalq hüquqa söykənən siyasətimizin, birliyimizin sayəsində 30 il işğal altında qalan torpaqlarımızın azad edilməsinə nail olduq. Dövlət başçısı İlham Əliyevin bu günlərdə dərc edilən, lakin bu ilin yanvarında Davos şəhərində keçirilən Dünya İqtisadi Forumu çərçivəsində Çinin CGTN (China Global Television Network) telekanalına müsahibəsi də Azərbaycanın keçdiyi inkişaf yolunun təqdimatında zəngin mənbədir. Prezident İlham Əliyev jurnalistin "Ölkəniz çox güclü təməl üzərində dayanıb. Mənə maraqlıdır, bu, təkcə özünüz barədə yox, bu gün olan liderlik haqqında nəyi bildirir" sualına cavabında diqqətə çatdırdı ki, liderlik, əlbəttə ki, böyük bir məsuliyyətdir və ən önəmlisi ondan ibarətdir ki, lider həmişə öz xalqına, öz əhalisinə münasibətdə ədalətli olmalıdır: "Heç vaxt xalqına yalan danışmamalısan və xalq bunu yüksək qiymətləndirəcək. Bəzən müəyyən siyasi səbəblər ucbatından hakimiyyətə can atan liderlər çoxlu vədlər verir və sonra onları yerinə yetirmir və bu da məyusluğa, inamsızlığa gətirib çıxarır. Bu, dünyanın müxtəlif yerlərində siyasi böhrana gətirib çıxarır. Lakin bizə gəldikdə, iyirmi ildən artıq müddət ərzində mən həmişə Azərbaycan xalqına həqiqəti söyləmişəm. Bu həqiqətin müsbət və ya mənfi olmasından asılı olmayaraq. Həmişə xalqıma "biz ədaləti bərpa edəcəyik" söyləmişəm və xalqım da mənə inanıb. 17 il hakimiyyətdə olandan sonra biz, nəhayət, vəd etdiklərimizi yerinə yetirdik və suverenliyimizi, ərazi bütövlüyünü və ləyaqətimizi bərpa etdik. Beləliklə, ictimaiyyətin dəstəyini əldə etmək istəyən liderlərə məsləhətim o olardı ki, həmişə həqiqəti söyləyin və beynəlxalq təzyiqdən, beynəlxalq mediadan asılı olmayaraq, haqqınızda nə dediklərindən, sizi necə adlandırdıqlarından, sizi necə təhqir etmələrindən asılı olmayaraq, ölkəniz üçün doğru olanı edin. Beləliklə, siz özünüz və ölkəniz uğur qazanmış olacaqsınız".

2003-cü ildən Heydər Əliyev siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev dahi şəxsiyyətin yaratdığı möhkəm təməl üzərində Azərbaycana daha möhtəşəm uğurlar, zəfərlər qazandırdı. Bu zəfərlər Azərbaycan tarixinə xüsusi özəlliyi ilə yazılan 7 fevral 2024-cü il tarixdə prezident seçkilərinin keçirilməsini bir zərurətə çevirdi. Müstəqillik tariximizdə ilk dəfə olaraq bütün ölkə ərazisində prezident seçkiləri keçirildi. Dövlət başçısı İlham Əliyev ailə üzvləri ilə birlikdə Xankəndi şəhərində səs verdi. Ölkə Prezidenti andiçmə mərasimində "Bu, tarixi hadisədir və bu tarixi hadisə bizim çoxəsrlik tariximizdə xüsusi yerə malikdir. Bu prezident seçkilərinin əsas əlaməti, xüsusiyyəti və önəmi ondadır ki, müstəqillik dövründə ilk dəfə idi ki, seçkilər ölkəmizin bütün ərazilərində keçirilmişdir. Mən, bildiyiniz kimi, səsvermə prosesində Xankəndidə iştirak etmişdim. Mən Azərbaycanın istənilən yerində səs verə bilərdim, ancaq hesab etdim ki, Xankəndidə səs verməyim daha düzgün olar" söylədi.

Dövlət başçısı İlham Əliyevin prezident seçkilərində inamlı qələbəsindən ötən bir ildə qazanılan uğurların xronologiyasına diqqət yetirəndə qalib Azərbaycanın yeni reallıqlar əsasında müəyyənləşdirdiyi hədəflərə doğru inamla addımladığını görür və bundan böyük qürur hissi keçiririk. Nəzərə alaq ki, hazırkı dövrün əsas çağırışlarından biri azad edilmiş ərazilərimizdə bərpa-quruculuq işlərinin həyata keçirilməsi, Böyük qayıdış proqramının uğurlu icrasıdır. Son bir ilin bu sahədə hansı yeniliklərlə yadda qaldığı göz qabağındadır. Soydaşlarımız mərhələ-mərhələ doğma yurd-yuvalarına qayıdır, bu tarixi anların sevincini yaşayırlar. Cənab İlham Əliyev ötən ilin yanvarında yerli televiziya kanallarına müsahibəsində sakinlərinə qovuşacaq şəhərlərimiz sırasında Şuşa, Xankəndi, Xocalı, Kəlbəcər və Cəbrayıl şəhərlərinin adlarını xüsusi qeyd etmişdi. Ötən il Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümündə Şuşa şəhəri, 28 May - Müstəqillik Günündə Xocalı şəhəri, 4 Oktyabr - Cəbrayıl Şəhəri Günündə Cəbrayıl şəhəri sakinlərinə qovuşdu. Dövlət başçısı bu ilin 7 yanvar tarixində yerli televiziya kanallarına müsahibəsində Böyük qayıdış proqramının uğurlu icrasına diqqəti yönəldərək görülən işlərlə yanaşı, hədəfləri də açıqladı. Bildirdi ki, bu ilin sonuna qədər daha 20-yə yaxın yaşayış məntəqəsinə keçmiş məcburi köçkünlər qayıdacaq. O şəhər və kəndlərin adları artıq seçilib, layihələr icra edilir.



2024-cü il seçki ili kimi xarakterizə olunur. Belə ki, sentyabrın 1-də bütün ölkə ərazisində parlament seçkiləri keçirildi. Həmin seçkilərdə ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan, cəmiyyətin avanqard qüvvəsinə çevrilən Yeni Azərbaycan Partiyası tarixinə növbəti qələbə səhifəsini yazdı. Xalqın böyük əksəriyyətinin partiyanın namizədlərinə dəstəyi, səsvermə prosesinin yüksək fəallıq şəraitində keçməsi YAP-ın sözlə əməl birliyinin, tutduğu yola sadiqliyinin, yeni-yeni hədəflərə doğru inamla addımlayaraq, Azərbaycanın hərtərəfli inkişafına böyük töhfələr verməsinin nümayişi oldu. "Yeni dövrə yeni Azərbaycanla!" şüarı ilə seçkilərə qatılan Yeni Azərbaycan Partiyasının ölkədə keçirilən seçki proseslərinə dövrün çağırışlarına uyğun devizlə qatılması özündə mühüm məqamları ehtiva edir. 7 fevral prezident seçkilərində "Qalib xalqın qalib lideri!" çağırışını edən Yeni Azərbaycan Partiyası 1 sentyabr parlament seçkilərində "Yeni dövrə yeni Azərbaycanla!" dedi.

Son bir il özündə iqtisadi, siyasi, diplomatik, humanitar, hərbi və digər sahələrdə sadalamaqla bitməyən, genişmiqyaslı uğurları birləşdirir. Bu uğurların məcmusu belə təsəvvür yaradır ki, sanki böyük bir dövrün xronologiyasını təqdim edirik. Prezident İlham Əliyevin sərəncamı ilə 2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edildi. Azərbaycanın iqlim dəyişmələrinin yaratdığı problemlərin həllinə verdiyi töhfələrə beynəlxalq dəstək mötəbər COP29 iqlim konfransının ölkəmizdə keçirilməsi barədə qərarın qəbul edilməsini şərtləndirdi. Ölkəmizin beynəlxalq tədbirlərə evsahibliyi təcrübəsi COP29-u da yüksək səviyyədə təşkil etməsinə geniş imkanlar açdı. Bu mötəbər tədbiri böyük uğur adlandıran dövlət başçısı İlham Əliyev bildirdi ki, bizim üçün daha bir mühüm amil ölkənin təqdimatı idi. Regionda hələ buna bənzər, bu qədər qonağın iştirak etdiyi ikinci belə tədbir keçirilməyib. Bu, ölkənin təqdimatı idi. Görüşdüyümüz və ölkəmizə ilk dəfə səfər edənlərin hamısı gördüklərinin onlarda dərin təəssürat yaratdığını söyləyirdilər. Çünki Azərbaycan haqqında məlumat qıtlığı, məqsədyönlü dezinformasiya bir çoxunun fikirlərinə təsir edir və onlar Azərbaycana gəlib fəal cəmiyyət, savadlı insanlar, peşəkar personal, şəhərin gözəlliyi və cəmiyyətdə ümumi rahatlığı gördükdə, bu, əlbəttə ki, fərqli təəssürat yaradır.

COP29-un nəticələri bu gün də ölkə və dünya mətbuatında müzakirə olunmaqdadır. Bakı nailiyyəti çoxtərəfliliyin təntənəsi kimi dəyərləndirilir. 200-ə yaxın ölkədən 76 min qeydiyyatdan keçmiş iştirakçının, 80 dövlət və hökumət başçısının tədbirə qatılması Azərbaycanın beynəlxalq nüfuzunun təqdimatı idi. Bu reallıq daim etiraf olunur ki, zəfərimiz, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunması digər sahələr kimi, xarici siyasətdə də mühüm uğurlara geniş imkanlar açdı. Azərbaycanın müxtəlif dövlətlərlə ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrinin coğrafiyası daha da genişləndi.

Dövlət başçısı İlham Əliyevin sərəncamı ilə hər bir ilin müəyyən bir sahə, yaxud əlamətdar tarixlə əlaqələndirilməsi il ərzində mühüm uğurlara stimul verir. Bu baxımdan 2025-ci il ölkə Prezidentinin sərəncamı ilə Azərbaycanda "Konstitusiya və Suverenlik İli" elan edildi. Sənəddə də qeyd olunduğu kimi, bu gün Azərbaycan xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə, öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir. Konstitusiyamızın bəyan etdiyi niyyətlərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğunu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq imzalanan bu sərəncam Azərbaycanın hüquqi, demokratik, sivil dövlət olaraq atdığı addımların, qazandığı təcrübənin təbliğində əhəmiyyətli rol oynayacaq.

Qısa təhlil belə bir ümumiləşdirməyə əsas verir ki, Azərbaycanın hərtərəfli inkişafı üçün möhkəm təməl mövcuddur. Ümummilli Lider Heydər Əliyevin düşünülmüş və gələcəyə xidmət edən siyasəti, cənab İlham Əliyevin son 21 ildə bu xətti uğurla davam etdirməsi müasir müstəqil, qalib, yeni Azərbaycanı daha da gücləndirir, onun beynəlxalq nüfuzunu artırır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, dünya xəritəsində nisbətən yeni olan Azərbaycanın öz milli maraqlarını müdafiə edən və bütün dünyada yaxşı əlaqələr quran ölkə kimi nümunəsi onu göstərir ki, cəmiyyətdə sabitlik, birlik varsa, öz maraqlarınızı müdafiə edə bilərsiniz.

Bu gün tarixi Zəfərimizin, suverenliyimizin yaratdığı reallıqları yaşayırıq. Bu reallıqlardan biri tarixi Zəfərimizdən dərhal sonra Azərbaycanın regionda dayanıqlı sülhə, təhlükəsizliyə nail olmaq üçün Ermənistana sülh müqaviləsinin imzalanmasını təklif etməsidir. O zamandan 4 ildən çox vaxt keçməsinə baxmayaraq, Ermənistan hələ də havadarlarının göstərişinə uyğun olaraq addımlar atmaqla sülh müqaviləsinin imzalanması prosesinin uzanmasına səbəb olur. Dövlət başçısı İlham Əliyevin ötən il andiçmə mərasimində qeyd etdiyi kimi, biz öz məsələmizi həll etmişik. Ermənistanla sülh müqaviləsinin imzalanmasının da təşəbbüskarı biz olmuşuq. Beş məlum prinsipin də müəllifi biz olmuşuq. Sülh müqaviləsinin mətnini də biz yazmışıq, Ermənistan tərəfinə göndərmişik. İndi Ermənistan beynəlxalq hüququn normalarına riayət etmək istəyirsə, bu müqavilə imzalanacaq. İstəmirsə, yenə də bizə qarşı əsassız iddialar irəli sürüləcəksə, bu müqavilə imzalanmayacaq, ancaq Azərbaycan üçün heç nə dəyişməyəcək.

Onu da qeyd edək ki, ötən ilin qürurverici, əlamətdar hadisələrindən biri Qazax rayonunun 4 kəndinin işğaldan azad edilməsi oldu. Bu mühüm hadisə Azərbaycanın növbəti diplomatik uğuru idi. Tarixi Zəfərimiz, suverenliyimizin tam bərpa edilməsi zəfərlərimizin davamlılığını təmin edir. Azərbaycan hər zaman ədalətin və beynəlxalq hüququn yanındadır. Bu prinsiplər qarşıya qoyulan hər bir hədəfə zamanında nail olmağa stimul verir. Artıq ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa edilib. Azad edilmiş bütün torpaqlarımızda Azərbaycan bayrağı dalğalanır. Qarabağımız və Şərqi Zəngəzurumuz dirçəlir, cənnətməkana çevrilir. Böyük qayıdış proqramının uğurlu icrası nəticəsində soydaşlarımız mərhələ-mərhələ doğma yurdlarına qayıdırlar. Növbəti missiya Qərbi Azərbaycana qayıdışdır. Xalqımız tam əmindir ki, dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev tezliklə bu müjdəni də çatdıracaq: Biz Qərbi Azərbaycana qayıtdıq.

***Vüqar RƏHİMZADƏ,***
***Milli Məclisin deputatı***

### Yüksəliş, rifah və Zəfər missiyası

**2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar prezident seçkiləri Azərbaycanın siyasi tarixinin ən əlamətdar hadisələrindən biri oldu. Çünki Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra ilk dəfə olaraq məhz bu seçki Qarabağda, Xankəndidə, Şuşada keçirildi. Bu seçki ilə respublikamız torpaqlarımızın işğaldan azad edilməsindən sonra yeni tarixi dövrə qədəm qoydu.**



Azərbaycanın demokratik dəyərlərə sadiqliyini bir daha bütün dünyaya nümayiş etdirən bu seçkinin nəticələri göstərdi ki, möhtərəm İlham Əliyev Azərbaycan seçicisinin inandığı, güvəndiyi və öz taleyini etibar etdiyi siyasi liderdir. Bu seçkinin nəticələri təsdiq etdi ki, xalqımız Ulu Öndər Heydər Əliyev siyasi kursunu inkişafın və yüksəlişin yeganə yolu olaraq qəbul edir.

Prezident İlham Əliyevin Azərbaycana rəhbərliyi ölkəmizə inkişaf, quruculuq, yüksək rifah gətirib. Məhz cənab İlham Əliyevin qətiyyətli və praqmatik siyasəti nəticəsində Azərbaycan qüdrətini artırıb, regionda və dünyada söz sahibi olan nüfuzlu dövlətə çevrilib. Bu siyasətin nəticəsidir ki, Azərbaycan regionun əsas nəqliyyat mərkəzidir, Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən etibarlı coğrafi məkandır.

Respublikamızın Prezident İlham Əliyevin liderliyi ilə nail olduğu uğurlarından biri də Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu enerji strategiyasının təntənəsidir. Bütün təzyiqləri, erməni diasporunun maneçiliklərini qətiyyətlə dəf edən Prezident İlham Əliyev Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin istifadəyə verilməsini təmin etdi. Prezident İlham Əliyev həm də "Cənub qaz dəhlizi" kimi nəhəng bir layihənin ərsəyə gəlməsini təmin edən liderdir. Bu layihəni reallaşdırmaqla Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin enerji siyasətini tamamilə yeni mərhələyə yüksəltdi və bu gün Azərbaycanın Xəzərdən hasil etdiyi təbii qaz "Cənub qaz dəhlizi" vasitəsilə Avropaya çatdırılır.

Xüsusilə qeyd etməliyik ki, iqtisadiyyatın inkişafı, vətəndaşların sosial rifahının yüksəldilməsi Prezident İlham Əliyevin hər zaman diqqət yetirdiyi məsələlərdən biri olub. Bu məqsədlə davamlı şəkildə həyata keçirilən iqtisadi islahatların, dövlət proqramlarının nəticəsi olaraq, son 21 ildə Azərbaycan iqtisadiyyatı 3 dəfədən çox böyüyüb. Hazırda Azərbaycanda adambaşına düşən ÜDM ortagəlirli ölkələrdə adambaşına düşən orta ÜDM-dən yüksəkdir.

Ölkəmizin yüksəlişinə nail olmaqla yanaşı, Prezident İlham Əliyev dünya birliyində onun mövqelərini davamlı şəkildə gücləndirib. Dövlət başçısının düşünülmüş, məqsədyönlü fəaliyyəti ölkəmizdə milli birliyin, sabitliyin daha da möhkəmlənməsinə, Azərbaycanın regional və beynəlxalq miqyasda nüfuzunun daha da artmasına gətirib çıxarıb. Bu siyasət Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsini, Qoşulmama Hərəkatına rəhbərlik etməsini, kosmik klubun üzvünə və beynəlxalq tədbirlərin məkanına çevrilməsini təmin edib.

Möhtərəm Prezident İlham Əliyevin respublikamıza rəhbərliyinin ən möhtəşəm uğuru torpaqlarımızın işğaldan azad olunmasıdır. Həm Vətən müharibəsindəki Zəfər, həm də antiterror tədbirləri nəticəsində Qarabağda milli suverenliyimizin təmin olunması tarixə İlham Əliyevin qətiyyətli siyasətinin təntənəsi kimi düşüb. Bu zəfərlərin baş memarı Prezident İlham Əliyevdir. Məhz Azərbaycan Prezidetinin düşünülmüş və uzaqgörən siyasəti ən ağrılı problemlərimizə son qoydu, keçmiş məcburi köçkünlərin doğma yurd həsrəti bitdi. İndi Qarabağ və Şərqi Zəngəzur yenidən qurulur, bu yerlərin əzəli sakinləri öz evlərinə dönürlər. Azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq işlərinin fonunda bir daha Prezident İlham Əliyevin hər birimiz üçün böyük nümunə olan vətən sevgisi, quruculuq əzmi aydın görünür.

Bütün bu nailiyyətlər, tarixi hadisələr göstərir ki, İlham Əliyevin siyasi kursu güclü Azərbaycan deməkdir. Bu mənada xalqımızın ən ülvi arzularından biri bu siyasətin, yüksəliş, rifah və zəfər missiyasının davamıdır. Ötən ilin növbədənkənar prezident seçkilərinin nəticəsi də bunu nümayiş etdirdi. Səsvermənin nəticələri bir daha təsdiq etdi ki, Prezident İlham Əliyev xalqımızın layiqli lideridir.

Ötən il fevralın 14-də cənab İlham Əliyev Azərbaycan Prezidenti kimi Milli Məclisdə and içdi. Həmin vaxt etdiyi geniş nitqində dövlət başçısı Azərbaycanın keçdiyi yüksəliş yolunu ətraflı təhlil süzgəcindən keçirdi, bu dövrü qələbələr və nailiyyətlərlə zəngin illər kimi xarakterizə etdi. Eyni zamanda Prezident İlham Əliyev dərin məzmunlu çıxışında Azərbaycanın qədəm qoyduğu yeni tarixi reallıqlar şəraitində qarşıda duran vəzifələrə nəzər saldı. Həmin çıxışdan göründüyü kimi, dövlətimizin milli təhlükəsizliyinin və müdafiə qabiliyyətinin daha da möhkəmləndirilməsi, işğaldan azad edilmiş torpaqların bərpası, sosial-iqtisadi inkişaf, texnoloji üstünlüyün təmin edilməsi, milli-mənəvi dəyərlərə sadiq olan gənc nəslin yetişdirilməsi, azərbaycançılıq məfkurəsinin gücləndirilməsi kimi məsələlər yeni dövrdə diqqət mərkəzində saxlanılacaq.

Bu gün Prezident İlham Əliyevin Milli Məclisdə and içməsindən bir il ötür. Bu bir ildə xarici və daxili siyasətdə böyük nailiyyətlər əldə olunub, qarşıya qoyulmuş vəzifələrin icrası baxımından mühüm tədbirlər həyata keçirilib. Bütövlükdə cənab İlham Əliyevin yeni prezidentlik müddətinin birinci ili əlamətdar hadisələrlə zəngindir. Bu dövrün siyasi və iqtisadi mənzərəsi təsdiq edir ki, qarşıda Azərbaycanı yeni-yeni uğurlar gözləyir.

***Müşfiq MƏMMƏDLİ,***
***Milli Məclisin deputatı***



# İLHAM ƏLİYEVİN UĞUR FORMULU

## Düşünülmüş strategiya, düzgün taktika

## Lider yolunun təntənəsi

Bu il yanvarın 20-də Prezident İlham Əliyevin Davosda Çinin China Global Television Network telekanalına müsahibəsində dövlət başçımız ötən dövrün yekunlarını təhlil edərək belə bir konseptual nəticə hasil etmişdi - "Ölkəmiz üçün son illərin ən mühüm nailiyyəti ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası oldu. Biz bunu beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanaraq, BMT Nizamnaməsinə və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq həyata keçirdik".

Həqiqətən də, qlobal qütbləşmənin və ziddiyyətlərin dərinləşdiyi bir situasiyada proseslərdən nəinki itkisiz çıxmaq, üstəlik, qalib tərəf olaraq mürəkkəb bir konfiqurasiyanın hökm sürdüyü şəraitdə reallıqları lehinə dəyişə bilmək ərazi və əhali göstəriciləri ilə kiçik sayılan bir dövlət üçün müstəsna nailiyyətdir. Xüsusən nəzərə alsaq ki, bu nailiyyət dövlətçiliyin təməl prinsipləri sayılan müstəqillik və suverenlikdə ifadə olunur.

Fevralın 14-ü cənab İlham Əliyevin Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyinin tam bərqərar olunduğu bir şəraitdə keçirilən ilk prezident seçkilərinin mübahisəsiz qalibi kimi andiçmə mərasimindən bir il ötür. Məlumdur ki, hələ növbədənkənar prezident seçkilərinə qədər, ötən il yanvarın 10-da yerli televiziyalara müsahibəsində Prezident İlham Əliyev bəyan etmişdi ki, seçkilər bütöv bir dövrə yekun vurur. Ötən ilin bu günü Milli Məclisdə baş tutmuş andiçmə mərasimindəki fenomenal yaddaşa və müstəsna dövlətçilik təcrübəsinə əsaslanan çıxışı ilə cənab İlham Əliyev tam fərqli bir konfiqurasiyaya nail olunduğu yeni dövr üzrə prioritetlərimizi, o cümlədən daxili və xarici siyasət kursunun sərhədlərini aydın formada müəyyən etdi.

Dövlət başçısı ilk növbədə bildirdi ki, qarşıdakı dövr üzrə Azərbaycanın bu gün ən yüksək səviyyədə təmin etdiyi təhlükəsizliyi və müdafiəsini daha da gücləndirmək naminə ordu quruculuğu və hərbi sənayenin inkişafı prosesinə xüsusi önəm verməkdə davam edəcək. Məlumdur ki, Azərbaycan Respublikası konstitusion səviyyədə başqa dövlətlərin müstəqilliyinə qəsd vasitəsi və beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rədd edir. Lakin sirr deyil ki, bu gün özünü beynəlxalq ictimaiyyətin təmsilçisi kimi təqdim edən, lakin beynəlxalq hüquqa hörmətlə yanaşmayan subyektlər də daxil, bir çox dövlət üçün bu prinsip keçərli deyil. Xüsusən Vətən müharibəsində və antiterror tədbirlərində müstəsna qələbəmizin nəticəsi olaraq cənab İlham Əliyevin yaratdığı yeni reallıq fonunda biz bu güclərin riyakar mahiyyətinin üzə çıxdığının şahidi oluruq.

Cənab Prezident İlham Əliyev inaqurasiya mərasimindəki tarixi çıxışında bildirmişdi ki, biz İkinci Qarabağ müharibəsi və antiterror tədbirləri ilə sarsılmaz hesab olunan elə bir daşları tərpətdik ki, bunu bizə bağışlamayacaqlar, biz bunu bilməliyik. Əgər kimsə hesab edir ki, bizdən əl çəkəcəklər, səhv edir. Biz hazır olmalıyıq, səfərbər olmalıyıq. Məhz bu məqsədlə sərhədlərimizin təhlükəsizliyinin daha da gücləndirilməsi zərurətdir. Dövlət başçısının təbiri ilə desək, bu, Azərbaycanı xarici risklərdən də qoruyacaq. Əlbəttə, Müzəffər Ali Baş Komandanın özünün də vurğuladığı kimi, bu gün biz Azərbaycan üçün təhdid görmürük, "çünki bilirlər ki, bizim cavabımız amansız olacaq, sarsıdıcı olacaq və heç nəyə baxmadan o cavab veriləcək". Lakin unutmamalıyıq ki, ideoloji risklər sərhəd tanımır. Bu mənada dövlət başçısı təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və sərhədlərimizin möhkəmləndirilməsinə həm də ideoloji risklərdən qorunma imkanı kimi baxır və bu məsələ yeni dövrdə də Azərbaycanın vacib prioritetlərindən olacaq.



Ümumiyyətlə, cənab İlham Əliyev üçün ideoloji bütövlük və tamlıq, azərbaycançılıq ideologiyası, ailə dəyərlərinin qorunması gənc nəslin milli məfkurə və vətənpərvərlik ruhunda tərbiyəsində ehtiva olunur. Bu mənada əminliklə demək olar ki, ötən il fevralın 14-dən başlanan yeni epoxada ailə və məktəb tərbiyəsi istiqamətində dövlət siyasətinin daha çevik və effektiv metodlarla realizə olunmasına start verilib və cənab İlham Əliyev ardıcıl qələbələri ilə Azərbaycanın ən qüdrətli dövrünü başlatmaqla elə siyasi konfiqurasiya formalaşdırıb ki, xalqımız milli birliyin əhəmiyyətini tarixin heç bir dövründə olmadığı qədər yaxşı başa düşür.

Yeni dövrdə milli prioritetlərimizdən digəri ümumbəşəri dəyərlərə və beynəlxalq hüququn normalarında əksini tapan prinsiplərə sadiq qalmaqla xarici siyasət kursunda 3 konkret istiqamətin müəyyən olunmasıdır. Birincisi, Azərbaycan artıq əvvəlki qaydalarla - ikili standartla formalaşan riyakar qlobal nizamın şərtləri ilə hesablaşmaq niyyətində deyil. Əlbəttə, bunun da kökündə cənab İlham Əliyevin Heydər Əliyev siyasi kursuna arxalanaraq nail olduğu ciddi hərbi-siyasi, sosial və iqtisadi uğurlar dayanır. Dövlət başçısının andiçmə mərasimində hər bir Azərbaycan vətəndaşının qəlbini qürurlandıran formada qətiyyətlə dediyi kimi, "Biz öz məsələmizi həll etmişik. Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik!" Bu isə Bakıya özünün xarici siyasət kursunu daha rahat formada korreksiya etmək və yeni dövrün tələbinə uyğunlaşdırmaq imkanı verir. Məsələn, Azərbaycan artıq maskası yırtılmış beynəlxalq hüquq subyektlərinin riyakarlığına və ayırıcı xətlərdə ehtiva olunan selektiv siyasətinə dözmək niyyətində deyil. Ona görə də yeni dövrün memarı olaraq cənab İlham Əliyev beynəlxalq fəaliyyətdə prioritet olaraq türk dünyası ilə əlaqələri müəyyən edir.

Xarici siyasət kursumuzun ikinci vacib konseptual elementi isə Azərbaycanın daha çox qlobal oyunçu kimi çıxış etmək niyyətində ehtiva olunur. Sirr deyil ki, əvvəllər regional problemlər ucbatından daha çox lokal reallıqlara köklənməli olsaq da, məhz mövcud siyasi iradənin qətiyyəti ilə Azərbaycan artıq həmin dövrləri geridə qoyaraq özünü qlobal oyunçu kimi təsdiq edib. Cənab İlham Əliyevin dediyi kimi, əks halda 155 ölkə bizi BMT Təhlükəsizlik Şurasına üzv seçməzdi. Əgər belə olmasaydı, 120 ölkə bizi Qoşulmama Hərəkatının sədri etməzdi. Əgər belə olmasaydı, dünya birliyi COP29 konfransının Azərbaycanda keçirilməsi ilə bağlı qərar verməzdi. Bu gün isə hədəfimiz zəfər qazanmış, reallıqlar yaratmış, lider dövlətin haqlı mövqeyi üzərində bərqərar olunub və biz Ermənistanın timsalında hansısa üçüncü dünya dövləti ilə münasibətlərə vaxt ayırmaq yox, lider qlobal subyektlərdən biri kimi iqlim dəyişiklikləri, islamofobiyaya və neokolonializmə qarşı mübarizədə dünyanı narahat edən problemlərin həllində daha fəal olmağı planlaşdırırıq. Ermənistanla münasibətlərə gəlincə, yeni dövr üçün cənab İlham Əliyevin bu istiqamətdə yol xəritəsi kifayət qədər aydındır. Azərbaycan bu məsələdə qlobal manipulyatorlara meydan verməyəcək - bu məsələnin əhəmiyyətinin süni şəkildə şişirdilməsinə lüzum yoxdur.

Prezident İlham Əliyev iqtidarının əsas diqqətçəkən xüsusiyyətlərindən biri də dayanıqlı inkişafın dövlət siyasətinin mütləq prioritetinə çevrilməsi oldu. Daxili sabitlik, xalq-iqtidar birliyi Prezident İlham Əliyevə çoxşaxəli islahatları reallaşdırmağa, çoxvektorlu dövlət siyasəti həyata keçirməyə imkan verdi. Nəticədə son 22 ildə bütövlükdə dövlətçilik tarixində olmadığı qədər ölkə iqtisadiyyatında qeyri-neft sektorunun çəkisi artırıldı, qlobal miqyaslı nəqliyyat-kommunikasiya sistemləri quruldu, təhsil, səhiyyə, idman infrastrukturu faktiki olaraq tam yeniləndi. Qısa haşiyə olaraq qeyd edim ki, İlham Əliyev hakimiyyəti illərində tikilən təhsil və idman obyektlərinin sayı bütün dövrlərdə mövcud olanlardan daha çoxdur.

Şərq-islam dünyası və özünəməxsus Qafqaz məfkurəsi Prezident İlham Əliyevi sözünün - vədinin sahibi, dar günün dostu, milli-mənəvi dəyərlərin himayəçisi, həssas ailə dəyərlərinin qatı mühafizəçisi, həmçinin sözünün kəsəri olan türk-müsəlman və Qafqaz kişisi kimi xarakterizə edir və istisnasız olaraq onunla hesablaşır. Qərb üçün isə İlham Əliyev beynəlxalq hüququ rəhbər tutan, müasir proseslərdən nəinki məlumatlı, üstəlik, modern tendensiyaları uğurla idarə edə bilən məharətli siyasi oyunçu, ikili standartlardan uzaq lider və xalqının milli hissiyyatını, dövlətinin maraqlarını rəhbər tutmaqla hər kəslə öz dilində danışmağı bacaran etibarlı tərəfdaşdır.




Dövlət başçısının məhz bu xüsusiyyətləri Azərbaycana milli maraqları qorumaqla artan müttəfiqliklər, qurulan sağlam və bərabərhüquqlu əməkdaşlıqlar şəbəkəsi formalaşdırmağa imkan verir. Nəticədə ölkəmizin regional statusunun əhəmiyyəti davamlı şəkildə artır və Azərbaycanın qlobal oyunçu kimi özünütəsdiqi baş verir.

Möhtərəm Prezident Qarabağ məsələsində məhz Ulu Öndərin direktivlərini rəhbər tutdu. İlk növbədə Ümummilli Liderin azərbaycançılıq fəlsəfəsi milli nüvə olaraq müəyyən edildi, bu məfkurə ilə həyata keçirilən sistemli sosial və siyasi tədbirlərin qanunauyğun nəticəsi kimi milli vəhdət tam bərqərar edildi. Azərbaycanda gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynamaqda olan yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik, ən əsası isə qələbəyə köklənmiş gənc nəsil formalaşdırıldı.

Bütövlükdə ötən 22 illik dövrü təhlil etsək, aydın şəkildə müşahidə edə bilərik ki, Prezident İlham Əliyevin hər bir qərarı, təşəbbüsü və addımı Azərbaycanı Qarabağın və Şərqi Zəngəzurun azadlığına bir addım daha yaxınlaşdırdı. İlham Əliyev ilk növbədə həyata keçirdiyi məqsədyönlü islahatlar və genişmiqyaslı tədbirlərlə ölkəmizi iqtisadi cəhətdən tam müstəqil olan suveren gücə çevirməyə nail oldu. Güclü iqtisadiyyat isə hərbi-müdafiə qüdrətinin rəhnində dayanan amildir. Prezident İlham Əliyev Azərbaycanı regionun hərbi-siyasi gücünə çevirərək, 30 illik işğal faktoruna cəmi 44 gün ərzində son qoyaraq milli missiyanı tamamladı. 2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi və ordumuzun gücü nəticəsində Zəfərlə sona çatdı. Beləliklə, 2003-cü ildən etibarən Azərbaycanda ordu quruculuğu istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər bütövlükdə bölgənin taleyini dəyişdi. İlk növbədə bizə məğlub və zəif kimi baxanlar Müzəffər Ali Baş Komandan İlham Əliyevin iradəsi qarşısında əyilməyə, "dəmir yumruq" ətrafında birləşmiş xalqımızı dünyada mübariz, döyüşkən və müzəffər xalq kimi qəbul etməyə məcbur oldu.

Ümumiyyətlə, Vətən müharibəsi, həm aralıq cəza əməliyyatları, həm də antiterror tədbirləri zamanı Prezident İlham Əliyev bizə illər uzunu nələrisə öyrətməyə, yaxud təlqin etməyə çalışan beynəlxalq birliyə ustad dərsləri keçdi.

Birincisi, BMT Təhlükəsizlik Şurasının 30 il müddətində icra edilməyən qətnamələrini icra etməklə Azərbaycan beynəlxalq hüququn aliliyini təmin etdi. İkincisi, milyonların həyatına qəsd edib bizə beynəlxalq humanitar hüquqdan dərs keçmək istəyənlərə mülki insanları hədəfə almadan müharibə və antiterror tədbirləri aparmağın yolunu göstərdi.

Bu gün artıq Prezident İlham Əliyevin Azərbaycanı yeni prioritetlər müəyyənləşdirib. Zəfərdən cəmi 8 gün sonra Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə Qarabağ və Şərqi Zəngəzura səfər edən İlham Əliyev Azərbaycan tarixinin ən böyük Zəfərinin ardınca tariximizin irihəcmli quruculuq-bərpa prosesinə start verib.

Böyük qələbənin nəticəsində Müzəffər Ali Baş Komandanın yaratdığı yeni reallıq da Qarabağın bərpası və inkişafını nəzərdə tutan Böyük qayıdış strategiyasının tükənməz aktuallığını təmin edir. Bütün işlər Azərbaycanın öz imkanları hesabına həyata keçirilir və dünya bir daha görür ki, İlham Əliyev necə qüdrətli bir dövlət qurub. İşğala son qoyulmasından cəmi 4 il yarım keçir, amma artıq bölgədə iki beynəlxalq hava limanı uçuşları qəbul edir, 2025-ci ildə isə üçüncüsü, Laçın Beynəlxalq Hava Limanının istifadəyə verilməsi planlaşdırılır.

Prezident İlham Əliyev şəxsiyyət, həmçinin türk dünyası üçün də tarixi şans hesab edilir. Çünki mövcudiyyəti dövründə türk xalqları heç vaxt bu qədər yaxın, bu qədər vahid amal uğrunda birləşməyə nail olmamışdı. Xüsusən tarixi Şuşa Bəyannaməsi ilə ən ali səviyyəyə ucalan Azərbaycan-Türkiyə münasibətləri bütün türk dünyası üçün ümid yerinə çevrilib.

Əlbəttə, bu reallığı görmək istəməyən beynəlxalq subyektlər var və anlayırıq ki, bundan sonra da olacaq. Lakin bir nəfər kimi İlham Əliyevin ətrafında birləşən Azərbaycan xalqı əmindir ki, artıq güclü-qüdrətli dövlətimiz üçün böhtanlar, qarayaxmalar önəm daşımır və qalib Azərbaycan hər kəsə layiq olduğu formada cavab verməyi bacarır. Çünki İlham Əliyev məhz Heydər Əliyevin arzu etdiyi, uğruna ömrünü qurban verdiyi qüdrətli Azərbaycan dövlətçilik modelini təqdim edə bilib. Bu isə artıq ümumbəşəri dəyərlərin milli maraqlarla uzlaşmasına nail olmuş Lider yolunun təntənəsidir. Bu məqamda yenidən yazının əvvəlindəki istinad etdiyimiz - Prezident İlham Əliyevin China Global Television Network telekanalına müsahibəsində səsləndirdiyi tezisin aktuallığı önə çıxır. "Liderlik, əlbəttə ki, böyük bir məsuliyyətdir və ən önəmlisi ondan ibarətdir ki, lider həmişə öz xalqına, öz əhalisinə münasibətdə ədalətli olmalıdır. Heç vaxt xalqına yalan danışmamalısan və xalq bunu yüksək qiymətləndirəcək. İyirmi ildən artıq müddət ərzində mən həmişə Azərbaycan xalqına həqiqəti söyləmişəm. Bu həqiqətin müsbət və ya mənfi olmasından asılı olmayaraq".

***Bəhruz MƏHƏRRƏMOV,***
***Milli Məclisin deputatı***

## Yeni hədəflərin başlanğıcı

**Prezident İlham Əliyevin ötən illər ərzində həyata keçirdiyi müdrik və uzaqgörən siyasət nəticəsində Azərbaycan sabitlik adasına, təhlükəsizlik məkanına, inkişaf diyarına çevrilib. Ən əsası Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa olunub.**



Məhz bütün bunların nəticəsidir ki, ötən il fevralın 7-də keçirilmiş və tariximizə Zəfər seçkisi kimi yazılmış prezident seçkilərində xalqımız öz liderinə - cənab İlham Əliyevə bir daha sonsuz inam və etimadını ifadə etdi.

Fevralın 14-də isə Prezident İlham Əliyev vətənə, dövlətə və xalqa sədaqət andı içdi. Dövlət başçısı andiçmə mərasimində çıxışı zamanı qarşıda dayanan vəzifələr və hədəflərdən ətraflı bəhs etdi. Bununla da müasir müstəqil Azərbaycanın tarixində yeni mərhələ başladı.

Prezident İlham Əliyev çıxışında ölkəmizin gələcək inkişafı, regionda vəziyyət və Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılmasına geniş yer verib.

Azərbaycan müstəqil siyasi kurs həyata keçirir. Ölkəmizin reallaşdırdığı siyasət sırf müstəqillik və suverenlik kimi fundamental prinsiplərə əsaslanır. Prezident İlham Əliyev andiçmə mərasimində söylədiyi nitqində ölkəmizin xarici siyasət kursu ilə bağlı strateji seçiminə bir daha diqqət çəkib. Dövlət başçısı tərəfindən müyyənləşdirilən çoxvektorlu xarici siyasət kursunun əsas mahiyyəti ondan ibarətdir ki, burada milli maraqlar əsas götürülür, eyni zamanda tərəfdaşlara böyük hörmət bəslənilir və onlarla qarşılıqlı maraqlar əsasında sıx əməkdaşlıq qurulur. Belə effektiv siyasətin nəticəsidir ki, hazırda respublikamıza və onun lideri İlham Əliyevə həm yerləşdiyi coğrafiyada, həm də uzaq xaricdə böyük hörmət bəslənilir. Azərbaycan Rusiya, Gürcüstan, Türkiyə, İran və Ermənistanla quru sərhədlərinə malikdir. Mərkəzi Asiyadakı ayrı-ayrı ölkələrlə isə bizi Xəzər dənizi birləşdirir. Ölkəmizin qonşuluq siyasəti səmimilik, xoş niyyət və beynəlxalq hüquq normalarına əsaslanır.

Respublikamızın nüfuzlu beynəlxalq təşkilatlarda, o cümlədən Birləşmiş Millətlər Təşkilatında yüksək fəallığı diqqəti cəlb edir. Qısa müstəqillik tarixinə malik olan Azərbaycanın 2011-ci il oktyabrın 24-də BMT Baş Assambleyasının plenar iclasında gizli səsvermənin nəticələrinə əsasən, 2012-2013-cü illərdə Şərqi Avropa bölgəsini qurumun Təhlükəsizlik Şurasında təmsil edəcək qeyri-daimi üzv seçilməsini diplomatiyamızın BMT zirvəsi kimi səciyyələndirə bilərik. Respublikamız 2011-ci ildə isə Qoşulmama Hərəkatına tamhüquqlu üzv qəbul olunub. Ölkəmizin Qoşulmama Hərəkatında təmsilçiliyi uzun zaman müddətini əhatə etməsə də, öz səmərəliliyi və məhsuldarlığı ilə diqqət çəkdi. Azərbaycanın Qoşulmama Hərəkatının (QH) prinsiplərinə sadiqlik nümayiş etdirməsi, daim onun ideyalarının təşviqinə çalışması, ehtiyac yarandığı təqdirdə ayrı-ayrı üzv dövlətləri dəstəkləməsi, qurumun fəaliyyətinə digər sanballı töhfələr verməsi QH-də ölkəmizə böyük etimad və nüfuz qazandırdı. Bunun nəticəsidir ki, Hərəkata üzv ölkələrin 2016-cı ildə Venesuelada keçirilmiş Zirvə görüşündə quruma 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsi barədə yekdil qərar qəbul edildi. Qoşulmama Hərəkatı dövlət və hökumət başçılarının 25-26 oktyabr 2019-cu il tarixlərdə Bakıda keçirilmiş 18-ci Zirvə Görüşündə quruma sədrlik Azərbaycana həvalə olundu. Eyni zamanda Qoşulmama Hərəkatına üzv dövlətlər quruma 3 illik sədrliyi 2022-ci ildə bitməli olan Azərbaycana Hərəkata əlavə bir il də sədrlik etmək barədə müraciət ünvanladılar və bu müaciət respublikamız tərəfindən müsbət dəyərləndirildi. Ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi kifayət qədər uğurlu oldu və qurumun nüfuzunu, funksionallığını əhəmiyyətli dərəcədə artırdı. Dünya birliyinin BMT-nin genişmiqyaslı tədbirlərindən sayılan COP29 konfransının Azərbaycanda keçirilməsi ilə bağlı qərar qəbul etməsi beynəlxalq səviyyədə ölkəmizə inamın artmasının daha bir ifadəsi oldu. Ölkəmiz mühüm ekoloji çağırışların, "yaşıl enerji" gündəliyinin müzakirə olunacağı bu tədbirə də yüksək səviyyədə evsahibliyi etdi. Ötən ilin noyabrında baş tutan tədbir böyük uğurlarla yadda qalıb.

Yeni dövrdə xarici siyasətimizin prioritetlərindən biri türk dünyasına inteqrasiyanın dərinləşdirilməsidir. Bununla bağlı Prezident İlham Əliyev andiçmə mərasimində tarixi fikir söyləyib: "Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir, mən bunu açıq demək istəyirəm, yəqin ki, indi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır".

Dövlət başçısının yeni dövrdə ölkəmizin xarici siyasət kursunun prioritetlərindən biri kimi türkdilli dövlətlərlə inteqrasiyanın dərinləşdirilməsinin zəruriliyini önə çəkməsi heç də təsadüfi deyil. Ölkə rəhbəri andiçmə mərasimindəki nitqində açıq danışaraq bildirmişdi ki, bizi heç yerdə gözləmirlər və bunu artıq gizlətmirlər: "Əgər əvvəlki illərdə, xüsusilə işğal dövründə bizi çaşdırmaq üçün, yeni gözdən pərdə asmaq üçün müəyyən vədlərlə cəlb etməyə çalışırdılarsa, indi o maskalar da yırtıldı və açıq-aydın burada ayırıcı xətlər müşahidə olunur. Biz o ayırıcı xətləri çəkməmişik, bu xətlərin əleyhinəyik. Biz hətta cəmi üç ölkənin yerləşdiyi Cənubi Qafqazda bu gün bu ayırıcı xətləri açıq-aydın görürük. Belə olan halda bizi haradasa qəbul etmək istəməyənlərə baş əyməliyikmi? Qətiyyən, bu, olmayacaq!" Türk dünyası isə bizim üçün doğmadır və burada biz özümüzü, Prezident İlham Əliyevin bildirdiyi kimi, çox yaxşı hiss edirik.

Dövlət başçısı İlham Əliyev suverenliyimizin bərpa olunmasını yeni dövrün başlanğıcı kimi səciyyələndirib. Bu mənada 7 fevral seçkilərində cənab İlham Əliyevin seçki kampaniyasının "Yeni hədəflərə doğru!" şüarı ilə həyata keçirilməsi təbii qanunauyğunluq idi.

Beləliklə, yeni mərhələdə qarşımızda yeni hədəflər dayanır. Bu hədəflərə çatmaq üçün 7 fevral prezident seçkilərinin nəticələri müstəsna əhəmiyyət kəsb edir. Azərbaycan xalqı seçkilərdə cənab İlham Əliyevə səs verməklə məhz özünün güclü lideri ilə yeni hədəflərə çatacağını təsdiqləmiş oldu.

***Sevinc FƏTƏLİYEVA,***
***Milli Məclisin deputatı***



# İLHAM ƏLİYEVİN UĞUR FORMULU

## *Düşünülmüş strategiya, düzgün taktika*



## Azərbaycanın şanlı inkişaf tarixində daha bir uğurlu il



7 fevral 2024-cü ildə keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində - "Zəfər seçkisi"ndə xalqımız, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və ölkəmizin hərtərəfli inkişafına mühüm zəmin yaradan uğurlu sosial-iqtisadi və xarici siyasət kursunun cənab İlham Əliyev tərəfindən davam etdirilməsinə, ölkəmizdə sabitliyin qorunmasına növbəti dəfə öz səsini vermişdir.

Torpaqlarımız işğaldan azad olunduqdan sonra ilk dəfə olaraq bütün ərazilərimizdə keçirilən prezident seçkilərində Prezident İlham Əliyevin inamlı qələbəsi xalqımızın öz Liderinə dərin inam və sevgisinin növbəti sübutu oldu. Seçkilərin nəticələri Azərbaycan xalqının Liderinə inamını, qlobal miqyasda nüfuzlu siyasətçi olmasını bir daha təsdiqlədi. Aparıcı dünya dövlətlərinin və beynəlxalq təşkilatların rəhbərlərinin Prezident İlham Əliyevə ünvanladıqları təbrik məktublarında yer alan səmimi ifadələr də məhz bunun nümayişi idi.

Prezident İlham Əliyevin mükəmməl Liderlik bacarığı, xalq-iqtidar və vətəndaş-dövlət birliyinin nümunəvi modeli sayəsində son 1 il Azərbaycanın şanlı inkişaf tarixində daha bir qürurverici, yeni səhifənin açılması ilə əlamətdar olmuşdur.

Ölkəmiz üçün ən mühüm siyasi hadisələrdən biri olan "Zəfər seçkisi"ndən sonrakı 1 il ərzində Azərbaycan iqtisadiyyatı uğurla inkişaf etmişdir. Belə ki, 2024-cü ildə ölkədə 126,3 milyard manatlıq ümumi daxili məhsul istehsal olunmuş, yəni əvvəlki illə müqayisədə ümumi daxili məhsul 4 faizdən çox artmışdır. Əhalinin hər nəfərinə düşən ÜDM 12382,5 manata bərabər olmuşdur. İqtisadi inkişafın bizim üçün əsas göstəricisi olan qeyri-neft sektorunun inkişafını xüsusilə qeyd etmək lazımdır. İqtisadiyyatımızın qeyri-neft-qaz sektorunda əlavə dəyər 6 faizdən çox, qeyri-neft-sənaye sektorunda isə 7 faizdən çox artmışdır.

Ümumiyyətlə, bu günədək ölkəmizdə sosial-iqtisadi inkişafın təmin olunması üçün qəbul edilmiş bir çox dövlət proqramı nəticəsində ölkə iqtisadiyyatı dinamik inkişaf edərək, əhalinin sosial vəziyyəti xeyli yaxşılaşdırılmışdır. Əməkhaqları, pensiyalar, təqaüdlər və müavinətlər artırılmış, yoxsulluq səviyyəsi minimuma enmişdir.

Xüsusilə qeyd edilməlidir ki, dövlət büdcəsində sosialyönlü xərclərin ardıcıl artımı hökumətin sosial siyasətinin mühüm nəticəsidir.

Azərbaycan Respublikası Prezidentinin "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" 23 dekabr 2024-cü il tarixli Sərəncamına əsasən, 2025-ci il yanvarın 1-dən minimum əməkhaqqı, 2025-ci il fevralın 1-dən isə əmək pensiyasının minimum məbləği artmışdır.

Məhz Prezident İlham Əliyevin sosial sahəyə xüsusi diqqəti və qayğısı çərçivəsində, ölkədə sosial tərəqqi və sosial müdafiə sisteminin gücləndirilməsi istiqamətində ardıcıl olaraq mühüm addımların atılması təmin edilmişdir.

Beynəlxalq müstəvidə də uğurla gerçəkləşdirilən prinsipial və müstəqil siyasət kursu dövlətimizin nüfuzunu davamlı olaraq artırmaqdadır. Dünyanın əksər ölkəsi ilə istər ikitərəfli, istərsə də çoxtərəfli formatda qarşılıqlı hörmət və səmərəli əməkdaşlıq prinsipləri üzərində qurulan əlaqələr öz bəhrəsini verməkdədir. Xüsusilə qeyd edilməlidir ki, ölkəmiz sədrlik etdiyi və ya üzv qəbul olunduğu beynəlxalq təşkilatlarda daim öz fəallığı ilə seçilmiş və bu təşkilatların fəaliyyətinə əhəmiyyətli töhfə vermişdir. Bu baxımdan, ölkəmizin bu ildən Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə sədrliyi, həmçinin inkişaf etməkdə olan səkkiz islam ölkəsini birləşdirən D8 qrupuna üzvlüyü prosesində qeyd olunan təşkilatların fəaliyyətinin intensivləşməsində vacib rol oynayacağı şübhə doğurmur.

Heç şübhəsiz, son əsrlərdə ilk dəfə olaraq Azərbaycanı şanlı Zəfərə qovuşduran Liderimizin xalqımız qarşısında misilsiz xidmətləri dövlətimizi və xalqımızı daha böyük uğurlara aparacaq və əminik ki, Vətənimiz Azərbaycan qarşıdan gələn illərdə də davamlı nailiyyətlərə imza atacaq.

***Zaur ŞÜKÜROV,***
***Milli Məclisin deputatı***

## Xalqın dövlət rəhbərinə inam və etimadı yüksəkdir



Prezident İlham Əliyev ötən il fevralın 14-də Milli Məclisdə andiçmə mərasimi zamanı bir sıra əsas məsələlərə toxunaraq, o cümlədən, Azərbaycanın daxili və xarici nailiyyətləri, gələcək məqsədləri və dövlətin qarşısında duran əsas vəzifələr barədə danışmışdı.

Prezident mərasim zamanı Azərbaycan xalqına göstərdiyi etimad və dəstək üçün təşəkkürünü bildirmiş və ölkənin inkişafı və ərazi bütövlüyünün qorunması üçün gələcəkdə də əlindən gələni edəcəyini vurğulamışdı.

Xarici siyasətdə müsbət dəyişikliklər və Ermənistanla münasibətlərin normallaşması məsələləri, ölkənin iqtisadi inkişafı, hərbi gücünün gücləndirilməsi, texnoloji inkişaf, bərpaolunan enerji layihələri və xarici sərmayə ilə bağlı həyata keçirilən islahatların əvvəlki dönəmdə olduğu kimi, bundan sonra da davam edəcəyini bildirmişdi.

Azərbaycanın beynəlxalq nüfuzunun artması, eyni zamanda dünya miqyasında ölkəmizin aktiv rol oynaması ötən il özünü daha qabarıq göstərmişdi. Prezident İlham Əliyev Azərbaycanın müstəqil xarici siyasət apardığını və heç bir xarici qüvvənin ölkəmizi düz yoldan döndərə bilməyəcəyini bəyan etmişdi.

Ötən ildən etibarən Azərbaycan daha iki ölkəyə - Macarıstana və Serbiyaya qaz nəql etməyə başladı. Bununla bizim Avropaya qaz təchizatımızın coğrafiyası daha da genişləndi. Bu gün Azərbaycan 12 ölkəyə qaz nəql edir ki, onlardan onu Avropa ölkəsidir.

Ötən il Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasında çıxışı zamanı cənab Prezident ötən il baş verən vacib hadisələrdən biri kimi Xəzər dənizinin Azərbaycana məxsus sektorunda, "Abşeron" qaz-kondensat yatağında təbii qazın kommersiya hasilatı olduğunu qeyd etmişdi. Bu, "Şahdəniz"dən sonra ikinci nəhəng qaz ehtiyatlarının kəşfi deməkdir.

Prezident İlham Əliyevin növbəti uğuru BMT-in İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransına evsahibliyinin dünyanın 200-ə yaxın ölkəsi tərəfindən Azərbaycana həvalə olunması idi. COP29 tədbirinin uğurla keçirilməsi də beynəlxalq arenada qazandığımız növbəti nailiyyət oldu.

Türk Dövlətləri Təşkilatının regionda güc mərkəzinə çevrilməsində də məhz cənab Prezident İlham Əliyevin böyük dəstəyi olub, türk dövlətlərinin inteqrasiyasını təşviq edərək regional əməkdaşlığı gücləndirib.

Cari ildə Azərbaycanın Qahirədə keçirilən (D8) İqtisadi Əməkdaşlıq Təşkilatının Sammitində bu təşkilatın üzvlüyünə qəbul edilməsi də çox əlamətdar hadisədir. Otuz ildən sonra bu təşkilata üzv olan ilk ölkə Azərbaycan oldu.

İlham Əliyevin prezidentliyi dövründə həyata keçirilən infrastruktur layihələri ölkənin iqtisadi gücünü artırıb, sosial rifah sahəsində həyata keçirilən islahatlar isə xalqın həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırıb. Müasir avtomobil yolları və magistrallar inşa edilib, həm daxili, həm də beynəlxalq əlaqələri asanlaşdıran yol şəbəkəsi qurulub. Hava nəqliyyatı sahəsində də böyük nailiyyətlər əldə edilib. Yeni hava limanları tikilib, mövcud olanlar isə beynəlxalq standartlara uyğun şəkildə yenidən qurulub. Xüsusilə işğaldan azad edilmiş ərazilərdə Füzuli, Zəngilan hava limanlarının istifadəyə verilməsi Azərbaycanın iqtisadi və strateji imkanlarını daha da artırıb.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin adı Azərbaycanın şanlı tarixinə qızıl hərflərlə yazılıb. Azərbaycan xalqının öz dövlət rəhbərinə yüksək inam və etimadı ötənilki seçkilərlə bir daha təsdiqləndi.

***Pərvanə VƏLİYEVA,***
***Milli Məclisin deputatı***

## Zəfərimizin memarı

**Son** prezident seçkiləri ərazi bütövlüyünü, suverenliyini tam bərpa etmiş Azərbaycanın üçrəngli bayrağının qürurla və əzəmətlə dalğalandığı bütün ərazilərində keçirildiyi üçün dövlətçilik tariximizin ən önəmli siyasi hadisələrindən biridir. Azərbaycan bu tarixi seçkilərlə yeni, təbii ki, qarşıda milli hədəflər üçün sonsuz üfüqlər açan tarixi bir mərhələyə daxil oldu.



Azərbaycan torpaqlarının işğaldan azad olunmasına, suverenliyimizin bərpasına yönəlmiş, əcdadlarımızın vəsiyyətini, xalqımızın arzularını ifadə edən tarixi missiya uğurla başa çatdırıldı və fevralın 14-də Milli Məclisdə keçirilən andiçmə mərasimi ilə tarixi dövlətçilik ənənələrimiz, milli dəyərlərimiz, döyüş və Zəfər ruhumuz, qurub-yaratmaq potensialımızdan ibarət yeni bir mərhələyə qədəm qoyuldu.

İki yüz ilin yükünün, ümidlərinin toparlandığı 20 illik zaman kəsiyində öz tarixi missiyasının birinci mərhələsini uğurla başa vuran Prezident İlham Əliyev Zəfərimizin memarı və qalib ölkəmizin rəhbəri kimi Azərbaycan vətəndaşlarının mütləq əksəriyyətinin səsini, etimadını, dünya azərbaycanlılarının və Türk dünyasının sevgisini qazanmış lider, müstəmləkəçiliyin zülmü altında əzilən milyonların haqq səsinin carçısı olaraq and içdiyi kürsüdən işığına doğru yürüyəcəyimiz yeni hədəfləri nişan verdi, milli birliyimizin, həmrəyliyimizin bu hədəflərə çatmaq üçün əsas amil olduğunu vurğuladı.

Andiçmə mərasimində Prezident İlham Əliyevin tarixi nitqində yer alan fikirlərdən bir daha bəlli oldu ki, dövlətimizin başçısının, hər zaman olduğu kimi, regionda və dünyada cərəyan edən geosiyasi proseslərin inkişafı ilə bağlı tamamilə aydın, dəmir məntiqə söykənən qənaətləri var. O, Azərbaycanın təhlükəsizliyini, sabit inkişafını təmin edə biləcək perspektiv istiqamətləri, milli hədəflərə varmaq üçün seçilən yolda bizi xalq və dövlət olaraq gözləyən çağırışların spektrini ən incə detallarına kimi müəyyənləşdirib, nəyi necə və nə vaxt edəcəyini çox yaxşı bilir. Bu xüsusda Prezident İlham Əliyevin nitqində diqqət çəkmək istədiyim məqamlardan biri dövlətimizin başçısının türk dünyasının gələcəyi və ölkəmizin bu tarixi prosesdəki missiyası ilə bağlı səsləndirdiyi fikirlərdir.

Bizim bir xalq və dövlət olaraq, ən böyük üstünlüyümüz yalançı vədlərin, gəlişi gözəl, bər-bəzəkli çağırışların, imperialist və müstəmləkəçi iddiaların pərdələnməsinə xidmət edən ilğım geosiyasi nəzəriyyələrin, paxırı qalaylanmış "növbətçi "təbəssüm"lərin girovuna çevrilməməyimizdir. Dünyada baş verən proseslərlə bağlı aydın təsəvvürlərimizin formalaşmasının, dövlətimizin, xalqımızın ilğım perspektivlərə güvənməməsinin, bətnində milli identikliyimizi, müqavimətimizi sıradan çıxarmaq niyyəti daşıyan saxta vədlərə inanmamağımızın təməlində isə istisnasız olaraq Prezident İlham Əliyevin doğrunu yalandan, haqqı nahaqdan, işığı qaranlıqdan zərgər dəqiqliyi ilə seçmək məharəti, milli iradəni ifadə etmək bacarığı, zəkası və xarakteri dayanır.

Bu məqamda real mənzərənin daha aydın şəkildə göz önünə sərgilənməsi üçün Azərbaycan Prezidentinin tarixi nitqindən iqtibas gətirmək zəruridir: "Əgər əvvəlki illərdə, xüsusilə işğal dövründə bizi çaşdırmaq üçün, yəni, gözdən pərdə asmaq üçün müəyyən vədlərlə cəlb etməyə çalışırdılarsa, indi o maskalar da yırtıldı və açıq-aydın burada ayırıcı xətlər müşahidə olunur. Biz o ayırıcı xətləri çəkməmişik, biz bu ayırıcı xətlərin əleyhinəyik. Biz hətta, cəmi üç ölkənin yerləşdiyi Cənubi Qafqazda bu gün bu ayırıcı xətləri açıq-aydın görürük. Belə olan halda, bizi haradasa qəbul etmək istəməyənlərə baş əyməliyikmi? Qətiyyən, bu, olmayacaq!"

Bəli, biz kimsəyə baş əyməmişik, əyməyəcəyik də...

Arzulanmadığımız məkanlara isə saxta vədlərin girovuna çevrilənlərdən fərqli olaraq, nə vaxtımız var, nə də istəyimiz. Heç mənsub olduğumuz mədəniyyət və bizi ayaqda saxlayan milli-mənəvi dəyərlər də buna imkan vermir.

Biz özgə qapılarından mədət gözləyən toplum olmaqdan, assimilyasiyaya, istibdada, məxməri müstəmləkəçiliyə xidmət edən vədlərin parıltılı tələlərindən çoxdan qurtulmuşuq. Bizim ailəmiz türk dünyasıdır. Biz aid olduğumuz yerdə, doğmalarımızın arasındayıq və aid olduğumuz yerin də təəssübünü çəkir, inkişafına çalışırıq. Biz ləyaqətimizi, milli qürurumuzu çoxsaylı məhrumiyyətlər, çətinliklər bahasına dirçəltməmişik ki, onu özgə qapılarının dekorativ bəzəyinə çevirək. Bu baxımdan ailəmiz də, hədəfimiz də, liderimiz də bəllidir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Türk Dövlətləri Təşkilatı birliyin və gücün rəmzidir, qlobal dünyada aktora və güc mərkəzinə çevrilməlidir. Türk Dövlətləri Təşkilatına üzv olan ölkələrin zəngin təbii ehtiyatları, insan resursları, Avrasiyada ən önəmli, qlobal geostrateji əhəmiyyət daşıyan bir ərazidə yerləşmələri TDT-nin beynəlxalq münasibətlər sisteminin ən güclü aktorlardan birinə çevrilməsinə imkan verir. Bu prosesin sürətlə irəliyə doğru aparılması üçün isə gərəkli olan möhkəm, tarixin dərin qatlarında kök salan təməl, milli iradə və bu iradəni gerçəkləşdirə biləcək potensial var.

Prezident İlham Əliyevin 2024-cü il fevralın 14-də andiçmə mərasimində səsləndirdiyi fikirlər təkcə Azərbaycan və azərbaycanlılar üçün deyil, bütün türk xalqları üçün milli hədəflərin daş kitabəsidir. Prezident İlham Əliyevin xalqına və türk dünyasına xitabən dediyi sözlər çağdaş türk dünyasının Bilgə xaqan abidəsidir.

"Ey türk oğuz bəyləri, türk xalqı, eşidin! Üstdən göy çökmədikcə, altdan yer dəlinmədikcə türk ulusunu, türk yurdunu, türk dövlətini, türk törəsini kim dağıda bilər?! Su kimi axıtdığın qanına, dağlar kimi yığdığın sümüyünə (şəhidlərinə) layiq ol! Ey ölümsüz türk milləti, titrə və özünə dön!"

Özünə dönmənin, qayıdışın yolu isə, Müzəffər Ali Baş Komandanın dediyi kimi, Türk ailəsinin bütövlüyündən keçir. Bizim evimiz, ocağımız, bugünümüz və gələcəyimiz aid olduğumuz yer - Türk Ailəsidir!

***Elçin MİRZƏBƏYLİ,***
***Milli Məclisin deputatı,***
***Ədalət, Hüquq, Demokratiya Partiyasının sədr müavini***



# İLHAM ƏLİYEVİN UĞUR FORMULU

## Düşünülmüş strategiya, düzgün taktika

**Xalqa arxalanan, vətəndaşlarının dəstəyindən güc alan Lider böyük qüdrət sahibidir. Məhz xalqının maraqlarını daim ifadə edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bütün məsələlərlə bağlı konkret mövqeyi var. Bu mövqe ilk növbədə Azərbaycan dövlətinin milli maraqlarıdır. Ölkəmizdə, regionda, ümumən dünyada sülh və inkişafın təmin olunması üçün formalaşan, şərait yarandıqca yubanmadan həyata keçirilən strateji baxışlar sistemidir. Qarşıya qoyulmuş böyük hədəflərdir.**



## Məqsədyönlü siyasətin uğurları və yeni strateji hədəflər

Prezident İlham Əliyev tərəfindən görülən işlərin, əməli addımların müasir dövrün reallıqlarına, tələblərinə və qanunauyğunluqlarına müvafiq surətdə uğurla və qətiyyətlə davam etdirilməsi bugünkü milli inkişafın fundamental əsaslarını təşkil edir. Müxtəlif inkişaf modellərinin uğurla tətbiqi və hədəflənən nəticələrin əldə olunması, sosial-siyasi islahatların mütəmadi qaydada həyata keçirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, vətəndaş cəmiyyəti və hüquqi dövlətin inkişafına maksimum əlverişli şəraitin yaradılması, möhkəm təməllərə söykənən ictimai-siyasi sabitliyin qorunması, ölkəmizin beynəlxalq münasibətlər sisteminin nüfuz və güc müstəvisində sürətli şəkildə irəliləməsi müasir Azərbaycanın gerçəklikləridir.

Ötən il fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milli Məclisdə keçirilmiş andiçmə mərasimi dövlətçilik tariximizə ölkə qanunvericiliyindən irəli gələn seçkisonrası rəsmi prosedurdan daha çox Azərbaycanın yeni strateji dövrünün başlanğıcı kimi yazıldı. Ölkə rəhbərinin andiçmə mərasimindəki nitqi də Azərbaycanın gələcək inkişaf istiqamətlərini əhatə edən geniş və əhatəli bir konsepsiya kimi bu dövrün əsas hədəf istiqamətlərini təyin etdi. Bu nitq gələcək onilliklərdə respublikamızın inkişaf yolunu müəyyənləşdirən proqram xarakterli mühüm yol xəritəsidir.

### Yeni dövrün əsas prioriteti: güclü ordu quruculuğu

Azərbaycan Prezidentinin bu tarixi nitqi 2020-ci ildə 44 günlük Vətən müharibəsindəki qələbəmizlə, ardınca 2023-cü ildə qısamüddətli antiterror əməliyyatı nəticəsində Qarabağda separatizm yuvasının dağıdılması ilə ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin təmin olunmasından, müstəqillik tariximizdə ilk dəfə olaraq bütün ölkə ərazisində seçkinin keçirilməsindən sonraya təsadüf edirdi. Əsrlərin problemini yoluna qoymuş, müstəqillik tariximizin ən mühüm vəzifələrini uğurla yerinə yetirmiş xalqımızın yeni strateji dövrdə də uğur qazanması, milli vəhdətimizin gücü ilə böyük nəticələrə nail olması üçün dövlət başçısı andiçmə mərasimindəki çıxışında gələcək istiqamətləri, hədəfləri, yerinə yetirməli olduğumuz vəzifələri aydın göstərdi.

Bu dövrün əsas vəzifələrindən biri ordu quruculuğunun müasir dövrün çağırışlarına uyğun şəkildə davam etdirilməsi, Silahlı Qüvvələrimizin daha da gücləndirilməsidir. Tarixi Zəfərimizdən sonra da bu istiqamətdə ardıcıl addımlar atılır. Azərbaycan Ordusu hər keçən gün əvvəlkindən daha güclü, qüdrətli olur. Silahlı Qüvvələrimizin inkişafı ilə bağlı müvafiq işlər görülür, ən müasir silah-sursatlar, texnika alınır, yeni silahlı birləşmələr yaradılır. Ölkəmizin müdafiə potensialı getdikcə yüksəlir. Ali Baş Komandan İlham Əliyev andiçmə mərasimindəki çıxışı zamanı bu xüsusda dedi: "Biz elə ordu yaratmışıq ki, - bundan sonra da bu işlər davam edəcək, - heç kim bizə sataşa bilməz və gələcəkdə də belə bir fikirdə ola bilməz". Bu, kimlərəsə qarşı təhdid deyil, Azərbaycana qarşı xam xəyallara düşmək istəyənlərə yerlərinin, hədlərinin göstərilməsidir. Ölkəmiz Ermənistan və onun havadarlarından fərqli olaraq, hər zaman beynəlxalq hüquq normalarına uyğun davranır. Onun hər hansı bir ölkənin suveren ərazilərində gözü yoxdur, bununla yanaşı, dövlətimiz suverenliyimizi təhdid edən istənilən təxribatın da qarşısını almaq iqtidarındadır.

Ordu quruculuğu ilə yanaşı, Azərbaycan güclü hərbi sənaye kompleksinin yaradılması istiqamətində işləri də uğurla davam etdirir. Siyasi, iqtisadi sahədə tam müstəqil olduğu kimi, bu sahədə də xarici asılılığı getdikcə minimallaşdırır. Yerləşdiyimiz coğrafiyanın xarakterik xüsusiyyətləri, ərazilərimizə hərbi təcavüz edib uzun illər işğal altında saxlamış Ermənistan kimi qonşumuzun olması, həmçinin artıq demək olar ki, üçüncü dünya müharibəsinin astanasına gəlib çatmış müasir dünyamızın reallıqları Azərbaycandan yeni strateji dövrdə də güclü olmağı tələb edir və ölkəmiz bu çağırışa uyğun olaraq hərtərəfli tədbirlərlə öz hərbi potensialını yüksəldir. Eyni zamanda dövlət sərhədlərinin etibarlı şəkildə qorunmasını təmin edir. Güclü, etibarlı mühafizə ölkə daxilindəki riskləri aradan qaldırmağa müvəffəq olmuş Azərbaycanı xarici risklərdən qoruyur. Dövlətimizin hüdudlarından kənarda formalaşan risklərin sərhədlərimizi aşaraq Azərbaycana daxil olmasının qarşısı alınır.

Prezident İlham Əliyev bu məqamlara andiçmə mərasimindəki çıxışında xüsusi yer ayıraraq qeyd edilənləri yeni strateji dövrün də əsas prioritetləri kimi müəyyənləşdirdi.

### Azərbaycan gəncliyinin lideri

Məlumdur ki, bir çox risk ideoloji xarakterlidir və qloballaşma dövründə onlar heç bir sərhəd tanımır. Bu risklərin əsas təsir dairəsi dünyagörüşü, həyata və dünyaya baxışı yenicə formalaşan gənc nəsildir. Azərbaycan Prezidenti cəmiyyətimizin, o cümlədən gələcəyimiz olan gənclərin ideoloji risklərdən də qorunmasını, onların vətənpərvərlik, milli-mənəvi dəyərlər, ənənələr ruhunda tərbiyə olunmasını zəruri sayır. "Bu məsələyə çox ciddi yanaşmalıyıq və mən bunu əsas vəzifələrdən biri kimi qarşıya qoyuram. Gənc nəslin tərbiyə edilməsi bizim gələcəyimizin təmin edilməsi deməkdir", - deyir dövlət başçısı.

Bu nəslin ənənələrimizə, milli-mənəvi dəyərlərimizə sadiqliyində, düşüncələrinin, təfəkkürlərinin saflığında ailə tərbiyəsi də həlledici rol oynayır. Sağlam köklərə malik Azərbaycan ailəsinin möhkəmliyi qorunmalı, milli dəyərlər üzərində qurulmuş belə ailələrdə verilən tərbiyə uşaqlara, gənclərə düzgün yol göstərməlidir. Digər tərəfdən, təhsil ocaqlarımızda torpağa, yurda bağlı vətənpərvər gənclərimizin yetişdirilməsinə ciddi diqqət yetirilməlidir. Tariximiz, milli ləyaqətimiz, əsrlər boyu üzləşdiyimiz sınaqlar, keçdiyimiz yol yeni nəslin təmsilçilərinə düzgün öyrədilməli, şəxsiyyətlərimiz onlara tanıdılmalıdır. Bu təbəqədə milli varlığımzın əsasını təşkil edən dəyərlərimizə sevgi, hörmət aşılanmalıdır. Yad dəyərlərin, ziyanlı təsirlərin cəmiyyətimizdə ayaq açmasına yol verilməməli, belə hallar həyatımızdan silinməlidir.

Müasr dövrümüzdə Prezident İlham Əliyev həm də gəncliyin lideridir. Bu amil xüsusi vurğulanmalıdır. Daim təkmilləşdirilən gənclər siyasəti yeni nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə kreativ gəncliyin formalaşmasına şərait yaradıb. Gənclərin potensialından səmərəli istifadə olunması müasir, müstəqil Azərbaycanın intensiv inkişafını təmin edən fundamental faktorlardandır. Prezident İlham Əliyevin bu təbəqənin potensialının gerçəkləşməsinə, onların vətənpərvər, savadlı kadrlar kimi yetişməsinə, gənc ailələrin sosial təminatına yönələn tədbirləri dövlətin uzaqgörən siyasətinin göstəricisidir. Bu dəstək və diqqət sayəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissi daha da artıb.

Prezident İlham Əliyev Azərbaycan gəncliyinə inanır, yüksək vəzifələrdə onlara etimad göstərir, öz potensiallarını reallaşdırmaq üçün münbit şərait yaradır və ölkəmizin inkişafına mühüm töhfələr verir. Bu gənclər Ümummilli Lider Heydər Əliyevin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə formalaşmış vətənpərvər, müasir düşüncəli, Vətəninin istiqlalının dəyərini bilən və bu dəyər uğrunda hər cür fədakarlığa hazır olan yeni nəslin təmsilçiləridir.

Müzəffər Ali Baş Komandan İlham Əliyev 44 günlük Vətən müharibəsində bu nəslin gücü ilə torpaqlarımızı düşməndən təmizlədi. Azərbaycanın ərazi bütövlüyünü təmin etdi. İtirilmiş torpaqlarımızı işğalçılardan geri almağa nail oldu, ərazi bütövlüyümüzü, suverenliyimizi bərpa etdi. Dünya güclərinin öz məkrli oyunlarını oynamaqdan ötrü 2 əsrdir regionda başımızın bəlasına çevirdikləri erməni layihəsini iflasa uğratdı.

Azərbaycan Prezidenti andiçmə mərasimindəki çıxışında bu məsələlərə xüsusi diqqət yetirdi.

### Milli həmrəyliyin gücü

Azərbaycan Prezidenti ölkəmizdə milli vəhdəti daha da gücləndirib. Cəmiyyətimizə yeni siyasi mədəniyyət gətirib. Siyasi baxışlar arasındakı ziddiyyətlərin faydalı dialoq, sağlam diskussiya məcrasına yönəlməsi üçün münbit şərait formalaşdırıb. Qaragüruh düşüncəni aradan qaldırıb. Vətəndaşlıq məsuliyyətini daha da gücləndirib. Milli həmrəyliyin inkişafına xidmət edən demokratik təcrübə yaradıb. Son illərdə ölkəmizdəki siyasi partiyalar tərəfindən imzalanmış birgə bəyanatlar, müraciətlər uğurlu siyasi dialoqun, xalq-dövlət birliyinin təzahürüdür. Siyasi partiyaların Ali Baş Komandan İlham Əliyevə dəstək ifadə edən birgə bəyanat və müraciətlər imzalaması həmrəylik mühitinin inkişafı ilə yanaşı, dayanıqlı demokratik ənənələrin formalaşmasına xidmət edən mütərəqqi təcrübədir. Belə bir həmrəylik ölkəmizdə mövcud siyasi potensialın yalnız dövlətin inkişafına və milli maraqlara xidmət etdiyini göstərir. Cəmiyyətimizdə sağlam əməkdaşlıq mühitini, siyasi dialoqu təşviq edən Azərbaycan Prezidenti qeyd edir ki, ümummilli məsələlərdə heç bir fərqli fikir ola bilməz: "Ümumi məsələlər Qarabağ məsələsidir. Ümumi məsələlər siyasi partiyaların fəaliyyətidir, demokratiyanın inkişafıdır, iqtisadi azadlıqların bərqərar olmasıdır, ölkəmizin güclənməsidir".

Tarixi zəfərimiz Azərbaycan xalqının milli ideyalar işığında necə yumruq kimi birləşdiyini, milli vəhdətimizin sarsılmazlığını göstərdi. Uzun illər ərzində bütün vətəndaşlarımızı bir araya gətirən ümummilli məsələ torpaqlarımızın işğaldan azad edilməsi, dövlət suverenliyimizin bərpası idi. Prezident İlham Əliyev illər ərzində böyük səbirlə, təmkinlə iştirak etdiyi sülh danışıqlarının artıq heç bir mənasının olmadığına, ərazi bütövlüyümüzün bərpasından ötrü hərbdən başqa bir yolun qalmadığına tam əminlikdən sonra ordumuzun gücü ilə problemi həll etdi. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə xalqımız yumruq kimi birləşərək torpaqlarımızın azadlığına, ərazi bütövlüyümüzə, dövlət suverenliyimizə nail oldu. "Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır. Biz, doğrudan da, bütün dünyaya sübut etmişik ki, böyük xalqıq, biz öz taleyimizi özümüz həll edirik, ölkə qarşısında duran problemləri özümüz heç kimin köməyi olmadan həll edirik və əsaslı şəkildə həll edirik", - dövlət başçısı İlham Əliyev andiçmə mərasimindəki çıxışında vurğuladı.

Milli birliyimiz daim qorunaraq əbədi xarakter daşımalıdır. Bunu bir tərəfdən yeni strateji dövrdə Azərbaycanın qarşıya qoyduğu mühüm ümummilli hədəflər, digər tərəfdən isə müasir dünyada ölkəmizin nüfuzunun, təsir gücünün getdikcə artması, oynadığı vacib rol tələb edir. Xalqımız hər zaman böyük hədəflərə doğru birlikdə irəliləməli, inkişaf yolumuza maneə yaratmaq üçün həyata keçirilən təxribatları, təzyiq və təhdidləri, o cümlədən ideoloji fitnələri milli vəhdətinin gücü ilə dəf etməlidir.

Bu vəhdətin sarsılmaz sütunları dilindən, dinindən, milli, siyasi mənsubiyyətindən asılı olmayaraq, bütün Azərbaycan vətədaşlarına Konstitusiya ilə verilmiş təməl hüquqlar, Ümummilli Lider Heydər Əliyevin irəli sürdüyü azərbaycançılıq ideologiyası, xalqımızın əsrlərdən bəri mövcud olan tolerantlıq, multikulturalizm ənənələri, fərqli mədəniyyətlərə hörmət ruhudur. Azərbaycan dövləti bu mühiti qoruyur, möhkəmləndirir, birliyimizi pozmağa çalışan istənilən cəhdin qarşısını alır. Bu, gələcəkdə də belə olacaqdır.

### Rifah dövləti

Azərbaycan Prezidentinin fəaliyyəti müasir şəraitdə rasional idarəçiliyə mükəmməl bir örnəkdir. Dövlət başçısı Azərbaycan siyasi sisteminə rasional siyasi davranış modeli gətirib. Məntiqli mühakimələrə və analitik təhlilə əsaslanan, mütərəqqi, pozitiv, milli məqsədlərə xidmət edən, siyasi realizmə söykənən fəaliyyət nümunəsi formalaşdırıb. Öz fəaliyyəti və davranışları ilə siyasi sistemimizə, həm də milli mənəviyyatımıza uyğun siyasi əxlaq standartı, milli siyasi etika nümunəsi təqdim edib. Dövlət başçısının humanizm ideyalarına və milli dəyərlərə söykənən siyasəti müasir Azərbaycan dövlətini gücləndirir, onların ən yüksək səviyyədə qorunmasına xidmət edir.

Yeni strateji dövrün ən mühüm vəzifələrindən biri də Qarabağın, Şərqi Zəngəzurun bərpasıdır. Azərbaycan dövləti heç bir ölkənin, xarici qurumun dəstəyinə ümid olmadan, öz vəsaiti hesabına böyük bir ərazidə tikinti-quruculuq işlərini uğurla həyata keçirir. Bütün sosial infrastruktur yenidən inşa edilir. Keçmiş məcburi köçkünlər üçün ən müasir şəhərsalma qaydalarına uyğun olan yaşayış yerləri qurulur, tarixi şəhərlərimizin siması bərpa edilir. Ermənilərin uzun illər ərzində vandalcasına tar-mar etdikləri yaşayış məskənlərimiz yenidən həyata qaytarılır. Böyük qayıdış proqramı çərçivəsində keçmiş məcburi köçkünlərin doğma yurdlarımıza qayıdışı mərhələli şəkildə həyata keçirilir.

Bütün bunları ardıcıl və dayanıqlı şəkildə davam etdirmək üçün Azərbaycan yeni strateji dövrdə də iqtisadiyyatını gücləndirir. İqtisadi nailiyyətlərə paralel olaraq, əhalinin sosial müdafiəsi tədbirləri uğurla davam etdirilir. Azərbaycan rifah dövləti missiyasını yerinə yetirir. Şəhid ailələri, müharibə əlilləri daim dövlətin diqqətindədirlər. Dövlət başçısı hər il onminlərlə yeni iş yerinin yaradılmasını qarşıya əsas vəzifə kimi qoyur və burada xarici sərmayədən də istifadə edilməsini zəruri sayır.

Azərbaycan Prezidentinin andiçmə mərasimində elan etdiyi yeni strateji dövrün ən mühüm istiqamətlərindən biri də texnoloji inkişaf məsələləridir. Sirr deyil ki, bu gün istər sənayenin inkişafında, istərsə də hərbi sahədə texnoloji inkişaf həlledici əhəmiyyət daşıyır. Dünya süni intellekt reallığı ilə qarşı-qarşıyadır. Azərbaycanın müasir dünyanın yeni inkişaf trendlərindən geri qalmaması üçün texnoloji inkişafın, o cümlədən rəqəmsallaşmanın, kibertəhlükəsizliyin, süni intellektin Azərbaycanda da gündəlik həyatın mühüm tərkib hissəsinə çevrilməsi son dərəcə vacibdir. Bu inkişaf mərhələsində müasir dövrün tələblərinə uyğun rəqəmsal transformasiya və innovativ layihələrin həyata keçirilməsi ölkəmizin rəqabət qabiliyyətini artıracaq.

Bu gün Azərbaycan müstəqil, balanslaşdırılmış xarici siyasət kursunu uğurla davam etdirir. Ölkəmizin reallaşdırdığı xarici siyasətin əsas prinsipləri ikitərəfli formatda əməkdaşlığa, bərabərhüquqlu münasibətlərə, bir-birinə hörmət ruhuna, bir-birinin daxili işlərinə qətiyyən qarışmamaq şərtinə əsaslanır. "Bu, bizim prinsiplərimizdir və bu prinsipləri biz diktə etmişik, bunları qəbul etdirə bilmişik", - deyə Azərbaycan Prezidenti bildirir.

Beynəlxalq aləmdə ölkəmizin mövqeləri gündən-günə möhkəmlənir, strateji tərəfdaşlıqlarımız çoxalır, Azərbaycan nəqliyyat-logistika imkanlarından maksimum faydalanaraq beynəlxalq ticarət yollarında önəmli iştirakçıya çevrilir. Azərbaycan enerji diversifikasiyasını da uğurla həyata keçirir, bərpaolunan enerji ilə bağlı bütün dünyada genişlənən inkişaf proseslərinin ön sıralarında irəliləyir. Eyni zamanda ənənəvi yanacaq növləri - neft-qaz sahəsində işlər davam etdirilir. Azərbaycan etibarlı tərəfdaş kimi Avropanın enerji təhlükəsizliyinin təminatçısı missiyasını yerinə yetirir, yaxın gələcəkdə ixrac coğrafiyasının daha da artırılmasına doğru addımlar atır.

Vətən müharibəsi tarixi dəyişdi, həyatımızda yeni başlanğıcların əsasını qoydu, eyni zamanda düşüncələrdə də böyük dəyişikliklərə yol açdı. Bu gün tarix səhnəsində ötən əsrlərin ən böyük Zəfərini qazanmış, dövlətimizin, ordumuzun, milli vəhdətimizin verdiyi ruhla sarsılmaz əzmə sahib Azərbaycan xalqı, onun qətiyyətli Lideri və güclü Azərbaycan dövləti var.

Bütün bunlar onu göstərir ki, Prezident İlham Əliyevin liderliyi ilə tarixinin ən qüdrətli mərhələsinə gəlib çatmış Azərbaycan yeni strateji dövrdə də aydın, məqsədyönlü, real milli hədəflərə malikdir və bu hədəflərə doğru əzmlə irəliləməkdədir. Bu yolun hər addımı vətəndaş olaraq bizlərdən də yüksək məsuliyyət, dövlətçilik dəyərlərimizə bağlılıq, həyata keçirilən siyasətə layiqli töhfələr tələb edir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***



# İLHAM ƏLİYEVİN UĞUR FORMULU

## *Düşünülmüş strategiya, düzgün taktika*




### İlham Əliyevin Qərbi Azərbaycana Qayıdış Konsepsiyası da uğurla həyata keçiriləcək

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin növbəti dəfə Azərbaycan Prezidenti seçilməsindən ötən bir il ərzində ölkəmizdə bütün sahələrdə olduğu kimi, yaradıcısı olduğu Qərbi Azərbaycan İcmasının fəaliyyətində, müəllifi olduğu Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının həyata keçirilməsində uğurlu nəticələr müşahidə olunmaqdadır.

Prezident İlham Əliyevin hələ 24 dekabr 2022-ci ildə Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə icmanın qarşısında duran vəzifələrdən danışarkən "Qərbi Azərbaycan İcmasının bundan sonra daha mütəşəkkil formada fəaliyyət göstərməsi hamımız üçün - həm Qərbi Azərbaycandan olan insanlar üçün, həm də bütün Azərbaycan xalqı üçün çox önəmlidir" deməsi reallıqda öz təsdiqini tapmışdır. İlk növbədə görünən odur ki, artıq Qərbi Azərbaycan İcması dünya siyasətində fəal rol oynayır. İcmanın beynəlxalq insan hüquqlarını müdafiə qanunlarının tələblərindən irəli gələn bəyanat və müraciətləri dəfələrlə Birləşmiş Millətlər Təşkilatının (BMT) katibliyi, BMT Təhlükəsizlik Şurası və Baş Assambleyanın rəsmi sənədləri kimi yayılıb. Məmnunluq doğuran odur ki, bu istiqamətdə icmanın təşəbbüsü ilə indiyədək BMT-nin rəsmi sənədi kimi 10-a yaxın bəyanatı və müraciəti bəyənilib. Bütün bunlarla yanaşı, digər dövlətlərin və tərəqqipərvər beynəlxalq təşkilatların başçıları, habelə tanınmış insan hüquqları müdafiəçiləri ən yüksək kürsülərdən qərbi azərbaycanlıların haqlı tələblərini dəstəkləyirlər. Təbii ki, icmanın bəyanat və müraciətlərinin dünya dövlətlərində yayılması indiki Ermənistandan qovulmuş azərbaycanlıların hüquqları məsələsinin beynəlxalq müstəviyə gətirilməsi üçün böyük uğurdur.

Qərbi Azərbaycan İcması 1988-1991-ci illərdə indiki Ermənistandan qovulmuş 50 mindən çox ailənin yarıdan çoxuna dəymiş ziyanı hesablamış, hazırda bu işlər dəqiqliyi ilə davam etdirilir. Yerlərdə ictimaiyyət nümayəndələri ilə keçirilən görüşlərdə Ermənistandan zorla qovulan hər bir ailə üzvü və sənədləri ilə maraqlanır, Qayıdış Konsepsiyasının qayda və tövsiyələri ilə onları tanış edirlər. Qərbi Azərbaycanda 300-ə yaxın yaşayış məntəqəsindən zorla çıxarılan qaçqınların hər bir ailə üzrə (ad, soyad, ata adı) dəqiq statistikası aparılır. Artıq 130 kəndin siyahısı tamamlanıb. Təşkilat Qərbi Azərbaycanda tarixi və mədəni irsimizin bütün nümunələrinin dəqiq siyahısının hazırlanması üzərində ciddi iş aparır. Xatırladaq ki, sovet dönəmində erməni daşnakları məqsədli şəkildə mədəniyyətimizin, zəngin irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin guya ermənilərə mənsub olduğunu iddia etməyə çalışıblar. Eyni zamanda ermənilər tərəfindən azərbaycanlıların mənfi obrazının formalaşdırılması cəhdləri də unudulmayıb.

Xalqımıza qarşı soyqırımı etnik nifrət aşılayan irqçi ideologiya zəminində sistemli şəkildə həyata keçirilib və bu, tarixi Azərbaycan torpaqlarının demək olar ki, bütün hissələrində törədilib. 1905-ci ildən intensivləşməyə və açıq forma almağa başlamış bu soyqırımı siyasəti Azərbaycanın qərb hissəsində xüsusilə amansızlıqla həyata keçirilib. Ermənistan ordusu 1918-1920-ci illərdə İrəvan, Zəngəzur, Göyçə, Dərələyəz, Sürməli, Şərur və digər bölgələrdə azərbaycanlılara qarşı kütləvi qırğınlar törədib və etnik təmizləmə aparıb.

Yüzminlərlə azərbaycanlının öldürüldüyü soyqırımı aktları nəticəsində İrəvan quberniyasında vaxtilə əhalinin 80 faizindən çoxunu təşkil etmiş azərbaycanlılar artıq 1921-ci ildə həmin ərazidə etnik azlıq təşkil etməyə başlamışdır. 1948-1952-ci və 1987-1991-ci illərdə aparılmış etnik təmizləmə nəticəsində isə azərbaycanlılar tamamilə oradan qovulublar. Hazırda Ermənistan adlanan ərazidə bir nəfər də olsun azərbaycanlı qalmayıb və onlara məxsus mədəni irs tamamilə dağıdılıb.

İcmanın inkarolunmaz faktları özündə ehtiva edən müraciətlərinin BMT-nin rəsmi sənədi kimi yayılması ilə 190-dan çox ölkə bu məsələ barədə məlumatlandırılıb. İlham Əliyevin ideyalarına dəstək kimi respublikamızın rayon mərkəzlərində və kəndlərində icmanın özəkləri yaradılıb. Ötən ilin oktyabrında "Özbəkistanda yaşayan Qərbi Azərbaycanlılar" İctimai Birliyi fəaliyyətə başlayıb. Birliyə əslən Qərbi Azərbaycanın Basarkeçər rayonunun Bala Məzrə kəndindən olan İlham Abdullayev rəhbərlik edir. Özbəkistanda yaşayan, əslən Qərbi Azərbaycandan olan Vidadi Qurbanov, İlham Abdullayev, Qalib Müslümov və digərləri Prezident İlham Əliyevin Qərbi Azərbaycanla bağlı yürütmüş olduğu siyasəti tam dəstəkləyirlər, onların dünyanın harasında yaşamasından asılı olmayaraq, öz ata-baba torpaqlarına qayıtmaq amalı ətrafında sıx birləşmələrinin vacibliyini yüksək dəyərləndirirlər. Qonşu və qardaş ölkə olan Türkiyədə bu gün çoxlu sayda qərbi azərbaycanlı yaşayır. Qərbi Azərbaycan İcmasının ideya xəttini və fəaliyyətini dəstəkləyən Türkiyənin İzmir şəhərində Qərbi Azərbaycan İcmasının (QAİ) Türkiyə ofisinin açılışı olub.

Milli Məclisdə Qərbi Azərbaycana qayıdış məsələləri üzrə qurumun yaradılması təklifi də gerçəkləşib. Parlamentdə belə bir qurumun yaradılması ilk növbədə sözügedən məsələ ilə bağlı ölkədəki konsensusu nümayiş etdirməyə, həmçinin Qərbi Azərbaycan məsələsinin qanunvericilik aspektləri ilə yanaşı, parlament diplomatiyası xətti ilə də səmərəli şəkildə davam etdirilməsinə imkan verir.

Spiker Sahibə Qafarovanın sərəncamına əsasən, Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların doğma torpaqlarına qayıtmaq hüququnun gerçəkləşməsinə dəstək məqsədilə parlamentdə deputat Əziz Ələkbərovun rəhbərliyi ilə Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupu yaradılıb.

Ötən ildən Qərbi Azərbaycan İcmasının tərkibində Elm komissiyası da fəaliyyət göstərməyə başlayıb. Burada icmanın müxtəlif strukturlarında təmsil olunan Qərbi Azərbaycan üzrə bir qrup tədqiqatçı alim yer alıb. Onların işbirliyi nəticəsində Qərbi Azərbaycan həqiqətlərinin sistemli şəkildə tədqiqi, nəşri və təbliği məsələləri gündəmdədir.

İcmanın tərkibində Elm komissiyasının yaradılması, onun müxtəlif tədqiqat sahələri üzrə bölmələrinin təşkil edilməsi və komissiyanın işinə alimlərin cəlb edilməsi qərara alınıb. Komissiyanın işinə rəhbərlik Qərbi Azərbaycan İcması sədrinin müavini, deputat, professor Hikmət Babaoğluna tapşırılıb. Hətta geniş tərkibdə Toponim komissiyası da yaradılıb.

Bir il bundan öncə, 2024-cü il fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Məclisdə andiçmə mərasimində demişdir: "İndi isə yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm. Çünki son illərin tarixi onu göstərir ki, qarşıya qoyduğumuz bütün vəzifələr icra edildi. Əlbəttə ki, bütöv Azərbaycan bu dövrə qədəm qoymuş, bütövləşmiş birlik nümayiş etdirmiş, o cümlədən bu seçkilərdə böyük birlik nümayiş etdirmiş xalq böyük uğurlara imza atacaq. Mənim buna şübhəm yoxdur. Azərbaycan cəmiyyətində hökm sürən çox müsbət ab-hava bizi daha da gücləndirir".

Azərbaycan Prezidentinin məmnunluq doğuran çıxışında Qərbi Azərbaycan İcmasının gördüyü işlər də bu "ab-hava"da qürurverici görünür. İcma rəhbərliyi bu sahədə uğurlarını daha da artırmaq üçün 2025-ci ildə qarşıya qoyulan hədəfləri açıqlayıb: çətin qlobal vəziyyətdə istədiyini ala bilmək uğurlu siyasi fəaliyyətin nəticəsidir. Vətən müharibəsindəki qələbəmizin davamı kimi hazırda hədəfimiz yalnız sülh müqaviləsinin imzalanması olsa da, Qərbi Azərbaycandan deportasiya edilən minlərlə vətəndaşımızın da taleyi diqqətdədir.

Qərbi Azərbaycan İcmasının (QAİ) gördüyü işlər sosial həyatda mühüm rol oynayır. Fəaliyyətində dövlət başçısının tapşırıq və tövsiyələrini əsas tutan Qərbi Azərbaycan İcması beynəlxalq arenada geniş iş aparır.

Ötən il icma tərəfindən 120 bəyanat, mətbuat üçün 25 məlumat dərc olunub. İki dəfə UNESCO-ya müraciət ünvanlanıb. Müraciətdə UNESCO-dan Ermənistan ərazisinə faktaraşdırıcı missiya göndərilməsi istənilib. UNESCO məsələni nəzərdə saxlayacağını bildirsə də, Ermənistan tərəfi hələ də buna icazə vermir.

İndiki Ermənistan ərazisində yaşamış azərbaycanlıların deportasiya tarixi 1820-1988-ci illər olmaqla böyük bir dövrü əhatə edir. Etnik təmizləməyə məruz qalan, yurd-yuvasını tərk etməyə məcbur edilən soydaşlarımızın əksəriyyəti hazırda Azərbaycanda yaşayır. Lakin dünyanın müxtəlif ölkələrinə köçənlər də az deyil.

İcmanın əsas məqsədi qərbi azərbaycanlıların hüquqlarının müdafiəsi və onların sülh yolu ilə təhlükəsiz və ləyaqətli şəkildə geri qaytarılmasıdır. Lakin bununla bağlı Ermənistan tərəfinə edilən müraciətə hələ də cavab verilməyib. Əksinə, erməni tərəfi diqqəti yayındırmaq, məsuliyyətdən qaçmaq üçün uydurma iddialar irəli sürür.

İstər ölkəmizdə rəsmi dairələrdə, ictimaiyyətlə görüşlərində, istərsə də xarici ölkələrdə mötəbər məclislərdə çıxışlarında icmanın beynəlxalq müstəvidə fəaliyyətinin vacibliyini vurğulayan Prezident İlham Əliyev deyib ki, biz Qarabağ həqiqətlərini dünya ictimaiyyətinin diqqətinə çatdırdığımız kimi, bu həqiqətləri də çatdırmalıyıq: "Faktiki olaraq biz 1990-cı illərin əvvəllərində Qarabağ münaqişəsi ilə bağlı təhrif edilmiş təsəvvürü tamamilə dəyişdirə bildik. İnformasiya müharibəsi və İkinci Qarabağ müharibəsi onu göstərdi ki, bu, az əhəmiyyət kəsb etmir. Ona görə burada da icmanın xaricdəki fəaliyyəti xüsusi önəm daşımalıdır. Sərgilər, təqdimatlar, beynəlxalq konfranslar keçirilməlidir. Azərbaycan diaspor təşkilatları ilə birlikdə aksiyalar keçirilməlidir. Xarici ölkələrin siyasi dairələri, mətbuat və qanunvericilik orqanları ilə təmaslar qurulmalıdır. Yəni biz haqlı olaraq öz hüququmuzu tələb etməliyik. Bu, bütün beynəlxalq konvensiyalarda təsbit edilmiş hüquqdur".

Azərbaycan Prezidentinin bu istiqamətdə tapşırıq və tövsiyələrini özlərinin proqram sənədi kimi qəbul edən icma rəhbərliyi və üzvləri əvvəlki illərdə olduğu kimi, son bir ildə də fəaliyyət dairələrini və əlaqələrini daha da genişləndirmişlər.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

### İlham Əliyevin növbəti missiyası - Böyük qayıdış

**21** il əvvəl Azərbaycan xalqı müdrik seçim edərək Ulu Öndər Heydər Əliyevin siyasi kursuna və dahi şəxsiyyətin layiqli davamçısı İlham Əliyevə ilk dəfə səs verdi. Ötən hər il xalqın öz seçimində yanılmadığını təsdiqlədi. Yeni əsrin yeni lideri İlham Əliyev bu 21 ildə Azərbaycanı həm siyasi-iqtisadi, həm də hərbi cəhətdən qüdrətli, dünyada sözü keçən dövlətə və qlobal səviyyədə böyük gücə çevirdi.

Bu güc sayəsində Qarabağın 30 il davam edən işğalına 44 gündə son qoymaq mümkün oldu. Biz həqiqətən tarixi günlər yaşadıq və yaşayırıq. Bəlkə də Azərbaycan tarixində buna bənzər şərəfli və qürurlu günlər olmayıb. Ötən illər həm də onu göstərdi ki, Prezident İlham Əliyev qurucu, birləşdirici, Azərbaycan xalqının bütün istək və arzularını həyata keçirən, öz siyasətində Azərbaycan dövlətinin və xalqının maraqlarını ən ali məqsəd kimi görən və bütün qüvvəsini bu istiqamətdə səfərbər edən, xalqın birmənalı şəkildə dəstəklədiyi, etimad göstərdiyi və etibar etdiyi liderdir.

Prezident İlham Əliyev ötən il fevralın 7-də növbədənkənar prezident seçkisində xalqın 92,12 faizinin səsini qazanaraq 7 il müddətinə yenidən dövlət başçısı kürsüsündə oturdu. Seçkinin adı Zəfər seçkisi idi. Vətən müharibəsindən zəfərlə çıxan Azərbaycan dövlətinin rəhbəri, Ali Baş Komandan İlham Əliyev bu seçkidən alnıaçıq, başıuca çıxdı. Güclü liderin bu qələbəsi işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işlərinə yeni bir stimul verdi. Bu, İlham Əliyevin Qarabağa və Şərqi Zəngəzura səfərləri zamanı bərpa-quruculuq işləri ilə tanışlığı, həmçinin yaşayış məntəqələrinin, vacib infrastruktur obyektlərinin açılışlarında, təməlqoyma mərasimlərində iştirak etməsi ilə ehtiva olunur.

Biz bu yazıda liderin son bir ildə şəxsi rəhbərliyi və birbaşa tapşırığı ilə məhz Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən layihələrdən bəhs edəcəyik. Seçkiyə qədər də işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi, şəhərlərin, kəndlərin yenidən salınması, keçmiş müvəqqəti köçkünlərin "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən məskunlaşdırılması, həmin bölgələrdə sosial-iqtisadi infrastrukturun yaradılması Azərbaycan dövlətinin qarşısında duran əsas vəzifələrdən idi. Ona görə bu istiqamətdə işlər 2024-cü ildə də yüksək sürətlə və keyfiyyətlə həyata keçirilməyə başladı. Və bütün bunlar dövlət başçısının diqqəti və qayğısı ilə müşayiət olunub. Müharibədən sonrakı 4 ildə Qarabağa və Şərqi Zəngəzura səfərlərini sadalamaq çox vaxt aparar. Təkcə onu deyə bilərik ki, Azərbaycan xalqı dövlət başçısının azad olunmuş ərazilərdəki bərpa və inşaat işlərinə həssaslıqla yanaşdığına, doğma yurda köç etmiş insanlarla səmimi ünsiyyətinə şahiddir. Prezidentin regiona səfəri sanki bir ənənəyə çevrilib.

Bir il əvvəlki seçkidən sonra da Prezident İlham Əliyev ənənəsinə sadiq qalaraq ilk səfərini fevralın 26-da Xocalı şəhərinə etdi. Rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü, sonra Xocalı Soyqırımı Memorialının təməlini qoyaraq, sakinlərlə birlikdə şəhərdə aparılan tikinti işlərinin gedişi ilə tanış oldu. Sakinlərlə dövlət başçısının səmimi görüşü, aralarındakı dialoq yaddaşlara həkk olunub. O gündən bu günədək Xocalıda xeyli tikinti-quruculuq işləri reallaşdırılıb, bu yaşayış məskəni yeni siması ilə sakinlərinə qucaq açıb. Xocalıya ilk köçü ötən ilin son ayında - dekabrın 13-də 27 ailə olmaqla 152 nəfər edib. Onlar rayonun Ballıca kəndinin sakinləri idi. Dekabrın 27-də növbəti köç karvanı yenə də Ballıca kəndinə istiqamət götürdü. Kəndə çatan ailələrə yeni mənzillərinin açarları təqdim olunub. Beləliklə, 48 ailəni birləşdirən 271 nəfər Xocalı sakini 32 ildən sonra öz vətənlərinə qayıtmalarının sevincini yaşayıb, evlərində məskunlaşıb. İşğaldan azad olunmuş digər ərazilərdə olduğu kimi, Ballıca kəndində də həyat yenidən canlanıb. Böyük qayıdışla bağlı kənddə bütün infrastruktur yenidən qurulub. Kənd elektrik enerjisi, içməli su, təbii qaz və sürətli internetlə təmin olunub.

Qarabağ və Şərqi Zəngəzurda ötən il həyata keçirilən digər layihələrdən də söz açaraq Prezident İlham Əliyevin regiona nə qədər həssaslıqla yanaşdığını qeyd etmiş oluruq. 2024-cü il martın 12-də dövlət başçısı Azərbaycana səfər edən Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevlə birlikdə Füzuli rayonunda inşa olunan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılış mərasimində iştirak edib. Görülən digər işlərlə, o cümlədən Füzuli şəhərinin baş planı ilə tanış olarkən dövlət başçılarına 2040-cı ilədək Füzuli şəhərinin inzibati ərazisinin 1943 hektara, əhalisinin 50 min nəfərə çatdırılmasının nəzərdə tutulduğu barədə məlumat verilib. Azərbaycan və Qazaxıstan prezidentlərinə Füzuli şəhərində inşa olunacaq Mərkəzi Rayon Xəstəxanası barədə məlumat verilib. Bildirilib ki, 180 çarpayılıq yeni xəstəxananın inşasında Qazaxıstanın "BI Group" şirkəti də iştirak edəcək. Qeyd edək ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin yenidən qurulması işinə Özbəkistan və Qazaxıstanla bərabər, Qırğızıstan da fəal şəkildə qoşulub. Ötən il aprelin 25-də Prezident İlham Əliyev və Prezident Sadır Japarov Ağdamın Xıdırlı kənd tam orta məktəbinin təməlini qoyublar. Bu məktəb Qırğızıstan Prezidentinin təşəbbüsü ilə inşa olunur.

Prezidentin ötənilki səfərləri çərçivəsində ən maraqlı və yadda qalanı mayın 10-da Şuşada birinci yaşayış kompleksinin açılışı və şəhərə köçmüş ilk sakinlərlə görüş olub. Görüşdə ilkin mərhələdə birinci yaşayış kompleksinə köç qrafikinə əsasən, 20 ailə olmaqla 88 nəfərin köçürüldüyü bildirilib. Şuşaya ilk köç edən ailələrlə görüşən dövlət başçısı mənzillərin açarlarını sakinlərə təqdim edərək deyib: "Qarabağ və Şərqi Zəngəzur bölgələri nəinki Azərbaycanın, Qafqazın, dünyanın ən gözəl yerlərindən biri olacaq - ən müasir, ən rahat, ən gözəl. Buranın təbiəti, gözəl mənzərələri, yaşıllıqlar, bulaqlar müasir və eyni zamanda ənənəvi üslubda inşa edilən binalarla tamamlanır. Elə bir gözəl şəhər yaradılır ki, əminəm, hər birimiz, hər bir azərbaycanlı bununla fəxr edəcək".

Xatırladaq ki, həmin gün dövlət başçısı Füzuli rayonunda Köndələnçay su anbarları kompleksinin, Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda inşa edilmiş birinci tunelin, Şuşada "Şirin su" hamamının, Mamayı məscidinin açılışlarında iştirak edib, şəhərdə inşa olunacaq üçüncü yaşayış kompleksinin və Turşsu qəsəbəsinin təməllərini qoyub. Bu səfər çərçivəsində dövlət başçısı Laçın rayonunun Sus kəndinə də gedərək görülən işlərlə tanış olub, yurda dönmüş sakinlərlə görüşüb. Ölkə rəhbərinə kənddə 60-a yaxın fərdi evin tikilməsi, 132 şagird yerlik orta məktəbin, 50 yerlik uşaq bağçasının hazır olması barədə də məlumat verilib.

Bir həftə sonra mayın 18-də yenidən Şərqi Zəngəzura səfər edən Prezident İlham Əliyev Cəbrayıl rayonunun Böyük Mərcanlı, Karxulu, Sarıcallı və Maşanlı kəndlərinin, Zəngilan rayonunun Mincivan qəsəbəsinin, bundan 10 gün sonra isə Ağdam rayonunun Tağıbəyli, Güllücə, Nəmirli və Şotlanlı kəndlərinin təməllərini qoyub. Sonra Prezident İlham Əliyev Xocalıda 180 mənzildən ibarət 15 binada yaradılan şəraitlə tanış olub, şəhərə köçən sakinlərlə görüşüb, evlərin açarlarını onlara təqdim edib.

Prezidentin ötən bir ildə azad edilmiş ərazilərdə görülən quruculuq işləri ilə bağlı 3 faktı xatırlatmağı məqsədəuyğun hesab edirik. Sentyabrın 2-də Kəlbəcər şəhərində ikinci yaşayış kompleksinin və inzibati binanın, həmçinin İstisu qəsəbəsinin, sentyabrın 19-20-də isə Ağdam rayonunun Eyvazxanbəyli kəndinin təməllərini qoyub. Ölkə rəhbəri sentyabrın 20-də - Dövlət Suverenliyi Günündə Xankəndi şəhərində Qarabağ Universitetinin və bu ali məktəbin tələbə yataqxanasının təmirdən sonra açılış mərasimində iştirak edib.

Sonrakı ayda lider Cəbrayıla səfər edib. Oktyabrın 3-də baş tutan səfər zamanı Prezident Horovlu kəndində fərdi evlərin və sosial obyektlərin tikintisi ilə tanış olub, Cəbrayıl şəhərində Mehdi Mehdizadə adına 960 şagird yerlik tam orta məktəbin binasının açılışında iştirak edib. Səfər çərçivəsində Zəngilan rayonunda da olan Prezident İlham Əliyev Zəngilan şəhərində beşinci və altıncı yaşayış komplekslərinin təməllərini qoyub. 4 Oktyabr - Cəbrayıl Şəhəri Günündə Prezidenti İlham Əliyev rayon mərkəzində inşa olunmuş yaşayış kompleksinin açılışında iştirak edib, yeni evlərə köçən sakinlərə mənzillərin açarlarını təqdim edib.

Əvvəlki illərdə olduğu kimi, 2024-cü ildə də Prezidentin işğaldan azad edilmiş ərazilərə etdiyi səfərlər təkcə bərpa-quruculuq işləri ilə ehtiva olunmayıb. O, Azərbaycanın öz tarixinə, köklərinə bağlı olan ölkə olduğunu göstərməklə yanaşı, həm də müasir dövlət olduğunu, müasir inkişafdan geri qalmadığını, bütün digər dinlərə, mədəniyyətlərə hörmətlə yanaşdığını da nümayiş etdirib, Böyük qayıdışın davam etdiyini dünyaya göstərib. Həmçinin ermənilərin törətdiyi vandallığı ardıcıl olaraq xarici dövlətlərin diqqətinə çatdırıb. Azərbaycan lideri bütün istiqamətlər üzrə fikirlərini hər zaman olduğu kimi, bu səfərlər zamanı da dilə gətirib və mesajlarını verib.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*



# İLHAM ƏLİYEVİN UĞUR FORMULU

## Düşünülmüş strategiya, düzgün taktika

# "Bizim ailəmiz türk dünyasıdır"

### TDT üzv ölkələrin ortaq baxışı ilə dünyanın yeni güc və inkişaf mərkəzinə çevrilir

**Prezident İlham Əliyev 14 fevral 2024-cü ildə Milli Məclisdə andiçmə mərasimindəki proqram xarakterli çıxışında türk dövlətləri ilə əməkdaşlıqdan, birlikdən, qarşıdakı illərdə bu istiqamətdə atılacaq növbəti addımlardan söz açaraq demişdir: "Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir, mən bunu açıq demək istəyirəm, yəqin ki, indi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır".**

Dövlətimizin başçısı dünyadakı beynəlxalq təşkilatlarla yanaşı, Türk Dövlətləri Təşkilatı ilə əməkdaşlığa da çox böyük önəm verir. Ölkəmizin tərəqqisini, inkişafını, gələcəyini həm də türk dövlətlərinin birliyində görür. Prezident İlham Əliyev andiçmə mərasimindəki çıxışında xüsusi olaraq vurğulamışdır: "Əgər kimsə hesab edir ki, biz başqa yerdə ailə axtarmalıyıq, deyə bilərəm ki, bizi heç yerdə gözləmirlər və bunu artıq gizlətmirlər. Əgər əvvəlki illərdə, xüsusilə işğal dövründə bizi çaşdırmaq üçün, yəni gözdən pərdə asmaq üçün müəyyən vədlərlə cəlb etməyə çalışırdılarsa, indi o maskalar da yırtıldı və açıq-aydın burada ayırıcı xətlər müşahidə olunur. Biz o ayırıcı xətləri çəkməmişik, biz bu ayırıcı xətlərin əleyhinəyik". Dövlət başçısı daha sonra bildirmişdir: "Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir. Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik".

Tarix göstərir ki, türk dövlətlərini əsrlər boyu bir-birinə etnik və dini bağlar sıx bağlayıb. Bəşər sivilizasiyasına böyük töhfələr vermiş, tarix səhnəsində çoxlu dövlətlər, imperiyalar yaratmış türk xalqları bu gün də mövcudluğunu və birliyini davam etdirir. Dünyada dayanmadan gedən tarixi və siyasi proseslər türk xalqlarının, türk dövlətlərinin bir-birinə daha da yaxınlaşmasını sürətləndirir, türk dövlətlərinin bir təşkilat ətrafında birləşməsini zəruri edirdi. Nəhayət, tarixi zərurətdən doğan bu addım atıldı. 2009-cu il oktyabrın 3-də Naxçıvan şəhərində Türkdilli ölkələrin dövlət başçılarının IX Zirvə görüşü keçirildi. Xatırladaq ki, ilk Zirvə görüşü 1992-ci ildə Ankarada, sonrakı toplantılar 1994-cü ildə İstanbulda, 1995-ci ildə Bişkekdə, 1996-cı ildə Daşkənddə, 1998-ci ildə Astanada, 2000-ci ildə Bakıda, 2001-ci ildə İstanbulda və 2006-cı ildə Antalyada keçirilmişdir.

Türk ölkələri dövlət başçılarının Naxçıvanda keçirilmiş Zirvə görüşündə böyük uğurlar əldə olundu, gələcəyə doğru inamlı addımlar atıldı. Dövlət başçıları görüş zamanı xalqlarımız arasındakı tarixi bağları, ümumi dil, mədəniyyət və ənənələri, hərtərəfli əməkdaşlığın dərinləşməsini, ümumi birlik çərçivəsində qarşılıqlı əlaqənin ölkələr və onların xalqları arasında yaxın qonşuluq və əməkdaşlıq üçün geniş imkanlardan faydalanmağı, dünyada gedən inkişafı, tərəqqini nəzərə alaraq "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişi"ni imzaladılar, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması üçün razılığa gəldilər. Bu addımları ilə dövlət başçıları gələcək əməkdaşlığın, tərəqqinin və inkişafın təməlini qoydular.

Naxçıvanda keçirilmiş Zirvə görüşündə türk dövlətləri arasında əməkdaşlıq haqqında sazişi Türkiyə, Azərbaycan, Qazaxıstan və Qırğızıstan liderləri imzaladılar. Həmin gündən ötən illər ərzində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası uğurlu inkişaf yolu keçdi. Bu ölkələr arasında siyasi, iqtisadi, nəqliyyat, humanitar, turizm, informasiya və kommunikasiya texnologiyaları, eləcə də digər sahələrdə əməkdaşlıq xeyli genişləndi. TÜRKSOY, Türk Mədəniyyəti və İrsi Fondu, Türk Akademiyası kimi qurumların sayəsində zəngin maddi və mənəvi irsimiz həm tədqiq olundu, həm də təbliğ edildi. Bu gün Türkdilli Ölkələrin Parlament Assambleyası parlamentlərarası təşkilatlarla sıx əməkdaşlıq edir. Bütün bunlar xalqlarımız arasında dostluq və qardaşlıq əlaqələrinin daha da genişlənməsinə və yaxınlaşmasına böyük təkan verir.

2019-cu il oktyabrın 15-də Bakıda Türk Şurasının yaradılması haqqında Naxçıvan sazişinin imzalanmasının 10 illiyinə həsr edilən VII Zirvə Görüşünün keçirilməsi, Özbəkistanın Türk Şurasına qoşulması, Azərbaycanın Qırğızıstandan Türk Şurasına sədrliyi qəbul etməsi, məhz Bakıda keçirilən Zirvə görüşündə Qazaxıstanın birinci prezidenti Nursultan Nazarbayevin artıq təşkilat kimi dünyaya tanınmağın zamanının gəldiyini söyləməsi Bakı Zirvə Görüşünün əhəmiyyətini daha da artırdı. Zirvə görüşündə Qazaxıstanın birinci prezidenti və Türk Şurasının fəxri sədri Nursultan Nazarbayev VII Bakı Sammitində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasını təşkilat səviyyəsinə qədər yüksəltməyin tam zamanı olduğunu, eyni köklərə malik dövlətlərin "türkdilli" deyil, Türk Dövlətləri Təşkilatı adlandırılmasını gündəmə gətirdi.

Türk dövlətlərinin güclənməsi, Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın inkişafı başda Ermənistan olmaqla bir sıra xarici qüvvələri qıcıqlandırmaya bilməzdi. Ermənilər "erməni soyqırımı" uydurması ilə Türkiyə ilə münasibətləri gərginləşdirirdi. Azərbaycanın əbədi-əzəli ərazisi olan Qarabağı və onun ətrafındakı 5 rayonu 30 ilə yaxın idi ki, işğal altında saxlayırdı. Bu ərazilərdəki tarixi abidələri Yer üzündən silməyə çalışırdı.

Amma bu işğal əbədi davam edə bilməzdi. Azərbaycanın İkinci Qarabağ müharibəsində qazandığı tarixi Zəfər buna son qoydu. Bu Zəfər həmçinin türk dünyasının nüfuzunu artırdı. 44 günlük Vətən müharibəsi zamanı türk dövlətlərində sadə insanların, xüsusən sosial şəbəkələr vasitəsilə Azərbaycana ehtiramı, sevgisi açıq şəkildə hiss olunurdu. Bütün bunlar bir daha göstərirdi ki, yalnız dövlətlər deyil, xalqlar da bir-biri ilə dost və qardaşdırlar.

Yeri gəlmişkən qeyd edək ki, işğaldan azad edilmiş torpaqlarımızda aparılan bərpa-quruculuq işlərindən danışarkən Prezident İlham Əliyev Türkiyə şirkətlərinin fəallığı ilə yanaşı, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin şəxsi təşəbbüsü ilə Füzuli rayonunda böyük məktəbin inşa ediləcəyini vurğulayaraq təhsil müəssisəsinin layihəsinin təqdim edilməsini növbəti həmrəylik, dostluq, qardaşlıq addımı adlandırmışdır.

Zəngəzur dəhlizinin həm türk dünyasını, Avropanı, həm də qonşularımızı birləşdirə biləcək bir layihə olduğunu bir daha qeyd edən Prezident İlham Əliyev Naxçıvan zirvəsindəki çıxışını xatırlamışdır: "O zaman mən demişdim ki, 1920-ci ildə sovetlər hakimiyyəti Zəngəzuru Azərbaycandan qoparıb Ermənistana verməklə türk dünyasının coğrafi bağlantısını pozmuşdur və bunu xəritəyə baxmaqla hər kəs görə bilər. Bu gün isə biz bu coğrafiyanı bərpa edirik. Artıq nəqliyyat, kommunikasiya layihələrinin həyata keçirilməsi ilə biz bu coğrafiyanı yenidən bağlayırıq, birləşdiririk və ümid edirəm ki, buna sona qədər müvəffəq olacağıq".

Təbii ki, həm əvvəlki dövrlərdə, həm 44 günlük Vətən müharibəsinin davam etdiyi günlərdə, həm də işğaldan azad edilmiş ərazilərimizdə bərpa-quruculuq işlərinin aparıldığı indiki zamanda Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin nümayiş etdirdiyi birlik, bərabərlik, qətiyyət çox qürurvericidir. Tarixi təcrübə göstərir ki, yalnız gəlir əldə etmək məqsədilə qurulan əlaqələr, yaradılan əməkdaşlıq bir müddətdən sonra iflasa uğrayır. Lakin türk dövlətlərinin əlaqələrinin keçmişi və bu günü onun böyük, şanlı gələcəyindən xəbər verir. Bu dostluğun, əməkdaşlığın əbədi olacağını dünyaya göstərir.

Xüsusi olaraq vurğulanmalıdır ki, bu günə qədər Azərbaycan türk dünyasının birliyinin güclənməsinə mühüm töhfələr verib. Təşkilatın məhz Naxçıvan sazişi ilə yaradılması bunun bariz göstəricisidir. Ölkəmiz Türk Dövlətləri Təşkilatının təsisçi dövlətlərindən biri kimi daim əməkdaşlığın daha da inkişafı məqsədilə mühüm təşəbbüslər irəli sürüb, layihələr həyata keçirir.

Azərbaycan türk dövlətləri ilə həm də ikitərəfli formatda əməkdaşlıq edir. Ulu Öndər Heydər Əliyevin Azərbaycan-Türkiyə münasibətləri haqqında dediyi "Bir millət, iki dövlət" kəlamı iki türk dövləti arasındakı qardaşlıq münasibətlərinin ifadəsidir. Ötən illər ərzində Prezident İlham Əliyev dəfələrlə Türkiyə, Özbəkistan, Qırğızıstan və Qazaxıstana səfərlər edib. Həmçinin son dövrlərdə Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistan dövlət başçıları ölkəmizə səfərlərə gəliblər. Bütün bu səfərlər və görüşlər türk dövlətləri arasında dostluq və qarşılıqlı əməkdaşlıq əlaqələrini daha da genişləndirir, təşkilatın sabahına inamı artırır.

12 noyabr 2021-ci ildə İstanbul Zirvə görüşündə Azərbaycan ərazilərinin işğaldan azad edilməsini və ərazi bütövlüyünün bərpasını təmin edərək türk birliyinə mühüm töhfə verdiyinə və bölgədə davamlı sülhün, sabitliyin əldə olunmasına, tarixi Qələbəyə görə Prezident İlham Əliyev "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilib. Bu önəmli hadisəyə qədər Azərbaycan və onun Qalib Lideri İlham Əliyev türk dövlətlərinin birləşməsinə doğru uzun bir yol keçmiş, dünyada bir sıra sahələrdə olduğu kimi, bu ölkələrin yaxınlaşması sahəsində də özünün əvəzolunmaz töhfəsini vermişdir.

Son zamanlar dünyada baş verən geosiyasi proseslər fonunda türk dövlətləri əməkdaşlıq sahələrini genişləndirmək istiqamətində səylərini daha da artırıb. Azərbaycan torpaqlarının işğaldan azad edilməsi ilə təşkilatda əməkdaşlığın mahiyyətcə yeni mərhələyə keçidi başlayıb. Cənubi Qafqazda yeni reallıqların yaranması Mərkəzi Asiya ilə əməkdaşlığın formatına da öz təsirini göstərib.

Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan TDT-nin beynəlxalq məsələlərdə rolunu genişləndirmək üçün səylərini daim artırır. Avrasiyanın daim inkişafda olan geosiyasi mənzərəsində Türk Dövlətləri Təşkilatı üzv ölkələrin ortaq baxışı ilə əhəmiyyətli bir güc və inkişaf mərkəzinə çevrilir.

TDT-nin gələcəyinə olan aydın və işıqlı baxışlar türkdilli xalqlar arasında birliyin, dostluğun, qardaşlığın daha sıx olacağına böyük ümidlər verir. Azərbaycanın da üzv olduğu və rəhbərlik etdiyi Türk Dövlətləri Təşkilatı türk dünyasında və onun hüdudlarından kənarda həmişə sülh, sabitlik və əmin-amanlıq olmasını istəyir. Təşkilat dünyaya sülh gətirəcək bu istəyi, bu amalı yerinə yetirmək üçün üzərinə düşən vəzifələri uğurla yerinə yetirir, bu istiqamətdə inamlı və mühüm addımlar atır.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*



## "Bizim mədəniyyətimiz milli mənsubiyyətimizi qorumaq üçün başlıca rol oynayıb"
## İlham ƏLİYEV

# Mədəniyyət sahəsində əlamətdar və unudulmaz olan bir il

Mədəniyyətimizin inkişafı, təbliği dövlətimizin böyük önəm verdiyi sahələrdən biridir. Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində son bir il ərzində də bu sahənin tərəqqisi, tanıdılması istiqamətində mühüm işlər görülüb. Dövlət başçısının imzaladığı sərəncamlar, çoxsaylı və əhəmiyyətli tədbirlərin həyata keçirilməsi söyləməyə əsas verir ki, ötən bir il mədəniyyət sahəsində əlamətdar və unudulmaz olub.

### Zəngin mədəniyyətimiz - qürur mənbəyimiz

Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycanın zəngin və təkrarolunmaz mədəniyyəti bizim qürur mənbəyimizdir: "Biz öz mədəniyyətimizi, mədəni irsimizi qorumalıyıq. Əsrlər boyu xalqımız öz mədəniyyətini qoruyub və bu, imkan verib ki, biz xalq kimi, millət kimi milli-mənəvi dəyərlərimizi, milli mənsubiyyətimizi qoruya bilək. Uzun illər ərzində Azərbaycan müstəqillikdən məhrum idi, xalqımız başqa dövlətlərin tərkibində yaşayırdı. Buna baxmayaraq, xalqımızın iradəsi, milli köklərə bağlılığı imkan vermədi ki, xalqımız assimilyasiyaya uğrasın. Bizim mədəniyyətimiz milli mənsubiyyətimizi qorumaq üçün başlıca rol oynayıb".

Azərbaycan ötən bir ildə də mədəniyyət sahəsində mühüm tədbirlərə evsahibliyi etdi. Silsilə beynəlxalq tədbirlər - "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı, "Muğam Dünyası" Beynəlxalq Musiqi Festivalı, "Qəbələ Beynəlxalq Musiqi Festivalı", Bakı Beynəlxalq Caz Festivalı və digər tədbirlər uğurla reallaşdı. Həmin tədbirlər dünyanın müxtəlif ölkələrindən olan sənətkarları bir araya gətirdi.

Azərbaycanın qədim mədəniyyətinin və müasir incəsənətinin beynəlxalq ictimaiyyətə tanıdılmasında UNESCO-nun himayəsi altında təşkil olunan tədbirlərin, "İslam mədəniyyəti paytaxtı" layihəsi çərçivəsində keçirilən proqramların da əhəmiyyəti vurğulanmalıdır.

Ötən bir ildə Azərbaycanın mədəniyyət paytaxtı Şuşada bir sıra unudulmaz tədbirlər düzənləndi. Xatırladaq ki, 2023-cü il sentyabrın 25-də Qətərin paytaxtı Dohada keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci konfransında bu şəhər 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilmişdi. Prezident İlham Əliyev 2023-cü il noyabrın 21-də Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər haqqında sərəncam imzaladı.

Şuşanın Cıdır düzündə 2024-cü il mayın 11-də VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının və "Şuşa - İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin açılış mərasimi oldu. Mərasimdə çıxış edən dövlət başçısı İlham Əliyev ölkəmizdə bir çox beynəlxalq tədbirin, musiqi festivallarının, mədəni tədbirlərin keçirildiyini qeyd etdi: "Təbii ki, Şuşa şəhərinin islam dünyasının mədəniyyət paytaxtı olması bizə əlavə imkan verəcək ki, öz mədəniyyətimizi həm müsəlman ölkələrinin ictimaiyyətinə, həm də dünya ictimaiyyətinə çatdıraq".

İlboyu islam dünyasının mədəniyyət paytaxtı Şuşada əhəmiyyətli tədbirlər təşkil edildi. İslam Dünyasının Mədəniyyət Forumu çərçivəsində Şuşada İslam Əməkdaşlığı Təşkilatının mədəni irsin mühafizəsinə həsr olunmuş beynəlxalq konfransı, "İslam dünyasının itirilməkdə olan qeyri-maddi mədəni irs nümunələri" mövzusunda "dəyirmi masa", sərgi və digər təqdimatlar keçirildi.

Türkdilli dövlətlərdən olan uşaqlar arasında dostluq tellərini möhkəmləndirmək, onlara milli kimliklərini, mədəni irslərini tanıtmaq imkanı yaratmaq, həmçinin Şuşanın əsrarəngiz təbiətini və mədəni əhəmiyyətini beynəlxalq ictimaiyyətə çatdırmaq məqsədilə iyunun 1-də "Şuşa türk dövlətləri birliyinin mədəniyyət incisidir" adlı beynəlxalq uşaq yaradıcılıq festivalı təşkil olundu. Bu möhtəşəm festivalda Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Macarıstandan 250-yə yaxın məktəbli iştirak etdi.

Azərbaycanın qədim sənət və mədəniyyət mərkəzlərindən olan Şəkidə iyul ayında növbəti dəfə düzənlənən Şəki "İpək Yolu" XIII Beynəlxalq Musiqi Festivalı yenə də musiqi bayramına çevrildi. Festivalda Azərbaycanın və bir sıra xarici ölkələrin tanınmış musiqi kollektivləri və istedadlı musiqiçiləri iştirak etdilər.

Ermənistanın otuz ilə yaxın işğal altında saxladığı ərazilərdə həyata keçirdiyi vandallıq Qarabağda və Şərqi Zəngəzurda tarixi, milli-mədəni irsimizə ağır zərbə vurdu. Tariximizin, mədəniyyətimizin nişanələri olan abidələrimiz, muzeylərimiz, kitabxanalarımız, həmçinin müqəddəs ziyarətgahlarımız, məscidlərimiz işğalçı, vandal ermənilər tərəfindən uçurulub dağıdıldı, məhv edildi. 2020-ci ildə İkinci Qarabağ müharibəsində qazandığımız Böyük Zəfərdən sonra dövlətimizin başçısı işğaldan azad olunmuş ərazilərdə quruculuq, tikinti, bərpa işlərinin həyata keçirilməsi üçün sərəncam verdi. Və bu istiqamətdə geniş, əhatəli işlər görülməyə başlandı. İşğaldan azad edilmiş ərazilərimizdə reallaşdırılan geniş tikinti-bərpa işləri sırasında tarixi, mədəni, dini abidələrin bərpası da əhəmiyyətli yer tutur. Qeyd edək ki, keçən bir il Qarabağ və Şərqi Zəngəzurda tarixi-mədəni irsimizin bərpası istiqamətində reallaşan mühüm işlərlə də yadda qaldı. 2024-cü ilin sentyabrında Şuşada Azərbaycanın dahi bəstəkarı Üzeyir Hacıbəylinin ev-muzeyinin bərpadan sonra açılışı oldu. Dövlət başçısı açılış mərasimində iştirak etdi.

Yerli və xarici mütəxəssislərin iştirakı ilə restavrasiyası və arxeoloji tədqiqatı aparılmış Ağdam İmarət Kompleksinin açılış mərasimi də sentyabrda keçirildi. Açılışda iştirak edən Prezident İlham Əliyev kompleksdə yaradılan şəraitlə tanış oldu, düşmən tərəfindən məhv edilən tarixi çinarların yerində ağac əkdi.

Ötən ilin dekabrında milli peşəkar teatrın yaranmasının 145 illiyinə həsr edilən IV Şəki Beynəlxalq Teatr Festivalı təşkil olundu. Festivalda respublikamızın teatrları ilə yanaşı, Qazaxıstan, Özbəkistan və İrandan teatr kollektivləri də iştirak etdilər.

### Mədəniyyət və incəsənət xadimlərinə yüksək diqqət və qayğı

Prezident İlham Əliyevin 2024-cü ilin mayında imzaladığı "İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında" sərəncama əsasən, səhnə fəaliyyəti ilə bağlı bir qrup incəsənət xadimi Azərbaycan Respublikası Prezidentinin mükafatlarına layiq görüldü.

Dövlət başçısının həmin tarixdə imzaladığı başqa bir sənədə - "Azərbaycan mədəniyyət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında" sərəncama uyğun olaraq Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə Ömər Eldarov, Fərhad İsrafilov, Sevda Məmmədəliyeva, Laləzar Mustafayeva və başqalarına Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verildi.

Prezident İlham Əliyevin sərəncamları ilə Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Polad Bülbüloğlu 1-ci dərəcəli "Vətənə xidmətə görə", Azərbaycanda ədəbiyyatşünaslıq elminin inkişafında böyük xidmətlərinə və uzunmüddətli səmərəli ictimai-siyasi fəaliyyətinə görə Rafael Hüseynov "Şərəf" ordenləri ilə təltif edildilər.

Keçən bir il ərzində dövlət başçısı İlham Əliyevin sərəncamları ilə görkəmli Azərbaycan bəstəkarı, tanınmış dirijor və pedaqoq, Dövlət mükafatı laureatı, Xalq artisti Süleyman Ələsgərovun və Azərbaycanın Xalq şairi, ictimai xadim, Dövlət mükafatları laureatı Nəbi Xəzrinin (Nəbi Ələkbər oğlu Babayevin) 100 illik yubileyləri təntənəli tədbirlərlə qeyd olundu.

2025-ci il fevralın 3-də Prezident İlham Əliyev "Üzeyir Hacıbəylinin 140 illiyinin qeyd edilməsi haqqında" sərəncam imzaladı. Sərəncamda qeyd olunur ki, Üzeyir bəy Hacıbəyli çoxşaxəli yaradıcılığı ilə Azərbaycan mədəniyyəti tarixində silinməz iz qoymuş qüdrətli şəxsiyyətlərdəndir: "Azərbaycan bəstəkarlıq məktəbinin banisi olan Üzeyir Hacıbəyli novator sənətkar kimi milli musiqi xəzinəsini unikal forma və janrlarla zənginləşdirmişdir. O, Şərqin və Qərbin musiqi nailiyyətlərinin dərin vəhdətində dünya musiqisinin qızıl fondunda fəxri yer tutan nadir sənət inciləri meydana gətirmiş, Azərbaycan mədəniyyətinə beynəlxalq miqyasda geniş şöhrət qazandırmışdır. Üzeyir Hacıbəyli eyni zamanda parlaq bədii dühası sayəsində Azərbaycan dramaturgiyasına dəyərli töhfələr vermiş, alovlu publisistikası ilə mətbuat salnaməsinə yeni səhifələr yazmışdır. Onun azərbaycançılıq məfkurəsi ilə yoğrulmuş dolğun ictimai-siyasi fəaliyyəti əsl vətənpərvərlik nümunəsidir".

Mədəniyyət sahəsində bir il ərzində həyata keçirilmiş işləri saymaqla bitmir. Dövlət başçısının bu sahə ilə bağlı verdiyi hər bir qərar, sərəncam Azərbaycan mədəniyyətinin inkişafına, təbliğinə yol açan növbəti uğurdur.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*



# İLHAM ƏLİYEVİN UĞUR FORMULU

## Düşünülmüş strategiya, düzgün taktika

Azərbaycan güclü iqtisadiyyat, özünü təmin edən iqtisadiyyat qura bilmişdir. Ümumi daxili məhsula (ÜDM) nisbətdə xarici borcun səviyyəsi cəmi 6,9 faizdir. Konvertasiya oluna bilən valyuta ehtiyatlarımız xarici borcumuzu 14 dəfə üstələyir. Buna əsaslanaraq ölkəmiz regionda bağlantılar yaradan genişmiqyaslı layihələr həyata keçirmişdir və nəticədə Cənubi Qafqaz və Xəzər regionunda etibarlı mövqe tutmuşdur.



# Çin həm də "yaşıl tərəfdaş"ımızdır

**Prezident İlham ƏLİYEV:** "Bizim heyətlərimiz enerjinin tədarükü imkanları üzərində işləyirlər və biz ən yaxşı batareyaların Çində istehsal olunduğunu müəyyən etmişik"

Prezident İlham Əliyevin cari il yanvarın 20-də Davosda Çinin CGTN (China Global Television Network) telekanalına müsahibəsində bunlar bir daha vurğulanmış və dövlətimizin başçısı demişdir: "Sözsüz ki, bizim hədəfimiz Azərbaycanın dünyanın siyasi və iqtisadi xəritəsində öz yerini tutmasından ibarət idi. Təxminən 200 ölkəni bir araya gətirən İqlim konfransına evsahibliyi etmək böyük çağırış, böyük məsuliyyət, eyni zamanda böyük nailiyyət idi. Azərbaycanın şaxələnmiş xarici siyasətinin daha bir nümayişi ondan ibarət idi ki, bizim namizədliyimiz bütün iştirakçı dövlətlər və qurumlar tərəfindən dəstəkləndi".

Dövlət başçısı müsahibədə bildirmişdir ki, Qlobal Cənubun bir hissəsi olaraq ölkəmiz Qlobal Cənubun maraqlarını müdafiə etmişdir. Elə COP29-da da ideyalarımızdan biri Qlobal Cənubla Qlobal Şimal arasında daha möhkəm körpülər qurmaq idi. Çünki Azərbaycan COP29-a evsahibliyi edən ölkə kimi gördü ki, iqlim məsələlərinə gəldikdə, hər iki tərəf müəyyən səviyyədə bir-birinə etibar etmir və söhbət təkcə iqlimdən getmir.

"Əslində, biz iqlim dəyişikliyi ilə bağlı məsələlərlə dərindən məşğul olmağa başlayanda iqlim dəyişikliyi səbəbindən ekzistensial təhlükə ilə üzləşən ölkələrdə yüksək dərəcədə narazılığın olduğunu gördük. Biz hamımız bundan əziyyət çəkirik, o cümlədən Azərbaycan. Lakin elə ölkələr var ki, - xüsusilə kiçik ada dövlətləri, - onların mövcudluğuna təhlükə var. Bəzən onların məsələsi gündəliyə daxil olmur, biz isə bunu etdik", - deyə Prezidentimiz COP29-da ən mühüm tədbirlərdən birinin məhz inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Zirvə görüşü olduğunu xatırlatmışdır.

Belə ki, Azərbaycan bu ölkələrə əməli dəstək göstərmək üçün çox iddialı gündəlik irəli sürdü. Əlbəttə, böyük aktorlar birgə yanaşma nümayiş etdirməsə, həmin ölkələri və iqlim məsələlərinin həlli üçün maddi ehtiyatları olmayan ölkələri dəstəkləmək çətin məsələdir. Odur ki, üzərinə bu yükü götürən ölkələrin məsuliyyəti daha çox iş görməkdir. Qlobal Cənub tamamilə obyektiv olaraq dünyanın ən zəngin ölkələrindən daha çox dəstək gözləyir.

COP29-da Azərbaycanın "yaşıl gündəliy"i dünyaya bir daha bəlli oldu. O da təbiidir ki, qazıntı yanacağı ilə zəngin olan bir ölkənin iqtisadiyyatının "yaşıl enerji"yə baxışı hamı üçün maraqlıdır. Sözügedən müsahibədə də sualların biri məhz bununla bağlı idi.

Prezident İlham Əliyev bu barədə belə demişdir: "Hesab edirəm ki, qazıntı enerji növlərinə malik olan ölkələrin məsuliyyəti əldə etdikləri gəlirləri "yaşıl texnologiya"ya və "yaşıl enerji"yə investisiya etməkdən ibarətdir. Biz məhz bunu edirik. Biz investorlar üçün yaxşı investisiya mühitini yaratdıq. Bizim 2027-ci ilə qədər olan hədəfimiz 2 giqavat həcmində günəş və külək elektrik enerjisini hasil etməkdir. 2030-cu ilə qədər isə bu hədəf 6 giqavatdır. Bu, Azərbaycanda enerji sahəsində bir inqilab olacaqdır".

Qeyd edək ki, ölkəmiz bu layihələri bir sıra xarici tərəfdaşlari ilə birgə həyata keçirir. Konkret olaraq Birləşmiş Ərəb Əmirliklərinin "Masdar", Səudiyyə Ərəbistanının "ACWA Power", Böyük Britaniyanın BP şirkətləri ilə. Prezidentimiz müsahibəsində qeyd etmişdir ki, bu layihələrə sərmayə yatıran xarici şirkətlər, eləcə də Azərbaycandan olan yerli şirkətlər Çin texnologiyasından istifadə edirlər: "Günəş panelləri Çində istehsal olunur. İndi bizim heyətlərimiz enerjinin tədarükü imkanları üzərində işləyirlər və biz ən yaxşı batareyaların Çində istehsal olunduğunu müəyyən etmişik. Mən bu möhtəşəm uğur münasibətilə Çin istehsalçılarını təbrik edirəm. Çünki burada söhbət məhsulun keyfiyyəti və qiymətindən gedir. Heç kim bu rəqabəti apara bilmir".

İndi Çin şirkətləri təkcə xidmət və texnologiyaların təmin edilməsində yox, həmçinin Azərbaycana investisiya yatırmaqda maraqlıdırlar və bu proses artıq gedir. Məlum olduğu kimi, COP29 çərçivəsində Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında Xəzər dənizinin dibi ilə enerji kabelinin çəkilməsi barədə müqavilə imzalanmışdır. Beləliklə, biz Mərkəzi Asiya ilə Azərbaycanı və potensial olaraq Çini enerji kabeli ilə bir-biri ilə bağlayacağıq. Digər bir layihədə belə bir kabel xətti Qara dənizin dibi ilə Azərbaycandan Avropaya uzanacaq. Xatırladaq ki, söhbət 2022-ci il dekabrın 17-də Buxarestdə imzalanmış "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"ə əsasən reallaşdırılan layihədən gedir.

"Bu, növbəti bir bağlantı layihəsidir. Bu, "yaşıl enerji" üçün bir dəhlizdir və onun nəhəng potensialı var. Çünki Azərbaycanın külək və günəş enerjisi potensialı artıq bəllidir və bu, bizim təsəvvürə gətirə biləcəyimizdən qat-qat artıqdır. Beləliklə, bizə bazarlar, texnologiya və əməkdaşlıq lazımdır. Çünki qonşu ölkələr arasında əməkdaşlıq olmadan bu layihələrin icrası mümkün deyil", - deyə Prezident İlham Əliyev vurğulamışdır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Liderlik məsuliyyəti

Son iki onillikdə qazanılan mühüm inkişaf və qalibiyyətlər silsiləsi ölkəmizi ərazi bütövlüyü və suverenliyi tam təmin olunan yeni Azərbaycana çevirib. Yüksək nüfuzu, qlobal proseslərə töhfə vermək bacarığı, etibarlı tərəfdaş olmaq kimi mühüm keyfiyyətləri ilə sayılıb-seçilən ölkələr sırasında irəliləyən Azərbaycanın dünyanın hər yerindən görünən bu zirvəyə ucalması isə heç şübhəsiz, Prezident İlham Əliyevin şəxsi liderlik qabiliyyəti sayəsində mümkün olub.

2003-cü ilin oktyabrında Prezident kimi ilk dəfə and içəndə İlham Əliyev Azərbaycan xalqına hansı vədləri vermişdisə, ötən dövr ərzində onların hamısını qətiyyətlə gerçəyə çevirib. Prezident İlham Əliyev ölkəmizə rəhbərlik etdiyi 17 il ərzində Azərbaycanı iqtisadi, sosial, hərbi sahədə elə gücləndirdi ki, bu, xalqımıza 2020-ci ilin Qarabağ Zəfərini bəxş etdi. Torpaqlarımızın 30 illik işğalına son qoyuldu, ardınca bayrağımız bütün sərhədlərimiz boyu dalğalandırıldı, suverenliyimiz təmin edildi, Konstitusiyamız bütün ərazilərimizdə qüvvəyə mindi.

Prezident İlham Əliyevin əzminin, iradəsinin, qətiyyətinin bir qala kimi ucaltdığı yeni Azərbaycanın ən böyük uğurlarından biri isə işğaldan azad edilən torpaqlarımıza Böyük qayıdışın müvəffəqiyyətlə həyata keçirilməsidir.

Azərbaycan adına əldə edilən bu qələbələrə görə idi ki, ötən ilin fevralında müstəqillik tariximizdə ilk dəfə bütün ərazilərimizdə keçirilən prezident seçkilərində xalqımız böyük minnətdarlıq hissi ilə xilaskar lider İlham Əliyevi yekdilliklə dəstəklədi, yüksək səs faizi ilə onu özünün Prezidenti seçdi.

### "Ölkəniz üçün doğru olanı edin"

Prezident İlham Əliyevin şəxsi liderlik qabiliyyəti sayəsində Azərbaycanın milli maraqlarını təmin etməsi, çalxalanan, geosiyasi toqquşmalar gedən çoxqütblü dünyada müstəqil siyasət yürütməsi, ölkəmizi dayanıqlı, sözün əsl mənasında, təhlükəsizlik adasına çevirməsi beynəlxalq ictimaiyyətin də diqqətindən yayınmır. Bu gerçəklər ən ali səviyyədə belə dilə gətirilir, etiraf olunur. Eyni zamanda Azərbaycan Prezidentinin bütün bu nailiyyətləri necə qazanmasının səbəbi böyük maraq doğurur.

Elə yanvarın 20-də Davosda Çinin CGTN (China Global Television Network) telekanalının aparıcısı da Prezident İlham Əliyevə bu sualla müraciət edib: "Deyə bilərəm ki, dünya çox sürətlə dəyişir. Lakin, cənab Prezident, hər dəfə Sizinlə danışanda mənə elə gəlir ki, ölkəniz çox güclü təməl üzərində dayanıb. Mənə maraqlıdır, bu, təkcə özünüz barədə yox, bu gün olan liderlik haqqında nəyi bildirir? Xüsusilə bütün bu dəyişikliklərin baş verdiyi bir vaxtda".

Bu suala verdiyi cavabla Prezident İlham Əliyev əsl liderin uğur formulunu açıqlayaraq deyib ki, liderlik, əlbəttə ki, böyük bir məsuliyyətdir və ən önəmlisi ondan ibarətdir ki, lider həmişə öz xalqına, öz əhalisinə münasibətdə ədalətli olmalıdır: "Heç vaxt xalqına yalan danışmamalısan və xalq bunu yüksək qiymətləndirəcək. Bəzən müəyyən siyasi səbəblər üzündən hakimiyyətə can atan liderlər çoxlu vədlər verir və sonra onları yerinə yetirmir və bu da məyusluğa, inamsızlığa gətirib çıxarır. Bu, dünyanın müxtəlif yerlərində siyasi böhrana gətirib çıxarır".

Dövlət başçısı əlavə edib: "Bizə gəldikdə, iyirmi ildən artıq müddət ərzində mən həmişə Azərbaycan xalqına həqiqəti söyləmişəm. Bu həqiqətin müsbət və ya mənfi olmasından asılı olmayaraq. "Həmişə xalqıma biz ədaləti bərpa edəcəyik söyləmişəm və xalqım da mənə inanıb. 17 il hakimiyyətdə olandan sonra biz, nəhayət, vəd etdiklərimizi yerinə yetirdik və suverenliyimizi, ərazi bütövlüyünü və ləyaqətimizi bərpa etdik".

Prezident İlham Əliyev müsahibəsində ictimaiyyətin dəstəyini əldə etmək istəyən liderlərə məsləhətini də söyləyib: "...həmişə həqiqəti söyləyin və beynəlxalq təzyiqdən, beynəlxalq mediadan asılı olmayaraq, haqqınızda nə dediklərindən, sizi necə adlandırdıqlarından, sizi necə təhqir etmələrindən asılı olmayaraq, ölkəniz üçün doğru olanı edin. Beləliklə, siz özünüz və ölkəniz uğur qazanmış olacaqsınız".

### Milli maraqlarımız qəti şəkildə müdafiə edilib

Müstəqilliyini yenicə qazanan Azərbaycanın işğalla üzləşdiyi, daxili parçalanma ilə qarşılaşdığı, dövlət kimi məhv olmaq təhlükəsi altına düşdüyü ən ağır dövrdə Ulu Öndər Heydər Əliyev ölkəmizi böhranlardan xilas edərək, inkişaf yoluna çıxardı. Prezident İlham Əliyev isə Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirərək Azərbaycanı hərtərəfli inkişaf yoluna çıxarıb Cənubi Qafqazın lider ölkəsinə çevirdi. Təsadüfi deyil ki, bu gün bölgə ilə bağlı planlaşdırılan hər hansı layihə Azərbaycanın razılığı olmadan gerçəkləşdirilə bilmir. Mühüm beynəlxalq nəqliyyat layihələrinin təşəbbüskarı və onları uğurla reallığa çevirən ölkə olaraq adından söz etdirən Azərbaycan həm də qlobal əhəmiyyətli çağırışları ilə dünya miqyaslı problemlərin həllinə töhfə verir.

Qalib Lider İlham Əliyev qazandığı tarixi Zəfərlə - hansı ki, bu Zəfərin ümumilikdə regionda sülhə yol açması da bir ayrı gerçəklikdir - Azərbaycanın şanına şan qatıb. Suverenliyimizin öz gücümüzlə təmin olunmasının bu gün dünyada separatizmdən əziyyət çəkən xalqlara ümid olması da bir başqa reallıqdır.

Yuxarıda sözügedən müsahibəsində ölkəmizin rəhbəri vurğulayıb ki, milli maraqlarımızı, həyat tərzimizi və müstəqil siyasətimizi qəti şəkildə müdafiə etmişik və çoxlu uğur qazanmışıq.

Azərbaycan xalqı, dövləti adına qazanılan və kitab-kitab yazılara belə sığmayacaq bütün bu möhtəşəm qələbələrin, uğurların, nailiyyətlərin müəllifi məhz Prezident İlham Əliyevdir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan-Çin münasibətləri artıq beynəlxalq dəhlizlərlə məhdudlaşmır

## İndi ölkələrimiz qarşılıqlı maraq doğuran bütün sahələr üzrə strateji tərəfdaşdırlar

Son dövrlər Çinin Azərbaycana xüsusi maraq göstərməsinin şahidi oluruq. Bu, təbii ki, səbəbsiz deyil. Əvvəla, Asiya nəhənginin "Bir kəmər, bir yol" layihəsində ən önəmli tərəfdaşı Azərbaycandır. Başqa sözlə, ÇXR tərəfindən irəli sürülən bu layihədə Azərbaycan açar ölkədir.

İkincisi, Şərqdən Qərbə gedən önəmli ticarət marşrutu olan Orta dəhliz də Azərbaycandan keçir və bu marşrutla Çin ölkəmizin üzərindən şimal və cənub istiqamətlərinə də yük göndərə bilir. Yəni Çin bizim üçün önəmli olduğu qədər biz də onun üçün əhəmiyyətliyik.

Çinin dövlət başçısı Si Cinpinlə Prezident İlham Əliyev arasında dəfələrlə görüşlər olub və bu görüşlərdə ikitərəfli mübasibətlərin perspektivləri müzakirə edilib. Təsadüfi deyil ki, Çində "Bir kəmər, bir yol" layihəsinə həsr olunmuş beynəlxalq konfransa dəvət olunan azsaylı ölkələrdən biri də Azərbaycan idi. Tədbir öncəsi və konfrans çərçivəsində dövlət başçıları iki ölkə arasında əməkdaşlığın mühüm istiqamətlərini müəyyənləşdirmişlər. Həmin görüşlərdən sonra ölkələrimiz arasındakı münasibətlər dəhlizlər çərçivəsindən kənara çıxaraq bir çox mühüm sahəni də əhatə etmişdir.

Prezident İlham Əliyev Çinin CGTN telekanalına müsahibəsində iki ölkə arasında olan əlaqələrin hüdudlarının geniş olduğunu bildirərək demişdir: "...Azərbaycanın Orta dəhlizlə bağlı mövqeyi sadəcə tranzit ölkəsi olmaq və tranzitdən ödənişlər almaqdan ibarət deyil. Bizim hədəfimiz özəl sektora bundan faydalanmağa kömək etmək üçün dəhlizin keçdiyi Azərbaycan ərazisində müəssisələr yaratmaqdır. Əlbəttə ki, sizin istinad etdiyiniz paneldən bəri bu sahədə, o cümlədən Çin-Azərbaycan münasibətlərində bir çox hadisələr baş vermişdir. Artıq qeyd etdiyimiz kimi, biz strateji tərəfdaşıq, lakin eyni zamanda Orta dəhlizin Azərbaycan seqmentinin infrastrukturu təkmilləşdirilmişdir. Hazırda biz görürük ki, bu təkmilləşdirilmiş infrastruktur gələcək 3-5 il üçün kifayət etməyəcək".

Orta dəhliz dünyanın yeni və ən əhəmiyyətli qlobal ticarət marşrutuna çevrilir. Artıq bu dəhlizə təkcə Çin deyil, Avropa ölkələri də maraq göstərir. Çünki bu marşrut həm təhlükəsizlik, həm də yüklərin mənzilbaşına tez çatması baxımından sərfəlidir. Odur ki, hazırda Orta dəhlizlə daşınan yüklərin həcmi sürətlə artmaqda davam edir.

Orta dəhlizlə yüklərin daşınmasında Bakı Beynəlxalq Ticarət Limanının xüsusi payı var. Ona görə ki, Çindən gələn yüklər Xəzər dənizi üzərindən aşırılmalıdır. Bunun üçün limanın texniki imkanları geniş olmalıdır. Hazırda limanda yükaşırma qabiliyyətini artırmaq üçün yeni layihələr həyata keçirilir. Məqsəd daha çox tranzit yükün ölkəmiz üzərindən daşınmasına əlverişli imkan yaratmaqdır. Bizim ilk hədəfimiz limandan ildə 15 milyon ton yükaşırmaq idi. İndi məlum olur ki, Orta dəhlizə dünyada artan maraq sayəsində yaxın 5-6 ildə 25 milyon ton yükün daşınması gözlənilir. Bu barədə Prezident İlham Əliyev sözügedən müsahibəsində bildirmişdir: "…bizim hədəfimiz ticarət limanında 15 milyon ton yükaşırma qabiliyyətinə malik olmaq idi və bu da onilliklər ərzində yetərli olardı. Lakin indi biz ola bilsin ki, növbəti 5-6 ildə 25 milyon ton yük qəbul etməyi gözləyirik. Beləliklə, biz hazırda dəniz ticarət limanımızın və dəmir yolu infrastrukturumuzun genişləndirilməsini maliyyələşdiririk".

Söz düşmüşkən qeyd edək ki, Orta dəhliz marşrutunun mühüm hissəsi olan Bakı limanında ötən il aşırılan yüklərin ümumi həcmi 7,6 milyon ton olub ki, bu da 2023-cü ilin müvafiq göstəricisindən 3,2 faiz çoxdur. Bakı limanından konteyner daşınmasında 73, ümumi yükaşırma həcmində 3, təkərli texnikanın daşınmasında 7 faizdən çox artım olub.

Hesabat dövründə ayrı-ayrı sahələr üzrə ən böyük artımlardan biri Bakı limanında aşırılan konteynerlərin sayında qeydə alınıb. Təkcə ötən il limanda 76,775 TEU ekvivalentində konteyner aşırılıb ki, bu da 2023-cü illə müqayisədə 73 faizlik artım deməkdir.

Qayıdaq ÇXR-lə münasibətlərimizə. Məlumdur ki, Çin dünyada yüksək texnologiyalardan istifadə edən azsaylı ölkələrdən biridir. Hazırda bu ölkə bir çox sahədə yüksəkkeyfiyyətli məhsul istehsal edir. Və belə bir ölkə ilə ikitərəfli əlaqələrin genişlənməsi təbii ki, müsbət haldır.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# "Vergi Xidməti-25: Davamlı inkişaf və effektiv transformasiya" mövzusunda forum keçirilib

İqtisadiyyat Nazirliyində "Vergi Xidməti-25: Davamlı inkişaf və effektiv transformasiya" mövzusunda forum keçirilib.











Tədbirdə İqtisadiyyat Nazirliyinin və Dövlət Vergi Xidmətinin rəhbərliyi, dövlət qurumlarının nümayəndələri, Milli Məclisin deputatları, Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman), sahibkarların ictimai birliklərinin təmsilçiləri, ekspertlər, iş adamları iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə iqtisadiyyat naziri Mikayıl Cabbarov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Vergi Xidməti - 25: Davamlı inkişaf və effektiv transformasiya" mövzusunda keçirilən forumun iştirakçılarına məktubunu oxuyub.

Sonra forumda Azərbaycanın vergi orqanlarının 25 illik fəaliyyəti barədə film nümayiş olunub.

İqtisadiyyat naziri Mikayıl Cabbarov tədbirdə çıxış edərək vergi işçilərini xidmətin 25 illiyi və peşə bayramı münasibətilə təbrik edib. Diqqətə çatdırılıb ki, vergi siyasəti iqtisadiyyatın səmərəliliyinə böyük təsir göstərir. Qeyd edilib ki, vergi xidməti təkcə fiskal orqan deyil, həm də biznes mühitinin inkişafını dəstəkləyən, şəffaflığa töhfə verən, sahibkarlarla səmərəli tərəfdaşlıq münasibətlərinə malik qurumdur. Son illərdə qeyri-neft sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayının artması və onların ümumi iqtisadiyyatda xüsusi çəkisinin yüksəlməsi bunun əyani göstəricisidir.

Bildirilib ki, iqtisadi gündəliyin əsas prioritetlərindən biri dayanıqlı inkişaf və özəl sektorun gücləndirilməsidir. Özəl sektorun inkişafı ilə yanaşı, son illər aparılan islahatlar nəticəsində dövlət müəssisələrinin rentabelliyinin artdığı qeyd olunub. Həmin müəssisələr risklərdən biri kimi qiymətləndirilən borc yükünü və dövlət büdcəsindən asılılığı azaldıb. Bununla yanaşı dayanıqlı iqtisadi artımı və fiskal sabitliyi təmin etmək üçün ixracyönümlü sahə və xidmətlərin təşviqinin önəmi bildirilib.

2019-cu ildən vergi sistemində həyata keçirilən islahatlar nəticəsində Azərbaycanda əmək münasibətlərinin leqallaşdırılması istiqamətində ciddi irəliləyişə nail olunub. Vergi qanunvericiliyində təşviqlər sayəsində rəsmi əmək müqavilələrinin sayında əhəmiyyətli artım əldə edilib.

Forumda 2018-2024-cü illərdə ölkəmizin makroiqtisadi artımı, eləcə də qeyri-neft sektorunun böyüməsi, vergi daxilolmalarının qeyri-neft ÜDM-də xüsusi çəkisinin yüksəlməsi, əmək müqavilələrinin sayının artması və digər göstəricilər barədə təqdimat nümayiş etdirilib.

Tədbirdə Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva vergi ödəyicilərinin hüquqları və vergi orqanlarının fəaliyyətində şəffaflığın və hesabatlılığın əhəmiyyəti barədə danışıb. O, vergi siyasətinin iqtisadi sabitliyin təmin edilməsində əhəmiyyətli rol oynadığını və hüquqi dövlətin, demokratik cəmiyyətin əsas komponentlərindən biri olduğunu qeyd edib. Müvəkkil dövlət müstəqilliyimizin bərpasından sonra vergi sisteminin təkmilləşdirilməsi və dayanıqlı inkişaf etdirilməsi istiqamətində kompleks islahatların həyata keçirildiyini bildirərək, bu islahatların insan hüquq və azadlıqlarının daha səmərəli təmininə xidmət etdiyini diqqətə çatdırıb. Ombudsman vergi ödəyicilərinin, habelə vergi münasibətlərinin digər iştirakçılarının hüquqlarının daha səmərəli müdafiəsi və pozulmuş hüquqların bərpası, vergi sahəsində şəffaflığın artırılması və azad sahibkarlıq hüququnun təmini istiqamətində Ombudsman Aparatı ilə Dövlət Vergi Xidməti arasında əməkdaşlığın mövcud olduğunu bildirib.



Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov Dövlət Gömrük Komitəsi ilə Dövlət Vergi Xidməti arasında səmərəli əməkdaşlığı vurğulayıb. Bu istiqamətdə vahid risk platforması çərçivəsində tərəfdaşlığın önəmi qeyd edilib. O, diqqətə çatdırıb ki, Azərbaycan dövlətinin qurucusu və onun inkişaf strategiyasının memarı Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyən edilmiş prinsiplərə uyğun olaraq formalaşdırılmış vergi xidməti illər ərzində vergi idarəçiliyi və iqtisadiyyatın dayanıqlı inkişafının əsas tutumlarından birini təşkil edir. Prezident İlham Əliyevin həyata keçirdiyi qətiyyətli və düşünülmüş siyasət əsasında ölkə iqtisadiyyatı inkişaf edir, dövlətin maliyyə təminatı artır, ölkəmizin beynəlxalq ticarət liderliyi güclənir. Bu fundamental işlərin həyata keçirilməsində vergi xidmətinin qarşısında müəyyən edilmiş vəzifələr layiqincə icra olunur. Beynəlxalq təcrübə əsasında hazırlanmış müasir xidmətlər və proqramlar, sahibkarlara dəstək tədbirləri fonunda həyata keçirilən rəqəmsallaşma prosesi, eləcə də şəffaflıq prinsipləri əsasında tətbiq edilən fəaliyyət modelinin dövlət büdcəsinin formalaşmasında, vergi gəlirlərinin artırılmasında, sahibkarlığın inkişafı və investisiya mühitinin yaxşılaşmasında əhəmiyyətli səmərə göstərir. Vergilərdən yayınma hallarına qarşı mübarizə, beynəlxalq vergitutma tədbirlərinin təkmilləşdirilməsi sahəsində aparılan islahatlar, Azərbaycanda vergi sisteminin müasirləşdirilməsi, qlobal iqtisadiyyata inteqrasiyası və beynəlxalq ticarətin təşviqini stimullaşdırır.

Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev vergi orqanlarının ölkə iqtisadiyyatının inkişafına və sahibkarların fəaliyyətinin asanlaşdırılmasına verdiyi töhfələrdən danışıb. O bildirib ki, bu gün ölkə iqtisadiyyatında özəl sektorun payı 80 faizdən çoxdur və bu, sahibkarların iqtisadiyyatımızın aparıcı qüvvəsinə çevrildiyini göstərir. Sahibkarların ən çox təmasda olduğu xidmətlərdən biri vergidir. Ona görə də vergi sistemində ötən 25 ildə baş verən dəyişikliklər ilk növbədə sahibkarların fəaliyyətinə müsbət təsir edib. Azərbaycan Sahibkarlar Konfederasiyası ilə Dövlət Vergi Xidməti arasında formalaşan əməkdaşlıq ölkəmizdə dövlət-özəl sektor dialoqunun ən uğurlu nümunələrindən biridir. Bu qarşılıqlı əlaqə sahibkarlığın inkişafına, vergi sisteminin təkmilləşdirilməsinə və biznes mühitinin daha əlverişli olmasına böyük töhfə verib: "Vergi sistemində tətbiq edilən rəqəmsallaşma, innovativ yanaşmalar, dövlət-özəl dialoqunda nümayiş etdirdiyi səmimi və açıq münasibət, iş adamlarının qaldırdığı məsələlərə həssas yanaşması bu müsbət imicin formalaşmasında müstəsna rol oynayır. Vergi siyasətinin liberallaşdırılması və biznesin inkişafına yaradılan şərait nəticəsində sahibkarlıq subyektlərinin sayı ilbəil artır, iqtisadi aktivlik yüksəlir. Qarabağın iqtisadi inkişafı üçün atılan addımlar, orada yerləşən xüsusi iqtisadi zonalar üçün nəzərdə tutulan vergi güzəştləri özəl investisiyalar üçün cəlbediciliyi artırır. Xüsusən də strateji sahə kimi kənd təsərrüfatı sektorunun vergidən azad olması bu sahədə sahibkarlıq subyektlərinin sayının artmasında özünü bilavasitə göstərir".

Tədbirdə Dövlət Vergi Xidmətinin əməkdaşlıq etdiyi beynəlxalq təşkilatların nümayəndələrinin - İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının baş katibinin müavini Fabrisiya Lapekorella, Avropadaxili Vergi Administrasiyaları Təşkilatının icraçı katibi Aliks Perrinyon və Vergi Məqsədləri üzrə Şəffaflıq və Məlumat Mübadiləsinə dair Qlobal Forumun Katibliyinin rəhbəri Zayda Manattanın videotəbrikləri səsləndirilib.

Forumda İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli çıxış edib. Xidmət rəisi 25 illik tarixə nəzər salaraq vergi sistemində reallaşdırılan islahatlar barədə danışıb, bu sahədə son illər əldə edilən nəticələr, "Dövlət Vergi Xidmətinin 2025-2028-ci illər üzrə Strategiyası", gələcək vergi siyasətinin istiqamətləri və s. barədə məlumat verib. Bildirilib ki, 25 illik tarixə malik vergi sistemi hazırda "kölgə iqtisadiyyatı" ilə mübarizə, iqtisadiyyatda şəffaflığın artırılması, haqlı rəqabətin qorunması, intizamlı vergi ödəyicilərinə fərqli münasibət göstərilməsi, dövlətin vergi tənzimləmə alətlərindən fəal istifadəsi, sahibkarlığın dəstəklənməsi kimi yeni yanaşmalarla fəaliyyət göstərir. 2024-cü ildə vergi daxilolmalarının həcminin 15,8 milyard manatı keçdiyi, vergi gəlirlərinin 2019-cu ilin əvvəli ilə müqayisədə 2,1 dəfədən çox artdığı, Dövlət Vergi Xidmətinin xətti ilə toplanan fiskal yığımların 22,8 milyard manat təşkil etdiyi, xidmətin bütün fiskal yığımların 77 faizindən çoxunu təmin edən orqan olduğu diqqətə çatdırılıb. Aktiv vergi ödəyicilərinin sayı isə 2019-cu illə müqayisədə 1,8 dəfə artaraq 2024-cü ildə 806,9 min təşkil edib.

Vurğulanıb ki, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının "Vergi məqsədləri üçün şəffaflıq və məlumat mübadiləsi üzrə Qlobal Forum"u ölkəmizi şəffaflıq və məlumat mübadiləsi üzrə beynəlxalq standartların tətbiqi və qiymətləndirilməsi çərçivəsində ən yüksək reytinqlə dəyərləndirib. Ölkəmizin bu reytinqə yüksəlməsi vergi sistemində aparılan islahatların beynəlxalq müstəvidə yüksək qiymətləndirildiyini bir daha təsdiqləyir.

Forumun işi sessiyalarla davam edib. Moderatoru Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov olan "Müasir vergi sistemi: strateji hədəflər və perspektivlər" mövzusuna həsr olunmuş sessiyada iqtisadiyyat nazirinin müşaviri Elvin Camalov, Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayeva və "McKinsey" şirkətinin partnyoru Simay Erdoğan çıxış ediblər.

Moderatoru "Deloitte Azerbaijan" şirkətinin vergi üzrə partnyoru Nərmin Aslanova olan "Vergi inzibatçılığında rəqəmsal transformasiya: yeni yanaşmalar və müasir trendlər" mövzusuna həsr olunmuş ikinci sessiyada Dövlət Vergi Xidmətinin rəis müavini Emil Qarayev, Azərbaycan Beynəlxalq Bankının Agile ofisinin rəhbəri Həsən Eminov, "Carlsberg" Azərbaycan şirkətinin Korporativ əlaqələr üzrə rəhbəri Lalə Əfəndi çıxış ediblər.

Moderatoru ADA Universitetinin prorektorunun müşaviri Aygün Hacıyeva olan "Yeni iqtisadi inkişaf modelində dövlət - biznes tərəfdaşlığının əhəmiyyəti" mövzusunda sessiyada isə bp-nin vergi məsələləri üzrə meneceri Ceyhun Məmmədov, Dövlət Vergi Xidmətinin baş idarə rəisi Nicat İmanov, PwC şirkətinin vergi direktoru Günel Sadiyeva çıxış ediblər.

Sessiyalarda müzakirələr aparılıb, suallar cavablandırılıb. Çıxışlarda ölkədə yaranmış yeni iqtisadi şəraitdə biznes mühitinin dəstəklənməsi, iqtisadi idarəetmənin yeni çağırışlara uyğun həyata keçirilməsi və vergi inzibatçılığının təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər müsbət qiymətləndirilib, islahatlara dair təkliflər səsləndirilib.

Forum çərçivəsində "Yaşıl enerji üzrə ən böyük investor", "İşğaldan azad olunmuş ərazilər üzrə investor", "Dövlət sektoru üzrə fəal ixracatçı", "Özəl sektor üzrə fəal ixracatçı", "Bank və sığorta sahəsi üzrə məşğulluğun inkişafına töhfə verən", "Nəqliyyat sahəsi üzrə məşğulluğun inkişafına töhfə verən", "Sənaye sahəsi üzrə məşğulluğun inkişafına töhfə verən", "Xidmət sahəsi üzrə məşğulluğun inkişafına töhfə verən", "Qeyri-neft sektoru üzrə vergi rekordçusu", "Neft sektoru üzrə vergi rekordçusu", "Regionlar üzrə vergi rekordçusu", "Kənd təsərrüfatı sahəsi üzrə məşğulluğun inkişafına töhfə verən", "Rabitə sahəsi üzrə məşğulluğun inkişafına töhfə verən", "Ticarət sahəsi üzrə məşğulluğun inkişafına töhfə verən", "Tikinti sahəsi üzrə məşğulluğun inkişafına töhfə verən", "Fəal ianəçi", "Dost" nominasiyaları üzrə fərqlənən vergi ödəyiciləri sertifikatlarla təltif olunublar.

# Azərbaycan-Çin əlaqələrinə həsr olunmuş tədbir keçirilib



Fevralın 13-də Azərbaycan Dillər Universiteti nəzdində Konfutsi İnstitutunda Çin Xalq Respublikasının Azərbaycandakı səfirliyinin təşkilatçılığı ilə Azərbaycan-Çin əlaqələrinə həsr olunmuş tədbir keçirilib.







Yeni Azərbaycan Partiyasının (YAP) gənc üzvlərinin iştirakı ilə "Çin və Azərbaycan arasında Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində dövlətlərarası və partiyalararası əlaqələr" mövzusunda keçirilən tədbiri giriş sözü ilə açan Azərbaycan Dillər Universiteti nəzdində Konfutsi İnstitutunun direktoru, professor Rafiq Abbasov bildirib ki, Çin Xalq Respublikası ilə ikitərəfli münasibətlərin inkişaf etdirilməsi Azərbaycanın xarici siyasətinin mühüm prioritetlərindən biridir. Onun sözlərinə görə, Azərbaycanla Çin arasında çoxşaxəli əməkdaşlıq əlaqələri uğurla inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

R.Abbasov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri Si Cinpin iki ölkə arasında əlaqələrin inkişafına xüsusi önəm verirlər. "Azərbaycan "Vahid Çin" prinsipini birmənalı olaraq dəstəkləyir. Eyni zamanda Çin Xalq Respublikası hər zaman Azərbaycanın ərazi bütövlüyünə qətiyyətli dəstəyini ifadə edib", - deyən R.Abbasov Çinin ölkəmizin BRICS platformasında təmsilçiliyinə və Şanxay Əməkdaşlıq Təşkilatı ilə əlaqələrinin inkişafına dəstəyinin dostluq və etibarlı strateji tərəfdaşlıq nümunəsi olduğunu söyləyib.

Tədbirdə Çinin Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili Ding Tao "Şanxay Əməkdaşlıq Təşkilatı və Çin-Azərbaycan əlaqələri" mövzusunda çıxış edib. O bildirib ki, Çin-Azərbaycan əlaqələri davamlı olaraq inkişaf edir. Ding Tao 2024-cü ilin iyul ayında iki dövlət arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamənin imzalanmasının işbirliyinin dərinləşdirilməsi baxımından önəmini qeyd edib. Diplomat ötən ilin noyabr ayında Çin Kommunist Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında Əməkdaşlıq Memorandumunun imzalandığını xatırladaraq qarşılıqlı fikir və təcrübə mübadiləsinin əhəmiyyətindən bəhs edib: "Çin Kommunist Partiyası Yeni Azərbaycan Partiyası ilə dostluq münasibətlərinə böyük dəyər verir və partiyalar arasında siyasi dialoqu gücləndirmək, müxtəlif səviyyələrdə əlaqələri sıxlaşdırmaq, xalqlarımız arasında dostluğu nəsillər boyu davam etdirmək üçün səy göstərməyə hazırdır".

Ding Tao qeyd edib ki, 2001-ci ildə yaradılmış Şanxay Əməkdaşlıq Təşkilatı ötən dövr ərzində böyük inkişaf yolu keçərək geniş təsir imkanlarına malik təşkilata çevrilib: "Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatının dialoq tərəfdaşıdır. Çin Azərbaycana bu təşkilat ilə əməkdaşlığı gücləndirməsi üçün dəstək göstərir".

YAP Gənclər Birliyinin üzvü, Milli Məclisin deputatı Səbinə Xasayeva bildirib ki, Çin ilə Azərbaycan coğrafi baxımdan bir-birindən uzaq məsafədə yerləşməsinə baxmayaraq, xalqlarımız arasında tarixən dostluq əlaqələri mövcud olub. Onun sözlərinə görə, Çin tərəfindən irəli sürülən "Bir kəmər, bir yol" layihəsi ölkələr arasında ikitərəfli münasibətlərin dərinləşməsinə yeni imkanlar yaradır: "Azərbaycan bu təşəbbüsü ilk dəstəkləyən ölkələrdən olmuş və həyata keçirdiyi irimiqyaslı nəqliyyat-infrastruktur layihələri ilə genişmiqyaslı əməkdaşlıq üçün önəmli imkanlar yaratmışdır".

S.Xasayeva qeyd edib ki, iki ölkə arasında qarşılıqlı etimada və dostluğa əsaslanan münasibətlər siyasi, iqtisadi, mədəni və digər sahələrdə hərtərəfli əməkdaşlığın əsasını təşkil edir: "Fəal siyasi dialoq nəticəsində bir çox mühüm nailiyyətlər əldə edilib. Bu gün YAP və Çin Kommunist Partiyası arasında münasibətlər də yüksələn xətt üzrə inkişaf edir".

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov isə çıxışında deyib ki, Azərbaycan və Çin arasında siyasi, iqtisadi, mədəni, təhsil və digər sahələrdə əlaqələr genişlənməyə davam edir: "Bu münasibətlərin vacib aspektlərindən biri də Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasındakı sıx əməkdaşlıqdır. Ötən illərdə partiyamızın nümayəndələri Çin Kommunist Partiyasının dəvəti ilə bu ölkəyə səfərlər edib. Bu səfərlər siyasi dialoqun dərinləşməsinə, təcrübə mübadiləsinə və yeni əməkdaşlıq sahələrinin müəyyən olunmasına şərait yaradıb. Ötən ilin noyabr ayında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılığı ilə partiyamızın nümayəndə heyətinin Çinə səfəri isə xüsusi qeyd edilməlidir. Səfər zamanı imzalanmış Əməkdaşlıq Memorandumunda əksini tapan əsas istiqamətlərdən biri də gənclər arasında əməkdaşlıqdır. Gənclər arasında əməkdaşlığa investisiya qoymaq ölkələrarası uzunmüddətli tərəfdaşlığın gücləndirilməsi baxımından böyük əhəmiyyət daşıyır".

B.İslamov Azərbaycan və Çin arasındakı münasibətlərin daha da möhkəmlənməsi üçün etibarlı zəminin mövcud olduğunu vurğulayıb: "Eyni zamanda Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasındakı əməkdaşlığın daha da güclənəcəyinə və qarşıdakı illərdə daha böyük uğurlara imza atılacağına inanırıq. Bundan əlavə, hər iki partiyanın gənc üzvlərinin gələcək layihə və təşəbbüslərdə fəal iştirak edərək əməkdaşlığımızın daha da dərinləşməsinə mühüm töhfələr verəcəyinə ümid edirik".

Tədbirdə, Çin Xalq Respublikasının Azərbaycandakı səfirliyinin üçüncü katibi Se İlin, YAP Gənclər Birliyi sədrinin müavini Fəsli Nəbiyev, Çin Xalq Respublikasının Azərbaycandakı səfirliyinin attaşesi Yan Şısue və YAP Gənclər Birliyinin üzvü Anastasiya Lavrina çıxış edərək ölkələrimiz və partiyalarımız arasında əlaqələr haqqında fikirlərini bildiriblər.

Sonda bədii hissə və Çin mədəniyyətinin nümunələri təqdim olunub.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN 14 fevral 2025-ci il

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

# Bir ildə USAID 36 milyard dolları hara və nəyə xərcləyib?

## Təşkilat ümumilikdə 700-dən artıq media orqanını, 300-ə yaxın media sahəsində çalışan QHT-ni və 6 mindən çox jurnalisti maliyyələşdirib



**Təsis olunduğu gündən humanitar fəaliyyət ilə deyil, ölkəsinin müxtəlif lobbi təşkilatlarının maraqlarının ifadəçisi kimi tanınan ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyinin - USAID-in çirkin oyunları haqqında kifayət qədər sənədlər, faktlar ortaya çıxıb və bu davam etməkdədir.**

Əslində bu təşkilatın əsl məqsədi çoxdan ifşa olunub. Məqsədi ayrı-ayrı dövlətlərin daxili işlərinə qarışmaq, bunun üçün özünə həmin ölkələrdə dayaq nöqtələri formalaşdırmaq idi. Bu qərəzli qurum müxtəlif QHT-lərə, media mənsublarına maliyyələr ayırmaqla onları asılı vəziyyətə gətirir, sonra isə öz maraqlarını onların vasitəsilə həyata keçirməyə çalışır, ölkələrin daxilindəki proseslərə bu yolla təsir göstərir.

### Ermənistan "humanitar yardımlar"dan məhrum oldu

Əlbəttə ki, ən çox qarayaxmalara məruz qalan ölkələrdən biri də Azərbaycan olub. USAID dəfələrlə Azərbaycanı irqi ayrı-seçkilikdə ittiham edib, öz rəhbərinin dili ilə böhtanla dolu, humanitar fəaliyyətin ruhuna zidd olan bəyanatlar səsləndirib, hazırda məhkəməsi gedən müharibə cinayətində təqsirləndirilənlərin azadlığa buraxılması və Ermənistanın hərbiləşdirilməsi barədə çağırışlar edib.

Bu təşkilat ABŞ-Azərbaycan münasibətlərinə ciddi zərər vurmaqla yanaşı, regionumuzda gərginlik yaratmağa çalışıb. Rəsmi Bakı isə dəfələrlə ermənipərəst təşkilatın anti-Azərbaycan mövqeyini, səsləndirdiyi bəyanatları sərt tənqid edib, ABŞ rəhbərliyinə bununla bağlı öz mesajlarını çatdırıb.

Deyə bilərik ki, ABŞ-nin Prezident Administrasiyasının USAID-in fəaliyyətini dayandırması haqqında qərarı təkcə bu təşkilatın fəaliyyət dairəsinin məhdudlaşdırılması deyil, eyni zamanda Ermənistanın uzun illərdir beynəlxalq yardımlardan sui-istifadə etməsinin nəticəsi kimi qiymətləndirilməlidir. USAID-in Ermənistana ayırdığı vəsaitlərin əsas məqsədi demokratiyanın inkişafı, iqtisadi islahatların dəstəklənməsi və insan hüquqlarının qorunması olsa da, əslində, bu pulların böyük hissəsi başqa məqsədlərə yönləndirilmişdi.

Onu da qeyd edək ki, formal olaraq müstəqil dövlət agentliyi hesab olunsa da, USAID birbaşa ABŞ prezidenti, dövlət katibi və Milli Təhlükəsizlik Şurasına tabe idi. Onun rəhbəri və müavinləri ABŞ Senatının razılığı ilə ABŞ Prezidenti tərəfindən təyin olunurdu.

### Son 9 ildə ümumilikdə USAID xətti ilə 335 milyard dollar xərclənib

Açıqlanan son məlumatlara görə, 2024-cü maliyyə ilində USAID layihələri üçün 36 milyard dollara yaxın vəsait ayrılıb. Son 9 ildə isə ümumilikdə USAID xətti ilə 335 milyard dollar xərclənib.

Dünyanın 100-dən artıq ölkəsində nümayəndəliyi və 10 mindən artıq əməkdaşı olan USAID-in məqsədi ehtiyacı olan ölkələrə humanitar yardım, iqtisadiyyat, səhiyyə, təhsil sahələrinə dəstək göstərmək olsa da, əslində onun fəaliyyəti bütün dünya üzrə QHT və medianı qanunsuz maliyyələşdirməklə ölkələrin daxili işlərinə qarışmağa, ictimai rəyə təsir imkanları qazanmağa və bu rıçaqlardan təzyiq və hətta dövlət çevrilişləri üçün istifadə etməyə, müstəqil dövlətlərdə qanuni seçilmiş hakimiyyətləri və konstitusion quruluşu devirməyə yönəlib.

ABŞ Prezidenti Donad Tramp bu təşkilatı "görünməmiş miqyasda korrupsiya"da ittiham edib, İlon Mask isə USAID-i "cinayətkar təşkilat" adlandırıb. O, açıq şəkildə bəyan edib ki, bu qurumun "ölməyinin vaxtıdır".

Bir çox terror təşkilatları və digər qurumlara "humanitar yardım" adı altında dəstək göstərən USAID dünya üzrə nüfuzlu mediaları maliyyələşdirib.

Təşkilatın yardım adı ilə ayırdığı vəsaitlərin istiqamətlərinə diqqət edək:

- "Əl-Qaidə" təşkilatı üçün 10 min porsiya "yemək alınıb";
- Əl-Qaidənin gələcək lideri Ənvər Əl-Əvlakinin kollecdə təhsili maliyyələşdirilib;
- "The New York Times"ə 2024-cü ildə 3,1 milyon dollar ayrılıb;
- "Politico"ya - 8 milyon dollar;
- "Associated Press"ə 9 milyon dollar;
- BBC-yə 2,6 milyon funt-sterlinq;
- "Reuters"ə 9 milyon dollar;
- "Frans-Press"ə 447 min dollar verilib.

- Ukraynada medianın 90 faizi USAID tərəfindən maliyyələşdirilib;

- 2024-cü ildə USAID Ukraynadakı proqramlarına 6 milyard dollardan artıq vəsait xərcləyib;
- Ümumilikdə 700-dən artıq media orqanı, 300-ə yaxın media sahəsində çalışan QHT və 6 mindən çox jurnalist maliyyələşdirilib.

Qeyd edək ki, fevralın 6-dan ABŞ hökuməti bu təşkilat vasitəsilə "The New York Times", "Politico" və "Associated Press"in maliyyələşdirilməsini dayandırıb.

Artıq üzə çıxan faktlar bir daha göstərir ki, USAID "azad mətbuat", "söz azadlığı" adı altında əslində korrupsiya mexanizmi ilə ayrılan maliyyə əsasında milli hökumətlərə təzyiq və şantaj rıçaqları, informasiya diversantları hazırlayırmış. Bu da əlbəttə ki, sabiq prezident Bayden administrasiyasının xarici siyasətinin çirkinliklərinin ifşası deməkdir.

### USAID-in Cənubi Qafqaz üzrə "sifarişli fəaliyyəti"

USAID uzunmüddətli iqtisadi və sosial inkişafa yardım göstərmək adı ilə formalaşdırılıb. Qurumun ayrı-ayrı ölkələrə müxtəlif proqramlarla əsasən kənd təsərrüfatına, ticarətə, qlobal səhiyyəyə, demokratiyanın inkişafına və humanitar məqsədlər üçün yardımlar ayırdığı iddia olunur. Əslində isə USAID yardım adı altında ayrı-ayrı ölkələrin daxili işlərinə aktiv şəkildə müdaxilə etməyə, qeyri-sabit, çevriliş və xaos üçün münbit şərait yaratmağa çalışıb.

USAID-in rəhbərliyi Ermənistana xüsusi "diqqəti" ilə seçilib. Qurumun rəhbəri Samanta Pauerin davamlı olaraq İrəvana səfərləri də bunu təsdiqləyir. Ötən ilin yayında ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyinin Ermənistana maliyyə yardımının həcmini iki dəfədən çox - 120 milyon dollardan 250 milyon dollara qədər artıracağı elan olunmuşdu. Guya bu vəsaitin "demokratik proseslər, regional əməkdaşlıq, fəlakət risklərinin idarə edilməsi, kibertəhlükəsizlik, ərzaq və enerji təhlükəsizliyi və s. kimi sahələrə yönəldiləcəyi" bildirilirdi. Qurumun rəhbərliyi torpaqlarını öz gücünə azad edən Azərbaycana qarşı əsassız ittihamlar irəli sürməkdən də çəkinməyib. Azərbaycana qarşı fəaliyyəti konkret istiqamətlər üzrə dezinformasiya, yalan və şantaj üzərində qurulub. Ölkə rəhbərliyini hədəfə almaqla, Ermənistanın işğalı və Qarabağdakı rejimin mövcudluğuna "humanitar" don geyindirməklə, QHT-lərin Laçın yolundakı aksiyasının "humanitar fəlakət" kimi təqdim etməklə, nəzarətində olan mediaları "yeganə müstəqil media" kimi göstərməklə və qanunsuz fəaliyyətə qarşı dövlət sanksiyalarını "söz azadlığı və müstəqil mətbuatın boğulması" kimi qələmə verməklə Azərbaycana dəfələrlə təzyiqlər etməyə çalışıb. Azərbaycanı "etnik təmizləmə" aparan ölkə kimi tanıtmağa çalışıb. İçğalçı rejimin legitimləşdirilməsinə cəhd edərək Azərbaycanı "diktarura və avtoritar rejim" kimi, Ermənistanı isə "demokratik ölkə" kimi təqdim etməyə çalışıb.

Ölkəmizdə keçirilən bütün seçkilərin gözdən salınması üçün "saxtalaşdırılma"ya dair əsassız ittihamlar səsləndirib. Kiçik sosial problemlərin siyasiləşdirilməsi və vətəndaş qarşıdurmasının yaradılması, iqtidar-xalq birliyinin sarsıdılması üçün təbliğat aparıb.

Azərbaycanın müstəqil siyasətini yerli və xarici mediada "digər dövlətlərdən asılılıq" kimi təqdim edib və ölkəmizin evsahibliyi etdiyi bütün beynəlxalq tədbirləri gözdən salmağa çalışıb. Buna misal üçün "Eurovizion", "Formula-1" və COP29-u göstərmək yetərlidir.

Aparılan araşdırmaların hələ hansı biabırçılıqları üzə çıxaracağını indidən demək çətin olsa da, Bayden administrasiyası və Samanta Pauerin rəhbərlik etdiyi dövrün bu təşkilatın fəaliyyət tarixində ən utancverici dövr olacağına şübhə yeri qalmır.

USAID-in bağlanması Azərbaycanda və Gürcüstanda da nikbinliklə qarşılanır. Bu da təsadüfi deyil. Çünki bu riyakar təşkilat hər iki ölkədə qarşıdurmaların baş verməsinə çalışıb, bunun üçün pullar ayırıb, dönük insanları özünə cəlb edə bilib. Cənubi Qafqazda çirkin məqsədlərini həyata keçirmək üçün bütün vasitələrə əl atıb. Fəaliyyəti dövründə USAID Azərbaycanda layihələrin maliyyələşdirilməsinə 450 milyon dollar xərcləyib. Həmin vəsaitin böyük bir hissəsi isə məhz ölkəmizdə təxribatların hazırlanmasına yönəlib.

Bir sözlə, təşkilatın bağlanması yalnız Ermənistanda məyusluq yaradıb. Ona görə də tez bir zamanda bu təsisata bağlı olan bütün qurumlara qarşı tədbirlər görülməlidir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Azərbaycan Milli QHT Forumu USAID-lə əlaqədar ABŞ Prezidentinə və DOGE rəhbərinə müraciət ünvanlayıb

Azərbaycan Milli QHT Forumu fevralın 13-də ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyi (USAID) ilə əlaqədar ABŞ Prezidenti Donald Trampa və ABŞ Dövlət İdarəetməsinin Səmərəliliyi Departamentinin (DOGE-nin) rəhbəri cənab İlon Maska müraciət ünvanlayıb.



AZƏRTAC xəbər verir ki, müraciəti Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun İdarə Heyətinin sədri Ramil İskəndərli səsləndirib.

Müraciətdə deyilir: "Azərbaycan QHT-lərinin flaqmanı olan Azərbaycan Milli QHT Forumu olaraq USAID-in qlobal məkanda cinayətkar əməllərinin təftişində və ifşasında nümayiş etdirdiyiniz qətiyyətə, güclü iradəyə görə sizlərə dərin təşəkkürümüzü bildiririk.

Təəssüflər olsun ki, ötən uzun illər ərzində ABŞ vergi ödəyicilərinin pulları USAID-in korrupsiya yeminə çevrilib, Bayden-Blinken administrasiyasının qara şəbəkəsinin formalaşdırılması üçün istifadə olunub. Azərbaycan-ABŞ münasibətlərinin itirilmiş illərinə çevrilən Bayden-Blinken dövründə Azərbaycan cəmiyyətində USAID-in ölkədən qovulması, fəaliyyətinin dayandırılması ilə əlaqədar çağırışlar, ictimai qəzəb də artan xətt üzrə güclənib. USAID qrantları Azərbaycanda da ənənəvi, milli-mənəvi dəyərlərə təhqir mahiyyəti daşımaqla, ABŞ-nin bölgədəki imicinə və strateji maraqlarına zərbə vurub.

İctimailəşdirilən faktlar göstərir ki, 1991-ci ildən USAID Azərbaycanda müxtəlif adlar altında layihələrə 410 milyon ABŞ dollarından artıq vəsait xərcləyib. Yeni faktlar hazırda aktiv olan 17 milyon dollarlıq ABŞ-nin müxtəlif qrant layihələrində Azərbaycanın da adının keçdiyini göstərir.

Ümid edirik ki, siz USAID-in Azərbaycandakı cinayətlərinə də nəzər salacaq, ayrılmış qrantların təftişinin aparılmasına göstəriş verəcəksiniz.

600-dən çox üzv QHT-yə malik təşkilat kimi, Azərbaycan ictimaiyyətinin belə bir araşdırmanın nəticələrini, qrant dəllal və dələduzlarının de-şifrəsini səbirsizliklə gözlədiyini ifadə edirik".

# Kuba XİN: "USAID həmişə ölkədə nizamı pozmaq üçün pərdə olub"

"ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyi (USAID) həmişə Kubada konstitusiya quruluşunu sarsıtmaq üçün pərdə olub".

AZƏRTAC xəbər verir ki, bunu Kubanın Xarici İşlər Nazirliyinin rəhbəri Bruno Rodriqes Parrilla teleqram kanalında deyib.

Nazirin sözlərinə görə, agentlik 1998-1999-cu illərdə yüzlərlə qeyri-qanuni əməliyyatlar aparmaq üçün 6 milyon dollardan çox istifadə edib. 2001-ci ildən 2006-cı ilə qədər USAID kubalıları hədəf alan 142 qeyri-qanuni layihə və fəaliyyətə 61 milyon dollar ayırıb.

Qeyd edək ki, ABŞ Prezidenti Donald Trampın administrasiyası fevralın 3-də USAID-in fəaliyyətini dayandırıb.



# USAID-in Balkan regionundakı "fəaliyyəti"

Yüzdən çox ölkədə qeyri-hökumət təşkilatlarına və müxtəlif layihələrə maliyyə vəsaiti ayıran ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) Qərbi Balkan nsane ölkələrində də "çoxşaxəli fəaliyyət" göstərib. Agentliyin təkcə 2020-2024-cü illərdə region ölkələrində 1,7 milyard dollar xərclədiyi bildirilir.

AZƏRTAC xəbər verir ki, USAID qeyd olunan illərdə Serbiyada 209 milyon dollar, Bosniya və Herseqovinada 402 milyon dollar, Şimali Makedoniyada 290 milyon dollar, Monteneqroda 77 milyon dollar, Albaniyada 189 milyon dollar və Kosovoda 537 milyon dollar xərcləyib.

ABŞ rəhbərliyi ötən dövrdə USAID və Demokratiya üçün Milli Fondun (NED) xətti ilə Serbiyadakı müxtəlif qeyri-hökumət təşkilatlarını maliyyələşdirib, bir çox qurumlara və layihələrə donor olub. USAID Serbiyada iş yerlərində müxtəliflik, bərabərlik və inkluzivlik proqramlarının inkişaf etdirilməsi layihələrinə isə 1,5 milyon dollar sərmayə yatırıb.

Serbiya Milli Assambleyasının sədri Ana Brnabiç deyib ki, USAID tərəfindən maliyyələşdirilən qondarma araşdırma mediası sistemli şəkildə ölkəyə böyük ziyan vurub. "İndi aydın oldu ki, müstəqil media deyə bir şey yoxdur. Həmin media orqanları və orada işləyən insanlar kifayət qədər asılı idilər. Onlar sadəcə olaraq ABŞ administrasiyasından asılı idilər. Vəziyyəti daha da pisləşdirmək üçün Amerika vətəndaşları tərəfindən seçilən ABŞ administrasiyasına deyil, dərin dövlət adlandırılan administrasiyaya bağlı idilər", - deyə Ana Brnabiç qeyd edib.

O bildirib ki, ABŞ rəsmiləri belə bir tələb irəli sürərsə, Serbiya USAID-in bu ölkədə xərclədiyi vəsaitlərin təyinatını araşdıracaq. USAID Bosniya və Herseqovinada nsan cür "layihələri" maliyyələşdirib. Bosniya və Herseqovinanın Serbska Respublikasının Prezidenti Milorad Dodik deyib ki, USAID Bosniya və Herseqovinada sabitliyi pozmağa çalışıb, media və qeyri-hökumət təşkilatlarını maliyyələşdirilməsinə 402 milyon dollar xərcləyib. O, 40 min nəfərin USAID-dən maliyyə vəsaiti alması barədə məlumatı olduğunu bildirib, serb səlahiyyətli qurumlarının agentliyin kimi və necə maliyyələşdiyini araşdıracağını vurğulayıb.

"USAID uydurma bədxassəli təsirlə mübarizə adı altında ABŞ-nin hazırkı Prezidenti Donald Trampa qarşı mübarizəni maliyyələşdirmək üçün Amerika xalqının pulundan istifadə edib. Onlar özlərini sülh və nsane haqları uğrunda döyüşçü kimi təqdim etsələr də, əslində amerikalı vergi ödəyicilərinin pullarını soyurdular və mədəniyyətimizi, inancımızı və ənənəmizi alçaltmağa cəhd edən təbliğata sərmayə qoyurdular", - deyə Milorad Dodik əlavə edib.

Slovakiyanın Baş naziri Robert Fitso isə bəyan edib ki, hökumət ABŞ-dan USAID-in bu ölkədə qeyri-hökumət təşkilatlarına və media orqanlarına ayırdığı qrantlar barədə məlumat almaq istəyir. "Danılmazdır ki, USAID-in vəsaitləri Slovakiyada siyasi məqsədlər - siyasi sistemi pozmaq və müəyyən siyasi partiyalara üstünlük vermək üçün istifadə edilib", - Robert Fiko bildirib.

Xatırladaq ki, ABŞ Prezidenti Donald Tramp yanvarın 20-də USAID-in maliyyələşdirilməsini dayandırıb. 1961-ci ildə yaradılan USAID ABŞ hökumətinin əsas beynəlxalq humanitar və inkişaf "qolu" rolunu oynayıb. Agentlik 120-dək ölkədə humanitar, səhiyyə və digər proqramlara nəzarət edib. Agentlik təkcə 2023-cü ildə ümumi ayırmalarla 40 milyard dollardan çox vəsaiti idarə edib. USAID-də 10 mindən çox işçi çalışıb ki, onların da üçdə ikisi xaricdədir.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Ruben Vardanyanın təqsirləndirildiyi cinayət işinin məhkəmə baxışı davam etdirilib

Fevralın 13-də Ermənistan vətəndaşı olan, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin işgəncə, muzdluluq, müharibə qanunlarını və adətlərini pozma, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə və digər maddələri ilə təqsirləndirilən Ruben Vardanyanın barəsində olan cinayət işi üzrə məhkəmə prosesinin baxış iclası davam etdirilib.



AZƏRTAC xəbər verir ki, Bakı Məhkəmə Kompleksində yerləşən Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün vəkillər ilə təmin olunub.

Məhkəmə iclasında zərərçəkmiş şəxslər, onların hüquqi varisləri və nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar, habelə Azərbaycan dövləti adından zərərçəkmişin nümayəndəsi qismində Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədov iştirak ediblər.

İclasın əvvəlində Ruben Vardanyan və onun hüquqlarını müdafiə edən vəkil Avraam Berman konfidensial görüş üçün şərait yaradılmasını məhkəmədən xahiş edib.

Məhkəmə vəsatəti təmin edib və konfidensial görüş üçün fasilə elan olunub.

Fasilədən sonra Ruben Vardanyan ona dövlət tərəfindən təyin olunan müdafiəçi Azər Məhərrəmovdan imtina etdiyini və hüquqlarının müdafiəsinin müqavilə üzrə vəkili Avraam Berman tərəfindən davam etdiriləcəyini bildirib.

İttiham tərəfi və zərərçəkmiş şəxsin nümayəndəsi vəsatətə etiraz etməyib.

Məhkəmə yerində müşavirə edərək vəsatəti təmin edib.

Sonra iclas dövlət ittihamını müdafiə edən prokurorlar tərəfindən ittiham aktının nəticəvi hissəsinin elan olunması ilə davam edib.

Budəfəki məhkəmə iclasında ittiham aktının Ermənistan dövlətinin onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində Azərbaycan Ordusunun müdafiə arsenalına, Azərbaycan Respublikasının ekologiyasına və təbiətə vurulmuş ziyan, Azərbaycanın işğal altında olan suveren ərazilərinin minalanmasına dair epizodlar, Ruben Vardanyana irəli sürülmüş konkret ittihamlar, habelə öldürülmüş və öldürülməsinə cəhd olunmuş mülki





şəxs və hərbi qulluqçuların sayı elan edilib. Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimli Ermənistan tərəfindən aparılan təcavüzkar müharibənin gedişində iştirak edən cinayətkar təşkilat tərəfindən Azərbaycan Ordusunun müdafiə arsenalına, Azərbaycanın ekologiyasına və təbiətə vurulmuş ziyanı, habelə öldürülmüş və öldürülməsinə cəhd göstərilmiş mülki şəxs və hərbi qulluqçuların sayını elan edib.

Bildirilib ki, 1980-ci illərin sonlarından 2023-cü il sentyabrın 20-dək Azərbaycanın işğal olunmuş ərazilərində ağacları, kolları və digər yaşıllıqları məhv etməklə, su mənbələrini, su hövzələrini və su anbarlarını çirkləndirməklə, eləcə də kənd təsərrüfatı təyinatlı torpaqları dağıtmaqla Azərbaycan Respublikasının ekologiyasına və təbiətə ümumilikdə 13,4 milyard manatdan artıq məbləğdə maddi ziyan vurulub.

1988-2024-cü illər ərzində ümumilikdə 3053 nəfəri mülki, 15 min 298 nəfəri hərbi qulluqçu, 17 min 607 nəfəri kişi, 744 nəfəri qadın, onlardan 401 nəfəri uşaq olmaqla, cəmi 18 min 351 şəxs qəsdən öldürülüb, ümumilikdə 3710 nəfəri mülki, 51 min 467 nəfəri hərbi qulluqçu, 54 min 103 nəfəri kişi, 1074 nəfəri qadın, onlardan 457 nəfəri uşaq olmaqla, cəmi 55 min 177 şəxsə müxtəlif dərəcəli bədən xəsarətləri yetirilib.

Azərbaycan Respublikasına qarşı aparılmış təcavüzkar müharibə dövründə Azərbaycan Ordusunun müdafiə arsenalına 908 milyon manatdan artıq məbləğdə qəsdən maddi ziyan vurulmaqla hərbi əmlakları məhv edilib, yararsız hala salınıb və ələ keçirilib.

Daha sonra Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramov təqsirləndirilən şəxs Ruben Vardanyana irəli sürülmüş konkret ittihamları elan edib.

O cümlədən bildirilib ki, ittiham aktına əsasən Ruben Vardanyan 2022-ci ilin sentyabrında Azərbaycan Respublikasının dövlət sərhədini dövlətin nəzarət-buraxılış məntəqələrindən kənar Ermənistan Respublikasının ərazisindən Laçın rayonu istiqamətində qanunsuz keçərək Azərbaycan ərazisinə daxil olub, Azərbaycanın Qarabağ iqtisadi rayonunda Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazidə məskunlaşıb.



O, özünə və müxtəlif xarici ölkələrin vətəndaşlarına aid pul vəsaitlərini həmtəsisçisi olduğu "humanitar məqsədli" pərdəsi altında fəaliyyət göstərən "Avrora" fondu, "Biz - dağlarımızıq" təşkilatı və sair yardım aksiyaları adı altında toplayaraq həmin vəsaitlər hesabına Azərbaycan qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları maddi cəhətdən təmin, əsgəri ləvazimatla təchiz edib, hərbi silah və texnikanı qanunsuz əldə edərək Azərbaycana qanunsuz gətirməklə əvvəlcədən xüsusi təşkil etdiyi hərbi anbarlarda saxlayıb.

Bundan başqa Azərbaycan qanunvericiliyi ilə nəzərdə tutulmayan "yerli özünümüdafiə dəstələri" adlandırdığı, habelə əsasən peşəkar hərbçilərdən ibarət digər silahlı dəstə və qrupların üzvlərinə aylıq muzd ayıraraq verib. Həmçinin "VoMa" adlı terror təşkilatının yaradıcısı Vartanov Vladimir (Vova) Levanoviçlə sövdələşərək həmin təşkilatın təlimatçıları tərəfindən Azərbaycan vətəndaşlarına qarşı terrorçuluq əməllərinin törədilməsi məqsədilə təlimlərin keçirilməsinin təşkil edilməsi üçün pul vəsaitlərini verib.

Habelə Azərbaycanın işğal altında olan suveren ərazilərində mülki və hərbi obyektlərə qarşı istifadə edilməsi üçün idarəolunan zenit raketlərinin və komplekslərinin, hədəflərin aşkarlanması stansiyalarının, akkumulyator və radioötürücü blokların, digər qurğuların kütləvi istehsalının qurulması, bununla əlaqədar birgə müəssisənin yaradılması məqsədilə Rusiya Federasiyası ərazisində fəaliyyət göstərən "AKVA" şirkətinin məsul şəxsləri ilə danışıqlar aparmaqla sövdələşib. Həmçinin Azərbaycanın işğal edilmiş ərazilərində qanunsuz silahlı birləşmələr tərəfindən istifadəsi nəzərdə tutulan helikopter tipli pilotsuz uçuş aparatlarının (PUA) alınması və onları istehsal edəcək zavodun inşa edilməsinə, habelə radioelektron mübarizə sisteminin alınaraq qanunsuz silahlı birləşmələrə çatdırılmasına dair danışıqlar apararaq müvafiq tapşırıqlar verib.

Eyni zamanda Ruben Vardanyan şəxsən tərtib etdiyi fəaliyyət planında Azərbaycanın xarici ölkələrdə olan diplomatik korpusunun nümayəndələri, xidməti vəzifələrini və ictimai borcunu yerinə yetirən vətəndaşlarına qarşı terrorçuluq törədilməsi üçün "Nemezis-2" terror əməliyyatının başlanılması təşəbbüsünü irəli sürüb.

İttihamın elan olunmasını davam etdirən Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev, həmçinin dövlət ittihamçıları Fuad Musayev, Vüsal Abdullayev və Təranə Məmmədova Ermənistan dövləti tərəfindən işğal edilmiş Azərbaycanın suveren ərazilərinin minalanması və bu yolla hərbi təcavüzün davam etdirilməsi faktlarını səsləndirib. Xüsusilə vurğulanıb ki, işğal olunmuş ərazilərdə basdırılan minaların bir hissəsi Ermənistanda istehsal olunub.

İttiham aktının həcminin böyük olması nəzərə alınaraq, elan edilməsinin növbəti prosesdə davam etdiriləcəyi bildirilib.

Məhkəmənin növbəti iclası fevralın 17-nə təyin olunub.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, aparma), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə) əməllərinin törədilməsində təqsirləndirilib.

Həmçinin o, həmin Məcəllənin 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma), 318-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) və digər maddələrində nəzərdə tutulan əməllərin törədilməsində ittiham olunur.

## Azərbaycan Ermənistana qarşı arbitraj işi üzrə iddia sənədini Daimi Arbitraj Məhkəməsinə təqdim edib

Fevralın 12-də Azərbaycan tərəfi Haaqa şəhərində yerləşən Daimi Arbitraj Məhkəməsinin mənzil-qərargahında 1979-cu il tarixli "Avropanın canlı təbiətinin və təbii mühitinin qorunması haqqında" Konvensiya ("Bern Konvensiyası") əsasında Ermənistana qarşı arbitraj işi üzrə iddia sənədini təqdim edib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, iddia sənədində Ermənistanın "Bern Konvensiyası"na dair hüquqi öhdəliklərinin çoxsaylı pozuntuları ətraflı şəkildə öz əksini tapıb. Azərbaycan öz ərazilərini azad etməklə Ermənistanın ətraf mühiti məhv etməsinə və dünyanın ən zəngin biomüxtəliflik ocaqlarından birində yaşayış mühiti və növlərini qoruya bilmədiyinə dair dəhşətli sübutlar aşkar edib. Ermənistanın hərəkətlərinin bölgədəki canlı təbiətə və növlərinə dönməz şəkildə ciddi ziyan vurduğu müəyyənləşdirilib.

Qeyd edək ki, 2023-cü il yanvarın 18-də Azərbaycan sözügedən dəlillərə əsaslanaraq arbitraj prosesinin başlanması üçün Ermənistana arbitraj bildirişi göndərib. 2023-cü il sentyabrın 15-də arbitraj məhkəməsinin tərkibi təsdiqlənərək, 2024-cü il aprelin 12-də Haaqadakı Sülh Sarayında Azərbaycan ilə Ermənistan arasında ilk prosedur iclası keçirilib. Azərbaycanın Ermənistana qarşı məhkəmə iddiası Bern Konvensiyası əsasında indiyədək məlum olan ilk dövlətlərarası arbitraj prosesidir.

Azərbaycan Ermənistan tərəfindən yaşayış yerlərinin və canlı təbiətin kütləvi şəkildə məhv edilməsinə görə bu ölkədən tam təzminat tələb edir. Buraya Azərbaycan ərazilərinin bir hissəsinin Ermənistan tərəfindən işğalı zamanı əraziyə aid olan yüzlərlə vəhşi təbiət növünə və yaşayış yerlərinə mənfi təsir göstərən addımlar, o cümlədən meşələrin genişmiqyaslı qırılması, ekoloji cəhətdən səmərəsiz şəkildə ağacların kəsilməsi, mədənçilik və su-elektrik stansiyalarının tikintisi daxildir.

Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP) yaşı 2000-dən çox olan qədim ağacların olduğu Azərbaycanda minlərlə hektar xüsusi mühafizə olunan və qiymətli meşənin zərər gördüyünü bildirib. Bu qoruqlardan bəziləri Bəsitçay vadisindəki Şərq çinarı meşəsi kimi nadir və kövrək ekosistemləri qorumaq üçün yaradılmışdı. UNEP hesabatında Oxçuçayda yüzlərlə balığın ölü tapıldığını əlavə edərək, əvvəllər işğal olunmuş ərazilərdə mədənçiliyin "suyun, torpağın və biomüxtəlifliyin kimyəvi çirklənməsinə" səbəb olduğunu sənədləşdirib. İşğal zamanı Ermənistan tərəfindən törədilən hərəkətlər hələ də bir neçə qorunan balıq və amfibiya növünü təhdid edir.

Azərbaycan ədalətin təmini istiqamətində fəaliyyətini davam etdirəcək və Ermənistanın qanunsuz işğalı zamanı ətraf mühitin, heyvan növlərinin və yaşayış yerlərinin məhvi və qorunmaması ilə bağlı bu ölkəni beynəlxalq məsuliyyətə cəlb edəcək.

## Ermənilərin Təpəbaşı məscidində içki istehlak etməsinə beynəlxalq təşkilatlar münasibət bildirməlidir

"İrəvan şəhərinin Təpəbaşı məhəlləsində yerləşən Təpəbaşı məscidi Qərbi azərbaycanlıların oradakı izlərini daşıyan mühüm abidələrdən biridir. Təəssüf ki, ermənilər bu abidəni dağıdıb, xarabalığa çeviriblər. Məscidin salamat qalan bir hissəsində də xoşagəlməz, təhqiramiz hərəkətlərə yol verilir. Bu isə cinayətdir".



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri, Qərbi Azərbaycan İcmasının Ziyalılar Şurasının üzvü Əfqan Vəliyev bildirib.

Onun sözlərinə görə, ermənilərin Təpəbaşı məscidində içki istehlak etməsinə beynəlxalq təşkilatlar münasibət bildirməlidir. Həmçinin Ermənistan hökumətinin çirkin əməllərinə qarşı mübarizə aparılması, bunlara son qoyulmasının tələb edilməsi təkcə Azərbaycanın deyil, həm də dünya ictimaiyyətinin, o cümlədən islam aləminin mühüm işlərindən biri olmalıdır. "Bu, təkcə Azərbaycanın maddi-mənəvi irsinə deyil, eyni zamanda, islam mənəviyyatına böyük təhqirdir. Buna beynəlxalq təşkilatlar, xüsusilə UNESCO göz yummamalıdır. Bu qurumlar Ermənistanı bu çirkin əməllərindən döndərmək üçün təşəbbüs göstərməlidir. Çünki bu hərəkət göstərir ki, ermənilər hələ də azərbaycanlılara qarşı kin, nifrət bəsləyirlər. Onların bu məkrli hərəkəti isə Azərbaycan cəmiyyətində hiddət doğurmaqdadır. Ermənistan dövləti bu abidələrin qorunmasını təşkil etməlidir. Bu, beynəlxalq hüququn və qanunların tələbidir. Ermənistanın buna əməl etməsi isə ən doğru addım olardı. Çünki azərbaycanlılar qədim dövrdən orada yaşayıblar".

Ə.Vəliyev vurğulayıb ki, ermənilər Qərbi Azərbaycanda 300-dən çox məscidi və 600-dən artıq qəbiristanlığı məhv edib, yer üzündən silməyə çalışıblar. Məqsədləri isə tarixi Azərbaycan torpağı olan Qərbi Azərbaycandan azərbaycanlıların izini silmək, oranı tarixi erməni torpağı kimi göstərməkdir. "Qərbi Azərbaycanda ermənilər məscid və qəbiristanlıqlarla yanaşı, azərbaycanlıların dini inanc yerləri olan pir və ocaqları da məhv edib dağıdıblar. Onlara qarşı təhqiramiz hərəkətlər ediblər. Eyni zamanda sərdabələr, türbələr dağıdılıb, yerlə-yeksan olunub. Bu hallar islam mədəniyyətinə qarşı hörmətsizlik, təhqiramiz hərəkət kimi qiymətləndirilməlidir", - deyə o bildirib.

"Qəbirüstü abidələr və kitabələr tarixi dəyərə malikdir. Bunların dağıdılması isə cinayət əməlidir. Düşünürəm ki, Ermənistan Azərbaycanla sülh şəraitində yaşamaq istəyirsə, azərbaycanlıların tarixi irsinə, maddi-mədəni abidələrinə hörmət göstərməlidir, onları qoruyub saxlamalıdır. Ermənilər bilməlidirlər ki, Qərbi Azərbaycan azərbaycanlıların tarixi torpağıdır. Azərbaycanlılar tarix boyu həmin ərazilərdə yaşayıblar və yenə də oraya qayıdıb yaşamağa davam edəcəklər", - deyə o bildirib.

*Laşa DARSALİYA:*

## "Azərbaycan-Gürcüstan strateji tərəfdaşlığı nümunədir"



Gürcüstan ilə Azərbaycan arasında əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Biz bu strateji tərəfdaşlığın bəhrəsini sözdə deyil, əməli fəaliyyətdə də görürük.

AZƏRTAC xəbər verir ki, bu sözləri Gürcüstan xarici işlər nazirinin birinci müavini Laşa Darsaliya Milli Məclisin Tbilisidə səfərdə olan nümayəndə heyətinin üzvləri ilə görüşdə söyləyib.

O qeyd edib ki, iki ölkə arasında münasibətlər, strateji tərəfdaşlıq dünyada nümunədir.

Nazir müavini bildirib ki, keçən ilə ölkələrimiz arasında əməkdaşlıq çox məhsuldar olub. Bir sıra sahələrdə çox böyük uğurlar əldə etmişik. Biz çalışacağıq ki, bu əməkdaşlıq daha da genişlənsin və möhkəmlənsin.

L.Darsaliya keçən il Bakıda keçirilən iki ölkə arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın 10-cu iclasının əhəmiyyətini xüsusi qeyd edib. Onun sözlərinə görə, iki ölkənin qanunverici orqanları arasında əməkdaşlıq əlaqələri də yüksələn xətt üzrə inkişaf edir. Azərbaycan parlament nümayəndə heyətinin səfəri bunun əyani sübutudur.

Azərbaycanın parlament nümayəndə heyətinin rəhbəri, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiyaya qarşı mübarizə komitəsinin sədri Arzu Nağıyev bildirib ki, Azərbaycan dövləti və parlamenti Gürcüstan ilə strateji tərəfdaşlığın daha da inkişafına və möhkəmləndirilməsinə böyük önəm verir.

A.Nağıyev bildirib ki, Milli Məclisin üç komitə sədrinin Gürcüstana bu səfəri deyilənlərin sübutudur.

Görüşdə regionda gedən proseslər, mövcud çağırışlar, təhlükəsizlik və sabitliyin qorunması məsələləri diqqət mərkəzində olub.

14 Fevral Azərbaycan Hərbi Hava Qüvvələri Günüdür

# Məğlubedilməz şahinlərimiz

**Bu gün Azərbaycan Hərbi Hava Qüvvələrinin yaranması günüdür. Azərbaycan Hərbi Hava Qüvvələri Silahlı Qüvvələrimizin xüsusi qoşun növüdür.**



Yaranma tarixi 1919-cu ildən götürülsə də, milli hərbi qurum kimi formalaşdırılması ötən əsrin 90-cı illərinə təsadüf edir. 1992-ci il fevralın 14-də Milli Ordunun Hərbi Hava Qüvvələri (HHQ) ayrıca bölmə kimi təsis olunub və həmin vaxtdan bu tarix Hərbi Hava Qüvvələri Günü kimi qeyd edilir.

1994-cü ildə atəşkəs müqaviləsi imzalandıqdan sonra Azərbaycanda başlanan hərbi islahatlar prosesinin özəyini məhz HHQ və Hava Hücumundan Müdafiə Qoşunları təşkil edib. 1997-ci ildə Azərbaycanın Ali Hərbi Təyyarəçilik Məktəbi ilk milli hərbi təyyarəçilərimizin buraxılışına başlayıb.

Bu gün ən müasir təyyarə və helikopterlərlə arsenalını zənginləşdirən Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunları Azərbaycan səmasını tam gücü ilə qorumağa qadirdir.

2016-cı il Aprel döyüşlərində Hərbi Hava Qüvvələri düşmənə uğurlu zərbələr endirib. Döyüşdə "Mi-24" helikopterinin üç pilotu - Təbriz Musazadə, Əbu Bəkir İsmayılov və Urfan Vəlizadə qəhrəmancasına şəhid olublar.

Hava şahinlərimizin İkinci Qarabağ müharibəsində Qələbənin qazanılmasında böyük rolları olub. HHQ-nin hərbi qulluqçuları qəhrəmanlıq və şücaət nümunələri göstəriblər. Vətən müharibəsində HHQ tərəfindən düşmənin hava hücumundan müdafiə sistemini məhv etmək üçün "Qarabağ mücrüsü" adlı xüsusi əməliyyat planı hazırlanıb. Bu, hərbçilərimizin düşmənin fikrini yayındırmaq üçün müxtəlif variantları idi.

Düşmənin bütün növ zenit-raket komplekslərini işə salmağa vadar etmək üçün mövcud aviasiya vasitələri havaya qalxıb kütləvi aviasiya zərbəsi imitasiyası etdi. Həmin imitasiya vasitələri düşmənin zenit-raket komplekslərinin məhvetmə zonasına daxil olmadan müxtəlif manevrlər həyata keçirdi. İkinci tədbir kimi düşmənin fəndi başa düşməməsi üçün Dövlət Sərhəd Xidmətinə məxsus, göyərtəsində pilot olmayan, "kukruznik" kimi tanınan "AN-2" təyyarələri düşmənin zenit-raket komplekslərinin məhvetmə zonasına yönləndirildi. Plan uğurla icra olundu və Vətən müharibəsinin ilk günlərində Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının birgə fəaliyyəti nəticəsində düşmənin hava hücumundan müdafiə sistemlərinin 70 faizi sıradan çıxarıldı. "Bayraktar", "Harop", "Sky Striker" zərbə dronları düşmən hədəflərini anında məhv etdilər.

İkinci Qarabağ müharibəsində bir neçə pilotumuz Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb. Onlardan iki nəfərinə bu ad ölümündən sonra verilib. Həmin müharibədə Dövlət Sərhəd Xidmətinin pilotlarından da iki nəfər şəhidlik zirvəsinə ucalıb.

Bu gün dövlətin diqqət və qayğısı sayəsində şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı yüksəldilir, aviabazaların maddi-texniki təminatı gücləndirilir, uçuş və texniki heyətin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində mühüm işlər görülür. HHQ Ali Baş Komandanın istənilən döyüş əmrini yerinə yetirməyə hər an hazırdır.

***"Azərbaycan"***

## Polşada Azərbaycanın Milli Qəhrəmanı Hökümə Əliyeva adına təqaüd proqramı təsis olunub





Polşada Tələbə Xanımlar Birliyinin təşəbbüsü və Polşa Azərbaycanlıları Şurasının dəstəyi ilə Milli Qəhrəman Hökümə Əliyeva adına təqaüd proqramı təsis edilib. Bu təşəbbüs Polşada ali təhsil alan azərbaycanlı qadınların akademik və sosial inkişafını dəstəkləməyi hədəfləyir.

AZƏRTAC xəbər verir ki, Milli Qəhrəman Hökümə Əliyevanın adını daşıyan bu təqaüd proqramı bir neçə əsas məqsədə xidmət edir:

- Azərbaycanın Milli Qəhrəmanı Hökümə Əliyevanın xatirəsini əbədiləşdirmək və onun qəhrəmanlıq nümunəsini gənc nəsillərə tanıtmaq;

- Polşada təhsil alan azərbaycanlı xanım tələbələri akademik və şəxsi inkişaf baxımından təşviq etmək;

- Gənc nəslin milli dəyərlərə bağlılığını artırmaq və onların cəmiyyətə aktiv töhfə verməsini dəstəkləmək.

Bildirilib ki, Polşada ali təhsil alan, minimum bir semestri uğurla başa vurmuş və yüksək akademik göstəricilərə malik tələbələr, eləcə də cəmiyyətə aktiv töhfə verən və müxtəlif ictimai layihələrdə iştirak etmiş şəxslər müraciət edə bilərlər.

Təqaüdə müraciət etmək istəyən tələbələr onlayn müraciət formasını dolduraraq təqdim etməlidirlər. Müraciətlər akademik nailiyyətlər, şəxsi motivasiya və ictimai fəallıq kimi meyarlar əsasında qiymətləndiriləcək.

Bu təqaüd proqramı Polşada yaşayan azərbaycanlı tələbə qızların fərdi inkişafına və onların cəmiyyətə daha böyük töhfə verməsinə dəstək olmaq məqsədini daşıyır.

## ADA məktəbliləri üçün Ədliyyə Nazirliyində infotur təşkil edilib



Ədliyyə Nazirliyi və ADA məktəbi arasında əməkdaşlıq çərçivəsində 10-cu sinif şagirdləri üçün infotur təşkil olunub. Bu barədə AZƏRTAC-a nazirliyin Mətbuat xidmətindən məlumat verilib.

Tədbir zamanı şagirdlər nazirliyin fəaliyyət istiqamətləri barədə ətraflı məlumat əldə ediblər. İnteraktiv formatda keçirilən təqdimat zamanı hüquq sahəsinə maraq göstərən şagirdlərin sualları cavablandırılıb, onlara gələcəkdə hüquqşünas kimi fəaliyyət göstərmək imkanları barədə geniş məlumat verilib.

Daha sonra məktəblilər "Ədliyyə tarixi" muzeyinə baş çəkərək Azərbaycan ədliyyəsinin tarixi barədə eksponatlarla tanış olublar.

Bu kimi infoturlar gənclərin hüquq sahəsinə marağını artırmaq, onların peşə seçiminə dəstək vermək və hüquqşünaslıq sahəsində gələcək kadrların yetişməsinə töhfə vermək baxımından mühüm əhəmiyyət kəsb edir.

*Amerikalı ekspert:*

## "Birləşmiş Ştatlar üçün Azərbaycanla əməkdaşlıq baxımından böyük fürsət var"

"Birləşmiş Ştatlar üçün Azərbaycanla əməkdaşlıq baxımından böyük bir fürsət var".



Bu sözləri AZƏRTAC-a açıqlamasında Vaşinqtonda yerləşən "Hudson" İnstitutunun aparıcı eksperti Mayk Doran deyib. O bildirib ki, hazırda ABŞ fərqli dönüş nöqtəsindədir.

"Ona görə də ümid edirəm ki, Tramp administrasiyası bu fürsəti görür. Bu fürsəti görəcəyinə dair çoxlu əlamətlər sezirəm", - deyə ekspert əlavə edib.

## "Əmək bazarı" işçi qrupunun növbəti iclası keçirilib



Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərlik etdiyi "Əmək bazarı" işçi qrupunun növbəti iclası keçirilib. Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, iclasda işçi qrupunun rəhbəri, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov, Komissiyanın Katibliyinin rəhbəri, Prezident Administrasiyasının sektor müdiri Vüsal Şıxəliyev, işçi qrupunda təmsil olunan hökumət və qeyri-hökumət qurumlarının nümayəndələri iştirak ediblər.

İşçi qrupunun 2024-cü il üçün Fəaliyyət Planının icrası, habelə Dünya Bankı Qrupunun "Business Ready" hesabatının "İşçi qüvvəsi" indikatoru ilə bağlı 2024-cü il üzrə Yol Xəritəsi üzrə görülmüş işlərə dair təqdimatlar edilib.

Görüşdə həmçinin əmək bazarının inkişaf etdirilməsi, əmək qanunvericiliyinin təkmilləşdirilməsi, aktiv əmək bazarı proqramlarının genişləndirilməsi və işçi qüvvəsinin bacarıqlarının artırılması istiqamətlərində atılan addımlar qeyd olunub.

Hesabatın müvafiq alt-indikatoru üzrə aparılan diaqnostikanın ilkin nəticələrindən və 2025-ci ildə qarşıda duran prioritetlərdən bəhs olunub.

"Əmək bazarı" işçi qrupunun 2025-ci il üçün Fəaliyyət Planının və 2025-ci il üçün "Business Ready" hesabatının "İşçi qüvvəsi" indikatoru üzrə Yol Xəritəsinin layihələri müzakirə edilib.

## Bu səfər ADA və Luiss universitetləri arasında qurulmuş uğurlu əməkdaşlığın davamıdır



İtaliyanın "Luiss Guido Carli" Universitetinin nümayəndə heyəti İtaliya-Azərbaycan Universiteti təşəbbüsü çərçivəsində əməkdaşlığı möhkəmləndirmək üçün ölkəmizə səfər edib.

AZƏRTAC xəbər verir ki, ADA Universitetində müzakirələr aparan heyət təhsil proqramlarının genişləndirilməsi, tələbələr üçün yeni imkanların araşdırılması və institusional əlaqələrin dərinləşdirilməsi məsələlərinə toxunublar.

Görüşlər hər iki universitetin akademik və idarəetmə komandasının üzvlərinin, İtaliya-Azərbaycan Universiteti təşəbbüsünü həyata keçirən ekspertlərin iştirakı ilə baş tutub.

Görüşlərdə ADA Universitetinin Hüquq fakültəsi ilə birgə həyata keçiriləcək "3+2" hüquq proqramının təqdim edilməsi ilə bağlı ilkin müzakirələr aparılıb. Proqram çərçivəsində tələbələr üç il Bakıda, iki il isə Romada təhsil alacaq və beynəlxalq perspektivə əsaslanan hüquq təhsili əldə edəcəklər. Beşillik təhsil müddətinin sonunda məzunlar hər iki universitetin təhsilinə yiyələnəcəklər.

Bundan əlavə, beynəlxalq münasibətlər üzrə ikili diplom proqramının da irəli sürülməsi müzakirə olunub. Bu proqram ADA Universitetinin Diplomatiya və Beynəlxalq Münasibətlər üzrə magistr proqramının və Luiss Universitetinin Beynəlxalq münasibətlər ixtisasının birləşməsindən yaranacaq. Yüksək akademik göstəricilərə malik tələbələr üçün nəzərdə tutulan bu seçim əsaslı proqram onların diplomatiya və beynəlxalq tədqiqatlar sahəsində biliklərini dərinləşdirəcək və qlobal karyera imkanlarını artıracaq.

Akademik müzakirələrdən əlavə, Luiss nümayəndə heyəti Azərbaycanın hökumət rəsmiləri ilə görüşlər keçirəcək. Görüşlərin əsas mövzularından biri "Made in Azerbaijan" brendinq təşəbbüsü çərçivəsində əməkdaşlığın genişləndirilməsi olacaq. Bu müzakirələr təhsil vasitəsilə iqtisadi və biznes əlaqələrinin möhkəmləndirilməsinə yönəlib.

Bu səfər ADA və Luiss universitetləri arasında qurulmuş uğurlu əməkdaşlığın davamıdır. Belə ki, hər iki universitetin birgə təqdim etdiyi magistr proqramına artıq iki tələbə qrupu qəbul edilib. Gələcəkdə əməkdaşlığı daha da inkişaf etdirmək üçün tərəflər müxtəlif sahələrdə fəaliyyət göstərən mütəxəssislərin peşəkar bacarıqlarını artıracaq ixtisasartırma proqramları təklif etməyi planlaşdırırlar.

Qeyd edək ki, bu tərəfdaşlıq iki ölkə arasında akademik və strateji əlaqələrin daha da güclənməsinə töhfə vermək məqsədi daşıyır.

## Ölkəmizdə biznes sahəsində aparılan islahatlar diqqətə çatdırılıb

İxracın və İnvestisiyaların Təşviqi Agentliyində - AZPROMO-da ADA Universiteti və İtaliyanın Luiss Universitetinin nümayəndələri ilə görüş keçirilib.

AZPROMO-dan AZƏRTAC-a bildirilib ki, görüşdə tərəflər arasında "Made in Azerbaijan" brendinin inkişafı və təhsil sahəsində strateji tərəfdaşlıq imkanları müzakirə olunub.

Görüş zamanı AZPROMO-nun icraçı direktoru Yusif Abdullayev agentliyin əsas fəaliyyət istiqamətləri, reallaşdırdığı təşəbbüslər, eləcə də "Made in Azerbaijan" brendinin beynəlxalq bazarlarda tanıdılması istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verib. Bununla yanaşı, ölkədə investorlar üçün yaradılmış əlverişli biznes mühiti və bu sahədə aparılan islahatlar diqqətə çatdırılıb.

Luiss Universitetinin nümayəndələri ali təhsil müəssisəsinin İtaliyanın biznes sektoruna bağlılığı, ixrac və investisiya sahəsindəki təcrübələri barədə danışıblar. Görüşdə Luiss Universiteti ilə AZPROMO arasında potensial tərəfdaşlıq sahələrindən də bəhs edilib. Bu müstəvidə agentlik tərəfindən həyata keçirilən "İxrac Akademiyası" layihəsinin inkişaf etdirilməsi, azərbaycanlı sahibkarlar üçün xüsusi təlim proqramlarının hazırlanması və İtaliya ilə Azərbaycan arasında işgüzar forumların təşkili məsələləri nəzərdən keçirilib.

Görüşün sonunda tərəflər biznes və akademik sahədə əlaqələrin daha da genişləndirilməsi üçün praktiki addımlar atmağa razılaşıblar.

## Samuxda "Konstitusiya və Suverenlik ili" çərçivəsində tədbir olmuşdur

Rayon icra hakimiyyətinin və Ombudsmanın Qərb Regional Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən tədbiri giriş sözü ilə Samux RİH başçısının müavini Kəmalə Xəlilova açmışdır.



Bildirilmişdir ki, 2025-ci il Prezident İlham Əliyevin sərəncamı ilə ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilmişdir. Bu il 1995-ci il noyabrın 12-də qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul edilməsinin 30 illiyi və 2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi Zəfərin 5-ci ildönümüdür. Məhz bu baxımdan "Konstitusiya və Suverenlik İli"nin dövlətçilik tariximizin daha dərindən öyrənilməsində xüsusi əhəmiyyəti var. Dövlət başçısı tərəfindən imzalanan sərəncam ölkəmizin keçmişi, bu günü və gələcəyi üçün xüsusi məna ifadə edərək, hüquqi dövlətçilik və suverenlik dəyərlərinin yeni qlobal çağırışlar əsasında formalaşdırılması üçün yeni imkanlar yaratmışdır.

Ombudsmanın Qərb Regional Mərkəzinin rəhbəri Səbuhi Abbasov isə çıxışında demişdir ki, istənilən dövlətin mövcudluğu və inkişafı dövlət hakimiyyətinin təşkilinə dair əsas konstitusiya prinsiplərinin mövcudluğu ilə şərtlənir: "Hər bir hüquqi dövlətin konstitusiyası bu təməl prinsiplərini müəyyən edərək, insan hüquqları və azadlıqlarının müdafiəsi, hakimiyyətin bölgüsü və digər bir sıra mühüm hüquqi başlanğıcları özündə ehtiva edir".

Tədbirin sonunda Azərbaycan Respublikası Konstitusiyasının xüsusiyyətləri, konstitusiya ilə müəyyən olunmuş əsas insan hüquq və azadlıqları və həmin hüquqların ölkədaxili və beynəlxalq müdafiəsi mexanizmləri, insan hüquqlarının müdafiə mexanizmi kimi ombudsman təsisatının fəaliyyət istiqamətləri barədə iştirakçılara ətraflı məlumat verilmiş, onları maraqlandıran suallar cavablandırılmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Miras JİENBAYEV: "Yaşıl energetika"nı inkişaf etdirmək təşəbbüsünü irəli sürən Azərbaycan enerji sahəsində regional münasibətlərə vizyonunu təqdim edir"

Qazaxıstanın Maqsut Narıkbayev Universitetinin "MIND" Elmi və Analitik Mərkəzinin xarici siyasət və beynəlxalq tədqiqatlar Proqramının rəhbəri Miras Jienbayev strateji təşəbbüslər və onların regional inkişafa təsiri barədə ekspert rəyini AZƏRTAC-la bölüşüb.



*- Azərbaycan Prezidenti İlham Əliyev Çinin CGTN telekanalına müsahibəsində Orta Dəhliz və Xəzər dənizinin dibi ilə enerji kabelinin çəkilməsi layihəsi ilə bağlı bir sıra məsələlərə toxunub. Bölgədə "yaşıl enerji"nin inkişafı üçün sonuncunun əsas üstünlüyü nədir?*

- Xəzərin dibi ilə enerji kabelinin çəkilməsi iddialı təşəbbüsdür. Bu, sadəcə olaraq ayrıca layihə deyil, qlobal enerji siyasətinin yeni şəraitində bütün regionun inkişafı üçün daha böyük planın bir hissəsidir. Müxtəlif sanksiyaların qüvvədə olduğu və geosiyasi vəziyyətin dəyişdiyi müasir dünyada Avrasiya ölkələri üçün təkcə öz aralarında əlaqələri gücləndirmək deyil, həm də sadəcə olaraq bu kanalları işlək vəziyyətdə saxlamaq vacibdir. "Yaşıl enerji"ni inkişaf etdirməyi təklif edən Azərbaycan regionda enerji əlaqələrinin gələcəyinə vizyonunu təqdim edir. Ölkələr təkcə yeni enerji nəqli marşrutları deyil, qlobal enerjidə güc balansını dəyişdirə biləcək bütöv bir enerji dəhlizi yaradır. Bu, ölkələrimizə beynəlxalq ticarətdə daha yaxşı iştirak etməyə və "yaşıl iqtisadiyyat"ları inkişaf etdirməyə kömək edəcək.

Xatırlatmaq istərdim ki, 13 noyabr 2024-cü ildə Bakıda keçirilən COP29 iqlim konfransı çərçivəsində Azərbaycan, Qazaxıstan və Özbəkistan "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş imzalayıblar. Bu, bizim makroregion ölkələrinin bir-birinə daha da yaxınlaşması yolunda böyük və mühüm addımdır, həmçinin əlaqələrimizin sabitliyinə və şaxələndirilməsinə qoyulan inamlı sərmayədir.

*- Çinin karbohidrogen istehlakının azaldılması və ekoloji cəhətdən təmiz enerjiyə keçid təcrübəsi yaşıl enerjinin inkişafında Azərbaycan və Mərkəzi Asiya ölkələri üçün necə faydalı ola bilər?*

- Azərbaycan Mərkəzi Asiya ölkələri ilə birlikdə "yaşıl enerji"nin inkişafı ilə ciddi məşğul olub. Çinin bu istiqamətdə təcrübəsi xüsusilə maraqlıdır. Bu ölkənin dünyada ən böyük neft və qaz istehlakçısı olmasına baxmayaraq, Pekin artıq bir neçə ildir ki, istehlakını və karbohidrogen alışını ardıcıl olaraq azaldaraq ekoloji cəhətdən təmiz enerjiyə fəal şəkildə keçid edir. Bu keçid bir çox sahədə nəzərə çarpır. Məsələn, Çinin yollarında getdikcə daha çox elektromobil peyda olur və onların ölkədəki avtomobillərin ümumi sayındakı payı dünya üzrə orta göstəricidən xeyli yüksəkdir. Bu ölkənin həm də dünyanın ən böyük elektrik avtomobili istehsalçısı olduğunu nəzərə alsaq, bu, "yaşıl inkişaf" gündəmində böyük struktur dəyişikliyidir.

Çin iqtisadiyyatının karbohidrogen istehlakının pik həddini keçdiyi və iqtisadi siyasətin getdikcə daha çox "yaşıl enerji"yə üstünlük verdiyi barədə konsensus proqnozu var. Qeyd etmək lazımdır ki, Çin alternativ enerjini Qərb ölkələrindən daha sürətlə inkişaf etdirir.

Qlobal enerji sektorunda qeyri-müəyyənliyə və ABŞ-nin Paris Sazişindən çıxmasına baxmayaraq, emissiyaların azaldılması istiqamətində qlobal tendensiya dayanmayıb. Qitənin həm qərbində, həm də şərqində yerləşən Avrasiya ölkələri çirklənməni azaltmağa davam edir. Avropa Birliyi böyük karbon izi olan mallara yüksək vergilərlə ətraf mühit uğrunda mübarizə aparır. Çin tədricən kömür və neftdən uzaqlaşır, bərpaolunan enerjini inkişaf etdirir. Azərbaycan Mərkəzi Asiya ölkələrinə "yaşıl enerji"nin birgə inkişafını və genişmiqyaslı enerji keçidinə hazırlığı təklif etməklə liderlik nümayiş etdirir.

*- Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) artan yükdaşımaları kontekstində hansı infrastruktur problemləri ilə üzləşir?*

- Orta Dəhliz müəyyən çətinliklərlə üzləşən böyük nəqliyyat layihəsidir. Mövcud infrastruktur həmişə artan daşımaların öhdəsindən gələ bilmir. Yüklərin daşınması sürətlə artdıqda yollar, limanlar və digər nəqliyyat vasitələri daim təkmilləşdirilməlidir. Layihə o qədər sürətlə inkişaf edir ki, nəqliyyat infrastrukturunu yeniləməyə və genişləndirməyə vaxtımız olmasa, onun artımı ləngiyə bilər. Hazırda Mərkəzi Asiya ölkələri və Azərbaycan Orta Dəhlizinin inkişafına fəal dəstək verir və bunun sayəsində onun vasitəsilə mal və xidmətlərin axını durmadan artır. Bu gün əsas vəzifə perspektiv inkişaf vektorlarını düzgün müəyyən etməklə yanaşı, yeni nəqliyyat və logistika qovşaqları və marşrutları açmaqla mövcud infrastrukturu təkmilləşdirmək, habelə yeni "artım nöqtələri" yaratmaqdır. Orta Dəhlizin inkişafı ilə bağlı bütün siyasi məsələlər artıq həll olunub: müxtəlif ölkələrin nazirlikləri daim birgə işləyir, qiymət və tarifləri razılaşdırır, infrastrukturla bağlı mövcud problemləri həll edir.

Layihənin əsas iştirakçıları olan Qazaxıstan, Azərbaycan, Gürcüstan və Türkiyə Orta Dəhlizin necə inkişaf etdirilməsi ilə bağlı tam razılığa gəliblər. Ölkələrin liderlərinin siyasi iradəsi Orta Dəhliz layihəsinin inkişafında dövlət resurslarının səfərbər edilməsində getdikcə daha çox gözəçarpan amilə çevrilir. Onun fəaliyyətinin uğuru və gələcək inkişafı məhz bu ölkələrdən asılıdır.

*- Xəzər dənizinin liman infrastrukturunun inkişafı Orta Dəhlizinin səmərəliliyinə necə təsir edir?*

- Hazırda Xəzər dənizindəki limanların modernləşdirilməsinə xüsusi diqqət yetirilir və bu, regionun bütün ölkələri üçün vacibdir. Qazaxıstan bu sahəyə aktiv şəkildə öz vəsaitlərini yatırır, həmçinin Yaponiya, Çin və Koreyadan, habelə Aİ ölkələrindən iri şirkətləri, ən böyük tərəfdaşlarımızı cəlb edir.

Hazırda əsas vəzifələrdən biri Xəzər dənizi ilə daşımaların həyata keçirilməsi üçün dəniz donanmasının inkişafıdır. Bunun üçün biz limanları genişləndirməli və yeniləməliyik ki, bu da yüklərin çatdırılmasını daha sürətli və səmərəli etməyə kömək edəcək. Bu, Bakı üçün də vacibdir. Eyni zamanda infrastrukturun daimi inkişafı problem deyil, normal prosesdir. Maraqlıdır ki, təxminən 2-3 il əvvəl bəzilərinin şübhə ilə yanaşdığı Orta Dəhliz indi əla iqtisadi nəticələr verir və Avrasiyanın nəqliyyat çərçivəsində yeganə cazibə nöqtəsidir.

Bu layihə regionun nəqliyyat sistemini tamamilə dəyişdi. Orta Dəhliz təkcə iştirakçı ölkələr üçün deyil, bir çox başqa dövlət üçün də vacibdir. İndi onlar sanksiyalardan və digər məhdudiyyətlərdən qorxmadan mallarını daha sürətli və daha ucuz çatdıra bilirlər.

*- Nəqliyyat infrastrukturunun modernləşdirilməsi iqtisadiyyatın digər sahələrinin inkişafına necə təsir edir?*

- İndi əsas məsələ odur ki, nəqliyyat infrastrukturunun genişləndirilməsi və təkmilləşdirilməsi davam etdirilsin. İnfrastrukturun genişlənməsi iqtisadiyyat üçün yeni imkanlar açır. Bu, tikinti sektorunun inkişafına kömək edir, investisiya cəlb edir, mal və xidmətlərin logistikası ilə bağlı digər sənaye sahələrinə müsbət təsir göstərir. Son nəticədə iqtisadiyyatda mühüm multiplikator effekti yaranır ki, bu da bir sıra regionların iqtisadi strukturunun əhəmiyyətli dərəcədə yenidən balanslaşdırılmasına imkan verir, həmçinin region iqtisadiyyatı üçün yeni artım nöqtələri yaradır.

İnfrastruktur layihələri eyni vaxtda bir neçə iqtisadi sektorun inkişafına təkan verir. Qazaxıstan indi limanların, avtomobil yollarının və dəmir yollarının modernləşdirilməsinə vəsait qoyur və bunu iqtisadiyyatı yeniləmək üçün bir vasitə kimi görür. Azərbaycan da eyni kursla irəliləyir.

*Mərmərə Qrupunun rəhbəri:*

# "COP29-un uğurlu təşkili Azərbaycanın beynəlxalq aləmdəki rolunun göstəricisi oldu"



"Azərbaycan bu gün müasir dövlət olaraq Qafqazın sabitliyi və təhlükəsizliyinin təminatçısıdır. Son illər Azərbaycanın evsahibliyi ilə keçirilən saysız-hesabsız mühüm beynəlxalq tədbirlər, eləcə də xarici platformalarda uğurlu təmsilçilik və beynəlxalq aləmdə söz sahibinə çevrilməsi ölkənin bugünkü rolunu və mövqeyini açıq şəkildə göstərir. Təkcə 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi, 80-dən çox ölkədən dövlət və hökumət başçılarının iştirakı ilə keçirilən COP29 bunun ən bariz nümunəsidir. Xüsusilə də COP29-un iştirakçı ölkələrin böyük rəğbətini qazanması tədbir çərçivəsində aparılan iqlim müzakirələrində əldə olunan həmrəylik və hədəflər Azərbaycanın beynəlxalq aləmdə söz sahibi ölkəyə çevrilməsinin göstəricisidir. Ölkənin beynəlxalq arenadakı uğurlarından danışarkən, əlbəttə ki, Qarabağ probleminin beynəlxalq hüququn prinsipləri və normalarına, eləcə də BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq həll edilməsi, bununla da bölgədə sülhün təmin olunması Azərbaycanın beynəlxalq aləmdə böyük uğuru kimi tarixə düşüb".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri, professor Akkan Suver ifadə edib.

Professor deyib ki, Prezident İlham Əliyevin düzgün siyasəti nəticəsində bu gün Azərbaycan təkcə Qafqazda deyil, qlobal arenada da sülh, sabitlik və inkişaf nümunəsi, təhlükəsiz ölkə kimi tanınır. "Bu gün münaqişələrin və qarşıdurmaların yaşandığı coğrafiyamızda Rusiya, Çin, Avropa İttifaqı və ABŞ ilə münasibətləri düzgün xətt üzrə davam etdirmək böyük diplomatik uğurdur. Bu, yalnız doğru idarəçilik sayəsində mümkün ola bilər. Altmış il əvvəl Paris "İşıqlar şəhəri" adlandırılırdı, bu gün isə Bakı onu geridə qoyacaq miqyas və diplomatik əhatə dairəsinin genişliyi baxımından həqiqi işıqlar şəhərinə çevrilib. Bakı ilə yanaşı, viran qalmış vəziyyətdə işğaldan azad edilən Şuşa, Ağdam, Füzuli və Xankəndi kimi tarixi Azərbaycan torpaqları da çox qısa zamanda sivilizasiya mərkəzinə çevrilib, bu inkişaf hələ də davam edir. Bütün bunlar ölkənin təkcə xarici deyil, eyni zamanda düzgün daxili siyasətinin də bariz göstəriciləridir. Bunları nə üçün deyirəm? Çünki Azərbaycan dünya dövləti olaraq bu gün təkcə siyasəti və ya iqtisadi uğurları ilə deyil, həm də tarixi, mədəni, bəşəri, yəni insanı insan edən bütün dəyərlərə göstərdiyi böyük hörməti ilə də seçilir. Bu, Azərbaycan şəhərlərinin estetik görünüşündə də özünü göstərir", - deyə o vurğulayıb.

Akkan Suver deyib ki, beynəlxalq aləmdə saysız-hesabsız tərəfdaşlığa imza atan Azərbaycan təkcə türk dünyasının birliyinin formalaşmasına deyil, həm də İpək yolu təşəbbüsü çərçivəsində Çin ilə birgə yol xəritəsinin hazırlanmasına, Avropa İttifaqına üzv on ölkə ilə strateji tərəfdaşlığa, bunun kimi regional, qlobal sülh və inkişafa xidmət edən bir çox təşəbbüsə dəstək verib.

"Təbii ki, dünya ölkələri ilə münasibətlərdən bəhs edərkən Türkiyə ilə Azərbaycan arasındakı dostluğu və qardaşlığı vurğulamalıyıq. Ölkələrimiz arasında "Bir millət, iki dövlət" prinsipinə əsaslanan münasibətlər hər platformada qarşılıqlı dəstəyin və həmrəyliyin əsası olmaqla yanaşı, həm də bu gün dünyanın yüksələn ulduzu olan türk birliyinin təminatçısıdır", - deyə professor vurğulayıb.

# Ötən il Səngəçal terminalından 225 milyon bareldən çox neft və kondensat ixrac edilib

Ötən il "Azəri-Çıraq-Günəşli" (AÇG) və "Şahdəniz" yataqlarından neft və qazın sualtı boru kəmərləri vasitəsilə Səngəçal terminalına göndərilməsi davam edib.

AZƏRTAC bp-nin 2024-cü ilin yekun hesabatına istinadən xəbər verir ki, terminalın texniki emal sistemlərinin gündəlik gücü hazırda 1,2 milyon barel neft və kondensat, "Şahdəniz" qazı üçün təqribən 81 milyon standart kubmetrdir. Ümumi qaz emalı və ixracı gücü isə (AÇG səmt qazı da daxil olmaqla) gündəlik təqribən 100 milyon standart kubmetrdir. 2024-cü ildə terminal təxminən 225 milyon barel neft və kondensat, o cümlədən 224 milyon barel "Bakı-Tbilisi-Ceyhan" (BTC) və təxminən 1 milyon barel Qərb İxrac Boru Kəməri marşrutu vasitəsilə ixrac edib. Bu göstərici 2023-cü illə müqayisədə 2,17 faiz və ya 5 milyon barel azdır. Qaz terminaldan Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi (CQBKG) sistemi də daxil olmaqla əsasən Cənubi Qafqaz Boru Kəməri (CQBK) və terminalın qaz emalı obyektlərini "Azəriqaz"ın qazpaylama sistemi ilə birləşdirən Azərbaycana məxsus qaz kəməri ilə ixrac olunur.

İl ərzində terminaldan, həmçinin gündəlik orta hesabla təxminən 76 milyon standart kubmetr (təxminən 2 milyard 654 milyon standart kubfut) "Şahdəniz" qazı göndərilib.



# Son 5 ildə Azərbaycana ən böyük turist axını 2024-cü ildə qeydə alınıb

Son 5 ildə Azərbaycana ən böyük turist axını 2024-cü ildə qeydə alınıb və bu say 1 milyon 855 min 113 nəfər olub.

AZƏRTAC xəbər verir ki, Media Təhlil Mərkəzinin bununla bağlı hazırladığı məlumatda bildirilir ki, ötən il Azərbaycana gələn turistlərin sayı əvvəlki ilin göstəricisinə nisbətən 32,3 faiz və ya 452 min 513 nəfər çox olub. Bu artım Azərbaycanın turizm potensialının gücləndiyini, beynəlxalq bazarda daha cəlbedici məkanlardan birinə çevrildiyini və turizm sahəsində həyata keçirilən strategiyaların uğurla nəticələndiyini göstərir.

Rəsmi məlumatlar əsasında aparılan təhlil zamanı məlum olub ki, bütün dünyada olduğu kimi, ölkəmizdə də turist sayı yalnız pandemiya dövründə yəni 2021-ci ildə azalıb. Həmin il Azərbaycana gələn turist sayında 11,1 faiz azalma qeydə alınıb. Yazıda verilmiş cədvəllərdən də göründüyü kimi pandemiya dövründən sonra ölkəmizə gələn turistlərin sayı hər il artıb.

Rəsmi rəqəmlərə əsasən, ölkəmizə turizm məqsədilə səfər edən xarici ölkə vətəndaşları arasında şimal qonşumuz Rusiya Federasiyasından gələnlərin sayı daha çox olub. 2024-cü ildə Azərbaycana 600 min 186 rusiyalı turist səfər edib ki, bu da ölkəmizə gələn ümumi turist sayında əhəmiyyətli paya malikdir.

Hindistan 235 min 625 turist sayı ilə ikinci sırada qərarlaşıb. Buna səbəb son illərdə Hindistanla Azərbaycan arasında turizm əlaqələrinin genişlənməsi, Bakı və Qəbələnin hindistanlı turistlər üçün cəlbedici məkanlara çevrilməsidir.

Ötən il Azərbaycana gələn turistlər arasında Türkiyədən səfər edənlərin sayı 163 min 905 olub. İki ölkə arasındakı qardaşlıq münasibətləri, viza rejiminin olmaması və müştərək mədəni dəyərlər bu turizm axınının əsas amillərindəndir.

Məlumat üçün bildirək ki, Rusiya, Hindistan və Türkiyədən Azərbaycana səfər edənlər bütün turistlərin 53,9 faizini təşkil edir. Bu o deməkdir ki, ölkəmizi ziyarət edən hər iki turistdən biri məhz bu ölkələrin payına düşür.

2023-cü ildə Azərbaycana 114 min 322 hindistanlı turist səfər etmişdisə, 2024-cü ildə onların sayında 121 min 303 nəfər və ya 2,1 dəfə artım qeydə alınıb.

Ötən il həmçinin ölkəmizə gələn rus turistlərin sayında artım müşahidə olunub. Belə ki, 2024-cü ildə Azərbaycana səfər edən rus turistlərin sayı 2023-cü ilin göstəriciləri ilə müqayisədə 97 min 972 nəfər və ya 19,5 faiz çox olub.
















Qardaş Türkiyədən ölkəmizə səfər edən turistlərin sayındakı artım 22,4 faiz və ya 30 min 42 nəfərə bərabər olub. 2024-cü ildə Şərqi Asiya ölkələrindən Azərbaycana gələn turistlərin sayı da artıb. Çinli turistlərin sayı əvvəlki ilin göstəriciləri ilə müqayisədə 19 min 97 nəfər (90,8 faiz), Cənubi Koreyadan olan turistlərin sayında isə 6363 nəfər və ya 88,9 faiz artım müşahidə olunub.

2024-cü ildə ölkəmizə gələn xarici turistlərin 56,79 faizi gecəni Bakı şəhərində, 5,12 faiz şimal bölgəmiz olan Qusar rayonunda keçirib. Növbəti sırada Qusar rayonuna qonşu olan Quba rayonu yer alıb. Quba ərazisində gecələyən turistlərin sayı ümumi gecələmələrin 5,04 faizini təşkil edib. Azərbaycanın əsas turizm bölgələrindən sayılan Qəbələ rayonu 4,79 faiz ilə 4-cü, 4,47 faiz ilə Abşeron rayonu isə beşinci pillədə yer alıb. Ümumi gecələmələrin 23,78 faizi isə digər rayonların payına düşüb.

Azərbaycan və Ermənistanın Dövlət Statistika komitələrinin, Gürcüstanın isə Turizm Komitəsinin açıqladığı rəsmi məlumatlara əsasən, hər üç ölkəyə səfər edən turistlər arasında Rusiyadan gələnlərin sayı üstünlük təşkil edib. 2024-cü ildə Azərbaycana gələn rusiyalı turistlər ümumi turistlərin 32,35 faizini, Gürcüstana səfər edənlərin 21,87 faizini, Ermənistana səyahət edənlərin isə 49,50 faizini təşkil edib.

Gürcüstana gedənlər arasında azərbaycanlılar üçüncü sırada yer alır və ümumi turistlərin 16,43 faizini təşkil edib.

Ermənistana gedən turistlər arasında ikinci və üçüncü sıranı ardıcıl olaraq Gürcüstan (14,04 faiz) və İran (9,31 faiz) vətəndaşları tutur.

# İmişlidə Aqrar Biznes Festivalı keçiriləcək

Bu ilin ilk Aqrar Biznes Festivalı fevralın 19-da İmişli rayonunda keçiriləcək.

Kənd Təsərrüfatı Nazirliyindən (KTN) AZƏRTAC-a bildirilib ki, bu festivallar fermerlərin, kiçik və orta sahibkarların, kənd təsərrüfatı məhsul və avadanlıqlarının istehsalı ilə məşğul olan yerli və xarici şirkətlərin, eləcə də dövlət qurumlarının iştirakı ilə müxtəlif xidmət təklifi, innovativ məhsul və avadanlıqların əyani nümayişi şəklində həyata keçiriləcək. 2025-ci ildən bu festivallar ölkənin aparıcı banklarının tərəfdaşlığı ilə təşkil olunacaq.

Qeyd edək ki, ötən il Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə ölkənin 12 iqtisadi rayonunu əhatə edən 33 rayonunda Aqrar Biznes festivalı keçirilib. Sözügedən festivallarda 56 rayondan 17171 nəfər kənd təsərrüfatı məhsul istehsalçısı və emalçısı iştirak edib, fermerlərin maarifləndirilməsi istiqamətində aqrar sahənin prioritet sahələri üzrə ən qabaqcıl təcrübə və yeniliklərlə bağlı 32 təlim və 9 panel müzakirə təşkil olunub. Aqrar sahədə müasir innovativ yeniliklərin nümayiş olunduğu festivallar çərçivəsində bir sıra şirkət və fərdi sahibkar tərəfindən 6125000 manat həcmində satış həyata keçirilib, həmçinin kredit yarmarkalarında 6 bank tərəfindən 1662077 manat dəyərində kredit verilib.

Cari ilin ilk Aqrar Biznes Festivalı fevralın 19-da İmişli "ASAN xidmət" mərkəzinin qarşısında keçiriləcək. Festival çərçivəsində müxtəlif xidmət və məhsulların nümayişi ilə yanaşı, maliyyə qurumlarının iştirakı ilə "Dövlətin maliyyə mexanizmləri" mövzusunda panel müzakirələr təşkil olunacaq.



# Qazax teatrında "Səsin mənəm, Xocalı!" adlı səhnə əsəri nümayiş etdiriləcək



Qazax Dövlət Dram Teatrında XX əsrin qanlı faciəsi - Xocalı soyqırımına həsr edilmiş "Səsin mənəm, Xocalı!" adlı ədəbi-bədii kompozisiya nümayiş etdiriləcək.

Teatrdan verilən məlumata görə, hazırda məşqləri aparılan, fevralın 25-i nümayiş olunacaq ədəbi-bədii kompozisiyanın ssenari müəllifi və quruluşçu rejissoru Ceyhun Vəlizadə, rəssamı Aysan Omarovadır.

Rolları Əməkdar artist Hacı Hacıyev, Rüfət Ömər, Ceyhun Vəlizadə, Xəyalə Eminalıyeva, Zəmanə Dərviş, Kamil Məmmədov ifa edəcəklər. Yaradıcı heyət Novruz bayramına həsr olunan, balaca tamaşaçılar üçün nəzərdə tutulan "Ünsürlərin sehri" adlı tamaşanın məşqlərini də davam etdirir. 18, 19, 20 mart tarixlərdə nümayiş etdiriləcək tamaşada rolları Rüfət Ömər, Xəqan Qurbanov, Ceyhun Vəlizadə, Vüsal Hüseynov, Məmməd Hacaliyev, Əhməd Musayev, Zəmanə Dərviş, Aytac Cəfərova canlandıracaqlar. Səhnə əsərinə Ceyhun Vəlizadə quruluş verir. Teatrda gələn ay Ağalar İdrisoğlunun əsəri əsasında hazırlanan "Teleqram", Şəbnəm Xeyrullanın monopyesi əsasında hazırlanan "Arqon" adlı tamaşaların premyerası da nəzərdə tutulub.

# Goranboyda "Böyük qayıdış" adlı gənclər düşərgəsi təşkil olunub




Goranboy Olimpiya İdman Kompleksində rayon icra hakimiyyətinin, Gənclər və İdman Nazirliyinin, eləcə də Gənclər Fondunun dəstəyi ilə "Böyük Qayıdış" adlı gənclər düşərgəsi təşkil olunmuşdur.

4 gün davam edən düşərgədə respublikamızın müxtəlif regionlarından 50 nəfərədək gənc iştirak etmişdir. Düşərgə çərçivəsində komanda quruculuğu, liderlik, fərdi inkişaf təlimləri, intellektual yarışlar, hüquqi maarifləndirmə yarışları, peşəkarlarla görüşlər və musiqili gecələr keçirilmişdir.

Düşərgənin keçirildiyi müddətdə gənclər rayonun görməli və tarixi yerlərinə getmiş, Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən guşələrlə tanış olmuş və II Qarabağ müharibəsi zamanı həlak olmuş goranboylu şəhidlərin məzarlarını ziyarət etmişlər.

*S.ƏLİYEV,*
*"Azərbaycan"*

# İstanbulun tarixi kitabxanasına Azərbaycana dair zəngin kitab kolleksiyası hədiyyə edilib



Mədəniyyət Nazirliyinin layihəsi əsasında xarici ölkələrdəki Azərbaycan Mədəniyyət mərkəzləri tərəfindən yerli kitabxanalara ölkəmizə dair ana dilimizdə və təmsil olunduğumuz ölkələrin dillərində nəşrlər hədiyyə edilir, Azərbaycanla bağlı elmi fondlar zənginləşdirilir.

Bu çərçivədə Türkiyədəki səfirliyimizin nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi ilə İstanbulun ən böyük elm məkanlarından biri, Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin nəzdindəki tarixi Rami Kitabxanasına milli mədəniyyətimiz, tariximiz, ədəbiyyatımıza dair Azərbaycan və Türkiyə türkcəsində zəngin kitab kolleksiyası hədiyyə edilib.

Nəşrlərin təqdimatı ilə bağlı Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov və Rami Kitabxanasının müdiri Ali Çelikin iştirakı ilə görüş keçirilib.

Ali Çelik digər bənzəri məkanlardan fərqli olaraq daha böyük və yeni konseptlə təşkil olunan bu kitabxanada həm Türkiyə, həm də Azərbaycan dillərində ölkəmizə dair nəşrlərə ciddi ehtiyacın olduğunu bildirib.

O, Türkiyədəki Azərbaycan Mədəniyyət Mərkəzi ilə birgə həyata keçirilən layihə əsasında bu ilin aprelində kitabxanada "Azərbaycan Günü"nün təşkil olunacağı və burada ölkəmizə dair nəşrlərin təqdimatının keçiriləcəyini deyib.

Diqqətə çatdırılıb ki, tədbir çərçivəsində dahi Azərbaycan şairi və mütəfəkkiri, türk dünyası ədəbiyyatının banilərindən olan Nizami Gəncəvi yaradıcılığına dair beynəlxalq konfransın təşkili, eləcə də açıq havada Azərbaycan klassik musiqisi və muğamlarından ibarət konsert proqramının keçirilməsi ilə bağlı razılıq əldə edilib.

Samir Abbasov öz növbəsində Rami Kitabxanası ilə birgə layihə çərçivəsində bu elm mərkəzinin səsli kitabların hazırlanması bölməsində Azərbaycan xalq nağıllarının səsli versiyalarının ərsəyə gətirilməsi ilə bağlı razılığın əldə edildiyini deyib.

O bu təşəbbüsün ədəbiyyat nümunələrimizin təbliği və türk uşaqlara Azərbaycan folklorunun tanıdılması baxımından əhəmiyyətini vurğulayıb.

Sonra Azərbaycana dair yeni nəşrlər kitabxananın fonduna təqdim edilib.

# "Mif" adlı fərdi sərgi keçiriləcək




Fevralın 23-də Müasir İncəsənət Muzeyində gənc rəssam Nərmin Sadıqovanın "Mif" adlı fərdi sərgisi keçiriləcək. AZƏRTAC xəbər verir ki, sərgidə rəssamın astrologiya və müxtəlif mövzularda yaratdığı 40-a yaxın rəsm əsəri nümayiş olunacaq.

Nərmin Sadıqovanın yaradıcılığında yeni bir səhifə açan bu sərgi astrologiya və incəsənətin sintezini təqdim edərək, onların qarşılıqlı əlaqələrini araşdırmağa imkan yaradacaq. Rəssam on iki bürcün mifoloji mənasını, planetar təsirlərini və simvollarını kətan üzərində bədii yanaşma ilə əks etdirib. Seçilmiş kompozisiya quruluşu, rəng palitrası və digər ifadə vasitələri ilə bürclərin fərdi xüsusiyyətləri vizual şəkildə təqdim edilir. Astroloji biliklərlə zənginləşdirilmiş əsərlərdə təsvir olunan elementlər kosmosla əlaqəni daha dərindən hiss etməyə imkan yaradır.

Rəssamın yaradıcılıq üslubu müasir estetik meyilləri əks etdirərək, eksperimental və özünəməxsus xarakter daşıyır. O, portret, mənzərə, natürmort və digər janrlarda yaratdığı əsərlərlə izləyicilərə fərqli dünyagörüşü təqdim edərək onları düşünməyə təşviq edir.

Bu, Nərmin Sadıqovanın beşinci fərdi sərgisi olacaq və sənətsevərlərə bədii əsərlərin estetik gözəlliyini və astroloji simvolların dərin məzmununu kəşf etməyə imkan verəcək.

Sərgi martın 3-dək davam edəcək.


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


AZƏRBAYCAN
"Mən həmişə Azərbaycan xalqına həqiqəti söyləmişəm"
Prezident İlham Əliyev Davosda Çinin CGTN telekanalına müsahibə verib
Azərbaycan - Somali dostluq münasibətlərində yeni səhifə
Zəfər silsiləsi
"Maskaları çıxarın! Azərbaycanda USAID-in fəaliyyətinə yer yoxdur"

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Müxalifətin Paşinyana hücumu daha radikal xarakter alır



Ermənistanda iqtidar və müxalifətin bir-birinə qarşı hücumlarının daha radikal xarakter alması müşahidə edilir. Keçmiş hakimiyyət nümayəndələri baş nazirə qarşı şiddətli hücum başladıblar.

Paşinyanı hakimiyyətdə olduğu son 7 il ərzində Qarabağa dair "nəsə gizli plan qurmaq"da günahlandırılır və yekunda təslim olma aktını imzaladığına görə ona satqın, xain damğası vururlar. Son vaxtlar isə sülh müqaviləsinin imzalanmasının gündəmdə olduğu bir vaxtda baş nazirin Ermənistanı yeni müharibəyə aparacağına dair fikirlər səsləndirirlər.

"Hraparak" qəzeti yazıb ki, artıq Ermənistanda bəzi fiqurlar müxalifət formalaşdırmaq məqsədilə fəaliyyətə başlayıblar. Qeyd edilib ki, onlar qondarma mərkəzçi qüvvənin formalaşdırılması istiqamətində siyasi məsləhətləşmələr aparırlar: "Bu qüvvə ilk növbədə öz qarşısına Ermənistandakı psevdoqərbçilərin maskasını qoparmaq, onların Ermənistanın düşməni olduğunu və Nikol Paşinyanın maraqlarına xidmət etdiyini cəmiyyətə göstərmək vəzifəsini qoyacaq".

Bildirilib ki, məsləhətləşmələrdə Ermənistanın keçmiş ombudsmanı Arman Tatoyan, İrəvanın keçmiş meri Ayk Marutyan, Erməni Milli Konqresi, "Həyat üçün ölkə" və bir sıra digər qüvvələr iştirak edirlər.

"Ermənistan" müxalifət blokunun deputatı Qeqam Manukyan deyib ki, baş nazir Nikol Paşinyanın Milli Assambleyadakı bəyanatına əsaslanaraq, mümkün cinayətlə bağlı MTX-nin direktoru Armen Abazyana mesaj təqdim edib. Belə ki, Paşinyan deputat Kristin Vardanyanın sualını cavablandırarkən "Ermənistan" müxalifət blokunun parlament fraksiyasını Ermənistana qarşı hibrid müharibədə və təxribatda iştirakda ittiham edib.

Müxalifətçi deputat qeyd edib ki, bu, Cinayət Məcəlləsinin 299-cu maddəsinin, yəni dövlətə xəyanətin elementlərini ehtiva edir: "Mən məktuba Nikol Paşinyanın sözlərini əlavə etmişəm. MTX-nin direktorunu bu hesabata baxmağa, sonra isə prosesin gedişi barədə məlumat verməyə çağırıram".

Manukyanın fikrincə, Nikol Paşinyanın son 6 ildən artıq müddətdə verdiyi hər bir məsuliyyətsiz bəyanat cavabsız qalmamalıdır: "Gəlin görək Ermənistana qarşı hibrid müharibə aparan, ölkəmizdə xarici dövlətlərin lüğətindən istifadə edən, erməni xalqına qarşı fəaliyyət göstərən kimlərdir".

Bu arada "Hraparak" nəşri yazıb ki, milislərin maaşları xeyli azaldılıb, əvvəlki 200 min və daha çox məbləğdən 120-130 min drama düşüb. Qeyd edilib ki, milislər Ermənistan Müdafiə Nazirliyi ilə müqavilə bağlayan və sərhəddə dayanan könüllülərdir: "Bizə məlumat edən vətəndaşın sözlərinə görə, problem pulda deyil, dövlətin onlara münasibətindədir. İrəvan küçələrində çubuq fırladan orta təhsilli patrulçular faktiki olaraq 400 min dramdan çox maaş alır, sərhəddə dayananlar isə üç dəfə az maaş alırlar".

Görünən odur ki, Ermənistanda daxili siyasi vəziyyət tədricən mürəkkəbləşməyə doğru gedir. Bununla da ölkə sonu görünməyən daxili siyasi böhrana qədəm qoyacaq.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

"Bilgə Qrup" QSC-yə (VÖEN: 1305697041) məxsus, 6 sentyabr 2024-cü ildə itirildiyi elan edilmiş EL-460/2023 qeydiyyat nömrəli 13.06.2023-cü il tarixli lisenziya və EL-460/2023/1 qeydiyyat nömrəli 13.06.2023-cü il tarixli lisenziyanın əlavəsi tapılmışdır və tam qüvvədədir.

Bu səbəbdən 6 sentyabr 2024-cü il tarixli №193 (9648) nömrəli tirajda dərc edilmiş itki elanı qüvvəsini itirmiş hesab olunsun.

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclis Aparatının Milli Məclisin, komitələrin və komissiyaların işinin təşkili şöbəsinin baş məsləhətçisi Məhbubə İsayevaya bacısı

**PƏRVANƏ İSAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

AMEA-nın prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibbəyli Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin əməkdaşı Cəlal Bəydili-Məmmədova həyat yoldaşı filologiya elmləri doktoru

**PƏRVANƏ İSAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyev və xidmətin kollektivi Əməkdar rəssam

**ŞAMİL BUKSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Lənkəran Ağır Cinayətlər Məhkəməsinin sədri və kollektivi məhkəmənin hakimi Aqil Nuriyevə atası

**ABDUL NURİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Akademik Mehdi Mehdizadə adına Cəbrayıl şəhər tam orta məktəbin 1980-ci il buraxılış 10a sinfinin məzunları sinif yoldaşları Ziyafət Qarayevaya həyat yoldaşı

**İLHAM ƏDİL OĞLU QARAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3494**
**Sifariş 318**

**Qiyməti 60 qəpik**